1 Sosial struktur anlayışının mahiyyətini açıqlayın. Əhalinin sosial tərkibi haqqında məlumat verin. (asan)

Sosial stuktur dedikdə sözün əsl mənasında sosial sistem kimi götürülən cəmiyyətin ayrı-ayrı sosial qruplara, kollektivlərə, etniki birliklərə differensasiyası, onlar arasında qarşılıqlı təsir və funksional əlaqələr başa düşülür.

«Sosial struktur» anlayışı məhdud və geniş mənada işlənilir. Birinci halda sosial struktur dedikdə konkret sistem, onun struktur elementləri (siniflər, sosial qruplar və təbəqələr, digər birlik formaları) arasındakı münasibətlər başa düşülür. Geniş mənada götürülən sosial struktur isə sosial-sinfı, sosial-demoqrafik, sosial-ərazi, sosial-etnik, sosial-peşə strukturlarının məcmusunu əhatə edir. Sosial stuktur cəmiyyətin iqtisadi, siyasi və mənəvi mədəniyyət sistemləri, məişət münasibətləri ilə ayrılmaz əlaqəlidir. O, bir tərəfdən özündə həmin tərəflərin güclü təsirini hiss edir, digər tərəfdən isə özü onlara fəal əks təsir göstərir.

Sosial struktur öz daxili tərkibinə görə cox geniş anlayış olub, aşağıdakı tərəfləri əhatə edir:

1) əhalinin sosial tərkibi (sosial birlik formalarının, qrupların və təbəqələrinin ümumi əhali icərisində xüsusi çəkisi və bu münasibətdə bir-birilə nisbəti);

2) ayrı-ayrı sosial birliklərin ümumi sosial struktur daxilində yeri və rolu;

3) cəmiyyəti təşkil edən sosial qrupların və birliklərin funksional baxımdan qarşılıqlı münasibətləri;

4) sosial strukturun dəyişilməsi və inkişafın əsas meyilləri.

Əhalinin sosial tərkibinin daxilində aşağıdakı əsas tərəflər əhatə olunur:

a) sosial-sinfi birliklər, sosial qruplar və təbəqələr. Bu bölgünün əsasında işçilərin əmək bölgüsündə tutduğu yerin müxtəlifliyi durur;

b) işləyən əhalinin peşə tərkibi və kollektivlərə bölünməsi. Bunun əsasında işçilərin əmək bölgüsündə yeri ilə yanaşı diğər amillər-peşə məşğuliyyəti, ixtisas dərəcəsi, mənsub olduğu kollektivlərin səciyyəsi durur;

v) əhalinin sosial ərazi tərkibi. Bu bölgü üzvlərinin yaşayış məskənləri baxımından şəhərlərdə və yaxud kəndlərdə yerləşməsini ifadə rdir;

q) sinif və sosial qrupun öz daxilində mövcud olan daxili struktur bölgüsü elementləri və təbəqələr;

s) işçilərin əməyinin xarakterinə və məzmununa ğörə bölgüsü (fiziki əmək işçiləri və əqli əmək işçiləri);

d) əhalinin sosial-etniki birlik formalarına bölgüsü (millət, xalq, tayfa, qəbilə)

e) əhalinin sosial- demokratik bölgüsü (ailə, cinsə görə və nəslə görə bölgü).

Sosial strukturda mühüm elementlərdən biri də ziyalılardır. Ziyalılar ali və ya orta ixtisas təhsili tələb edən və ixtisaslı zehni əmək fəaliyyəti ilə peşəkar surətdə məşğul olan insanların birliyidir. Ziyalılar ictimai əmək bölgüsü sistemində və cəmiyyətin sosial strukturunda özünə məxsus yer tutur. Ziyalılar xüsusi müstəqil, sosial təbəqə kimi məhz kapitalizmdə yaranmışdır. Ziyalıların bir çox dəstələri bütünlükdə cəmiyyətin mənafeyinə xidmət edən sahələrdə işləyirlər. Bunlara misal olaraq elmi işdə, təhsildə, təbabət və səhiyyədə, ölkənin müdafiəsində calışan əqli əmək işçilərini göstərmək olar. Ziyalıların digər əhəmiyyətli hissəsini azad peşə sahibləri (yazıcılar, sənətkarlar, rəssamlar, artistlər və s.) təşkil edir.

Müasir şəraitdə Azərbaycan cəmiyyətinin sosial strukturu özünün qeyri sabitliyi və dinamizmi ilə səciyyələnir. Azərbaycanın indiki sosial strukturu üçün istehsalla birbaşa bağlı olmayan marginal təbəqələrin (işsizlər, qaçqınlar, aztəminatlılar və s.) xüsusi çəkisinin xeyli dərəcədə yüksək

olması səciyyəvidir.

2. Sosial sfera və onun fəaliyyət növlərini funksional təyinatına görə qruplaşdırın və izah edin. (asan)

Sosial sfera və onun fəaliyyət növləri funksional təyinatından asılı olaraq iki böyük qrupa bölünürlər: ictimai tələbatın təmin edilməsi ilə bağlı və cəmiyyətin fəaliyyəti üçün normal şəraiti təmin edən (elm, idarəetmə, ictimai asayişin qorunması və s.) və şəxsi tələbatın təmin olunması ilə bağlı olan sahələr.

Şəxsi tələbatları ödəyən sahələr də öz növbəsində iki qrupa bölünür.

1) mədəni (mənəvi) və sosial tələbatları ödəyən şəxsiyyətin ümumtəhsil səviyyəsinin yüksəldilməsinə və hərtərəfli inkişafına imkan yaradan, əhalinin səhhətinin möhkəmləndirilməsini təmin edən və işçi qüvvəsinin təkrar istehsalına bilavasitə təsir göstərən sahə və fəaliyyət növləri (maarif, mədəniyyət və incəsənət, səhiyyə, sosial təminat, bədən tərbiyəsi, idman);

2) xüsusilə məişət tələbatlarını ödəyən, ev təsərrüfatında əməyin qənaətinə və boş vaxtın çoxalmasına imkan yaradan sahə və fəaliyyət növləri (əhaliyə məişət xidməti, mənzil və kommunal təsərrüfatı, sərnişin nəqliyyatı və rabitə).

Sosial sfera işçilərinin əməyinin nəticələri maddiləşmir, lakin ilk növbədə maddi aləmi insan beynində əks etdirən məqsədəuyğun fəaliyyət kimi, ikincisi əmək prosesinin özündə istifadə olunan faydalı səmərə şəklində xidmət göstərən fəaliyyət kimi çıxış edir. Bu sahədə spesifik istehlak dəyəri - xidmət yaradılır və reallaşır. Sosial sferada əməyin ikinci fərqli xüsusiyyəti ondan ibarətdir ki, burada xidmətin yaranma və istehlak prosesi üst - üstə düşür.

Bir əlamətə görə sosial sferanın rolunu müəyyən etmək cəhdi onun

natamam və nəticə etibarilə səhv qiymətləndirilməsinə gətirib çıxarır. Məsələn bir sıra iqtisadçılar qeyd edirlər ki, sosial sfera fərdi istehlakı çoxaldır; bununla yanaşı onlar nəzərdən qaçırırlar ki, bu sferanın bütün sahələri yox, yalnız bir hissəsi istehlakın təmin olunmasında bu cür iştirak edir.

3. Sosial sferanın mahiyyətini açıqlayın. Sosial sahələri təsnifləşdirin və səciyyələndirin. (orta)

Sosial sfera- sosial proses subyektlərinin durmadan təkrar istehsalı zərurətindən doğan obyektiv tələbatın yaratdığı, cəmiyyətə məxsus bütöv, daim dəyişməkdə olan bir altsistemdir. İnsanın öz həyatını təkrar istehsal edən fəaliyyət sahəsidir, cəmiyyətin sosial funksiyasını həyata keçirən fəzasıdır. Burada insanın sosial və vətəndaş hüquqları reallaşır. Onun fəaliyyət göstərməsi obyektiv qanunlarla müəyyənləşdirilir və sosial idarəçiliyin müəyyən prinsiplərinə əsaslanır.

Sosial sferanın iqtisadiyyatı ehtiyatların məhdudluğu şəraitində, təhsil, mədəniyyət və incəsənət, səhiyyə, sərnişin nəqliyyatı və rabitə, bədən tərbiyyəsi və idman, turizm xidməti, sosial təminat, mənzil-kommunal təsərrüfatı, maliyyə - kredit və digər sahələrində yaranan iqtisadi münasibətlər sistemini tədqiq edir.

Sosial sahələrin əsas məqsədiəhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradan maddi və xidmət sferasını inkişaf etdirmək, əhalinin tələbatına uyğun istehsal, istehlak, bölgü, mübadilə proseslərini və əsas növlərini yaratmaqdan ibarətdir. Sosial sfera insanların bölgü, istehsal və istehlak münasibətlərini formalaşdırır.

Sosial sahələrin iqtisadiyyatı fənninin obyektini bu sferada (təhsil, səhiyyə, mədəniyyət, turizm, sosial təminat, mənzil-konununai təsərrüfatı

və s. sahələrdə) fəaliyyət göstərən müəssisə və təşkilatlar, predmetini isə qeyd olunan sahələrdə baş verən hadisə və proseslərin, münasibətlərin xüsusiyyətləri, yalnız bu sahəyə məxsus qanun və qanunauyğunluqların açılması təşkil edir.

Sosial sfera iqtisadi fəaliyyət xarakterinə görə özündə müxtəlif sahələri birləşdirir. Hal - hazırda mövcud olan iqtisadi sahələrin təsnifatına görə sosial sferaya aşağıdakı sahələr aid edilir:

Təhsil;
Səhiyyə;
Elm və elmi xidmət;
Mədəniyyət və incəsənət;
Bədən tərbiyyəsi və idman;
Turizm və sosial-mədəni servis xidmətləri;
Sosial müdafiə və sosial təminat;
Sosial və tibbi sığorta iqtisadiyyatı;
Əhaliyə məişət xidmətləri;
İctimai iaşə xidmətləri;
Sərnişin nəqliyyatı;
Əhaliyə rabitə və informasiya xidmətləri;
Mənzil-kommunal təsərrüfatı.

Bir çox iqtisadçılar sosial sferaya ticarət və ictimai iaşənin, hətta maddi texniki təchizatın, satış və tədarükünün də əlavə olunmasını zəruri hesab edirlər. Fikrimizcə bü cür yanaşma mübahisəlidir. Ticarət və ictimai iaşənin maddi istehsal sahələrinə aid edilməsi tamamilə qanunauyğundur, çünki ticarət əhaliyə məhsulların alınmasında xidmət göstərsə də iqtisadi məzmunca onun xidmətləri hər şeydən əvvəl istehsala göstərilən xidmətlərdir. Ticarətin əsas funksiyası tələbin öyrənilməsi və istehsal

olunan malların istehlakçıya çatdırılmasıdır. İctimai iaşədə istehsal funksiyası xam məhsulların istehlak üçün hazır vəziyyətə gətirilməsi üstün yer tutur. Maddi - texniki təchizat, satış və tədarük isə bütövlükdə istehsalın tələbatına xidmət göstərirlər.

Sosial sferaya daxil olan sahələrin ümumi oxşar cəhətləri vardir:

1. Sosial sferaya daxil olan sahələri xarakterizə edən göstəricilərlə həyat səviyyəsini səciyyələndirən əsas göstəricilər eyniyyət təşkil edir;
2. Sosial sferaya daxil olan sahələr əsasən xidmət sahələrini əhatə edir;
3. Bu sahələr məcmu halda maddi və mənəvi dəyər yaradaraq, insan potensialinin inkişafında əhəmiyyətli rol oynayir.
4. Sosial sferaya daxil olan sahələr ölkənin milli və iqtisadi təhlükəsizliyinin təmin olunmasının zəruri tərkib hissələri kimi çıxış edir.

4. Sosial sferanın xarakterik xüsusiyyətlərini nümunə göstərməklə izah edin. (orta)

Sosial sferanın xarakterik xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Birinci, sosial sfera maddi istehsaldan öz funksional təyinatı ilə fərqlənir. Burada, insana və onun yaşayışının sosial şəraitlərinə təsir mövcuddur. Sosial sferada işçilərinin əməyi xidmət formasında yerinə yetirilir. O, bir tərəfdən, əmək fəaliyyəti kimi, digər tərəfdən, faydalı əmək şəklində fəaliyyətin nəticəsi kimi çıxış edir. Xidmətin bu iki tərəfi vahid birliyi təşkil edir.

Sosial sferada xidmətlər, qeyri-maddi xidmətlər, sosial xidmətlər kimi təmsil olunur, çünki onlar əşya formasını almırlar və maddi sərvət formasında toplanmırlar.

Sosial xidmətlərlə yanaşı maddi-istehsal sahələrində yaranan xidmətlər də mövcuddur. Maddi xidmətlərə ticarət, ictimai iaşə, nəqliyyat və rabitə xidmətlərinin bir çoxu daxil edilir.

İkinci, sosial sferada əmək prosesi maddi istehsalla müqayisədə fərqli cəhətlərə malikdir. Sosial sferada çalışanların əməyi fərdiləşmişdir. Sosial sfera insanların fərdi tələbatları müxtəlif cür zövqləri, əhval-ruhiyyələri ilə əlaqəlidir. Bu, sosial sahələrdə işləyənlərin şəxsi keyfiyyətlərinə xüsusi tələblər irəli sürür. Ona görə də, sosial sferada ixtisaslı işçilərin xüsusi çəkisi yüksəkdir.

Üçüncü, sosial sferada əməyin maddi şərtləri (əsas fondlar) maddi istehsalın əmək vasitələri ilə xaricən uyğunlaşa bilərlər. Amma, iqtisadi cəhətdən onlar uzunmüddətli istifadə olunan əmək əşyaları kimi çıxış edirlər, öz dəyərini yaranan məhsula keçirmirlər. Onların dəyəri istehlak prosesində yoxa çıxır.

Dördüncü, sosial sferada əmək mexanikləşdirmə və avtomatlaşdırmanın təsirinə nisbətən az miqyasda düşür. Buna görə də, sosial sahələr maddi istehsalla müqayisədə daha yüksək əməktutumluluğu ilə fərqlənirlər. Xidmətlərin həcminin genişlənməsi və keyfiyyətinin yaxşılaşması əsasən bu sferanın əmək resurslarının sayının çoxalması, əməyin təşkili və idarəetmənin mütərəqqi metodlannın daxil edilməsi hesabına təmin olunur.

Beşinci, xidmətlər istehlak əşyalarıdır, pullu, güzəştli və pulsuz xidmətlərə bölünürlər. Pulsuz xidmətlər - sosial sferanın sosial-mədəni sahələrinin xidmətləridir (təhsil, səhiyyə, mədəni xidmətlərin bir çox növləri və s.). Pulsuz xidmətlərin inkişafı ictimai istehlak fondları hesabına təmin olunur.

Mənzil-kommunal təsərrüfatı, məişət xidmətləri, nəqliyyat, rabitə,

turizm və s. sahələrin xidmətləri pullu xidmətlərə aiddirlər. Pullu xidmətlər sahəsi əhalinin tələbatının ödənilməsinin əsasən fərdiləşdirilmiş formasını ifadə edir. Pullu xidmətlər sahəsinin inkişafı əhalinin pul vasitələrinin, həmçinin müəssisə və təşkilatların vasitələrinin cəlb olunması hesabına təmin edilir.

Altıncı, sosial sferanın müəssisə və idarələrinin geniş əraziyə səpələnməsi ilə xarakterizə olunur, bu da ki, əhalinin bu obyektlərə gəlməsini geniş surətdə təmin edilməsinin zəruriliyindən irəli gəlir.

5. Sosial sferanın xarakterik xüsusiyyətləri ni qruplaşdırıb müqayisəli şəkildə təhlil edin.

Sosial sferanın xarakterik xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Birinci, sosial sfera maddi istehsaldan öz funksional təyinatı ilə fərqlənir. Burada, insana və onun yaşayışının sosial şəraitlərinə təsir mövcuddur. Sosial sferada işçilərinin əməyi xidmət formasında yerinə yetirilir. O, bir tərəfdən, əmək fəaliyyəti kimi, digər tərəfdən, faydalı əmək şəklində fəaliyyətin nəticəsi kimi çıxış edir. Xidmətin bu iki tərəfi vahid birliyi təşkil edir.

Sosial sferada xidmətlər, qeyri-maddi xidmətlər, sosial xidmətlər kimi təmsil olunur, çünki onlar əşya formasını almırlar və maddi sərvət formasında toplanmırlar.

Sosial xidmətlərlə yanaşı maddi-istehsal sahələrində yaranan xidmətlər də mövcuddur. Maddi xidmətlərə ticarət, ictimai iaşə, nəqliyyat və rabitə xidmətlərinin bir çoxu daxil edilir.

İkinci, sosial sferada əmək prosesi maddi istehsalla müqayisədə fərqli cəhətlərə malikdir. Sosial sferada çalışanların əməyi fərdiləşmişdir. Sosial

sfera insanların fərdi tələbatları müxtəlif cür zövqləri, əhval-ruhiyyələri ilə əlaqəlidir. Bu, sosial sahələrdə işləyənlərin şəxsi keyfiyyətlərinə xüsusi tələblər irəli sürür. Ona görə də, sosial sferada ixtisaslı işçilərin xüsusi çəkisi yüksəkdir.

Üçüncü, sosial sferada əməyin maddi şərtləri (əsas fondlar) maddi istehsalın əmək vasitələri ilə xaricən uyğunlaşa bilərlər. Amma, iqtisadi cəhətdən onlar uzunmüddətli istifadə olunan əmək əşyaları kimi çıxış edirlər, öz dəyərini yaranan məhsula keçirmirlər. Onların dəyəri istehlak prosesində yoxa çıxır.

Dördüncü, sosial sferada əmək mexanikləşdirmə və avtomatlaşdırmanın təsirinə nisbətən az miqyasda düşür. Buna görə də, sosial sahələr maddi istehsalla müqayisədə daha yüksək əməktutumluluğu ilə fərqlənirlər. Xidmətlərin həcminin genişlənməsi və keyfiyyətinin yaxşılaşması əsasən bu sferanın əmək resurslarının sayının çoxalması, əməyin təşkili və idarəetmənin mütərəqqi metodlannın daxil edilməsi hesabına təmin olunur.

Beşinci, xidmətlər istehlak əşyalarıdır, pullu, güzəştli və pulsuz xidmətlərə bölünürlər. Pulsuz xidmətlər - sosial sferanın sosial-mədəni sahələrinin xidmətləridir (təhsil, səhiyyə, mədəni xidmətlərin bir çox növləri və s.). Pulsuz xidmətlərin inkişafı ictimai istehlak fondları hesabına təmin olunur.

Mənzil-kommunal təsərrüfatı, məişət xidmətləri, nəqliyyat, rabitə, turizm və s. sahələrin xidmətləri pullu xidmətlərə aiddirlər. Pullu xidmətlər sahəsi əhalinin tələbatının ödənilməsinin əsasən fərdiləşdirilmiş formasını ifadə edir. Pullu xidmətlər sahəsinin inkişafı əhalinin pul vasitələrinin, həmçinin müəssisə və təşkilatların vasitələrinin cəlb olunması hesabına təmin edilir.

Altıncı, sosial sferanın müəssisə və idarələrinin geniş əraziyə səpələnməsi ilə xarakterizə olunur, bu da ki, əhalinin bu obyektlərə gəlməsini geniş surətdə təmin edilməsinin zəruriliyindən irəli gəlir.

6. İşsizliyin hansı formaları var? Onları fərqləndirin (asan)

Müasir bazar iqtisadiyyatı şəraitində işsizliyin müəyyən tipləri mövcuddur:

1. Friksion işsizlik.
2. Struktur işsizlik.
3. Mövsümi (dövri) işsizlik.

Friksion işsizlik bir qayda olaraq qısamüddətli olur, könüllü xarakter daşıyır və uyğun iş yerinin axtarılma prosesini əks etdirir. Buna görə də friksion işsizlik müəyyən dərəcədə arzuolunan və qaçılmazdır, çünki işçilərin bir çoxu, bəlkə də hamısı, az maaş verilən işdən çox maaş verilən, daha az məhsuldar işdən daha yüksək məhsuldarlığı olan işə keçməyə çalışır, yaxud yaşadığı coğrafi ərazilərdəki iş yerlərində işləməyə üstünlük verirlər. Beləliklə friksion işsizlik o adamları əhatə edir ki, onlar iş gözləyirlər, iş yerini dəyişirlər, iş axtarırlar və s. onlar ümumi işsizliyin fonunda bir-birini əvəz edirlər.

Struktur işsizlik friksion işsizliyin davamıdır. Struktur işsizlik bir qayda olaraq uzunmüddətli olur, məcburi xarakter daşıyır. O, istehlak tələbatının artması ilə əlaqədardır. İstehlak tələbatının artması, yeni məhsula tələbat doğurur. Bu isə istehsal texnologiyasının dəyişilməsini, yeniləşməsini tələb edir və potensial mütəxəssislərə tələbatı artırır. Deməli, struktur işsizlik o adamları əhatə edir ki, onlar yeni ixtisas alırlar, ixtisaslarını dəyişirlər.

Dövri (mövsümi) işsizlik iqtisadi böhranla əlaqədardır. Lakin iqtisadiyyatın elə sahələri vardır ki (məs. Aqrar bölmə), orada mövsümi işsizlik təbiidir. Bu zaman iqtisadi böhran tsiklinin aşağı düşməsində işsizlik

ordusu artır.

İşsizliyin həcmi friksion işsizliklə struktur işsizliyin cəmindən ibarətdir. Dövlət işsizliyi aradan qaldırımaq üçün müxtəlif versiyalardan istifadə edir. Məsələn, dövlət ağır inflyasiya şəraitində faiz stavkasını azaltmaq yolu ilə istehsalı genişləndirməyi və bununla da işsizliyi aradan qaldırmağa çalışır. Əgər dövlət bu formadan istifadə edirsə, resurslardan, o cümlədən, əmək resurslarından istifadə səviyyəsi yüksək ola bilər. Lakin dövlətin bu siyasəti qısa müddət üçün əhəmiyyətli ola bilər.

7. Sosial sferanın maliyyə resurslarını şərh edin. Sosial fondları müqayisə edin.. (orta)

Sosial sferanın vacib tərkib hissələrindən biri onun maliyyə resurslarıdır. İstənilən ölkənin maliyyə resursları üç subyekt: dövlət, müəssisə (təşkilat) və əhali (ev təsərrüfatı) arasında təmasda olur və hərəkət edir.

Dövlət aztəminatlı ailələrin, əlillərin, tələbələrin, valideynlərini itirilmiş yeniyetmələrin və digər insanların, bir sıra sahələrin tələbatını ödəmək üçün həmin sahələrin xərcini büdcə vasitəsilə ödəyir. Müasir şəraitdə təşkilatların resursları əsasən sosial məqsədlərə istifadə olunur. Azərbaycan şəraitində neft sahəsi büdcənin əsas gəlirini formalaşdırır və büdcədən kənar fondlar yaradır. Büdcədənkənar fondlar bir başa işçilərin əməkhaqqını artırmaq, yaşayış üçün zəruri olan obyektlərin tikilməsini təmin etmək funksiyasını öz büdcəsi ilə reallaşdırır. Büdcədənkənar fondlar iri vergi ödəyiciləri olan neft şirkəti, Azərkimya, Azərqaz, Azərsu hesabına formalaşır. Dövlət büdcəsinə ödəmələrlə yanaşı sosial müdafiə fonduna vəsait ayırırlar. Sosial müdafiə fondu öz gəlirləri və xərclərini planlaşdırmaqla əhalinin sosial müdafiə məqsədini öz fəaliyyətinin əsas

istiqaməti kimi qəbul edir və bu məqsədə nail olmaq üçün proqnozlar hesablamalar aparır ki, bir tərəfdən gəlirlərini müəyyən etsin, digər tərəfdən isə gəlirlərə uyğun xərclərin əsas istiqamətini müəyyənləşdirsin. Məntiqi cəhətdən bu proses əksinə də ola bilir. Yəni xərclər müəyyən normaya görə hesablanır. Bu xərcləri təmin edən gəlirlər axtarılır, sonradan isə sosial vergilər, ödəmələr, o cümlədən müəssisədən, ayrı-ayrı fiziki şəxslərdən tutulan, alınan vergilər müəyyənləşir.

Sosial sferanın maliyyə maddi resursların formalaşmasının və inkişafının təminatı üçün qeyri-dövlət resursları əsas rol oynayır.

Qeyri-dövlət resursları dedikdə, iki əsas meyar başa düşülür. Birinci həmin resurslar idarəolunma baxımından və formalaşma mənbələrinə görə dövlət resurslarından azaddır. Daha çox sahibkarlıq, xüsusi təşkilatlar və əhalinin resursları ilə bağlıdır. Ikinci istiqamət isə nisbətən formalaşması mənbələrinə görə dövlətin rolu mövcuddur. Ancaq planlaşdırma və idarəetmə baxımından həmin orqanın vəzifəsi olaraq azaddır. Qeyri-dövlət resurslarını istinad vergi yolu ilə və vergiyə cəlb olunmadan sahibkarların özlərinin hesabına baş verə bilər. Sahibkarlar sahibkarlıq obyekti olaraq sosial tələbatı ödəmək üçün ərazidə və ya hər hansı sahə üzrə biznes planlı tərtib edirlər. Hər bir sahibkar birbaşa və ya istehsala xidmət vasitəsilə əhalinin və ya müəyyən sayda işləyənlərin sosial ehtiyaclarını ödəyir. Birbaşa sosial yardım əməkhaqqı sistemi vasitəsi ilə baş verir. Əməkhaqqının artımı sahibkarın mənfəətinin normadan artıq olmasından asılıdır. Həm də istehsalın, xidmətin genişlənməsi əməkhaqqının stimullaşdırıcı rolunun güclənməsi məqsədini güdür. Digər tərəfdən hər bir sahibkar, əlavə iş yerləri açıb iş şəraiti yaradır, pulsuz xidmət göstərir, mənzil şəraiti yaradır və s. bununla sosial mülkiyyətin formalaşmasına lokal şərait yaradır.

Sosial fondlar - əhaliyə sosial yardımın həyata keçirilməsi məqsədi ilə yaradılan pul vəsaitləri fondlarıdır. Sosial fondların yaradılmasının əsas mənbəyi mövcuddur: sığorta olunanların və muzdla işləyənlərin sığorta haqları, sahibkarların ödədiyi sığorta haqları, dövlət subsidiyaları.

Büdcədənkənar dövlət sosial fondları hesabına bir sıra məsələləri həll etmək mümkündür. Onlardan:

əhaliyə pul müavinətləri ödəmək, birdəfəlik yardım etmək yolu ilə sosial yardım və xidmət göstərmək;

əhalinin əmək qabiliyyətinin bərpası və qorunub saxlanmasını təmin etmək;

sosial infrastruktur müəssisələrini maliyyələşdirmək yolu ilə əhaliyə sosial xidmətlər göstərmək;

pensiya təminatını maliyyələşdirmək və s.

Azərbaycan Respublikasında büdcədənkənar məqsədli dövlət sosial fondlarına aşağıdakılar daxildir:

Dövlət Sosial Müdafiə Fondu; Əhalinin məşğulluğuna kömək fondu; Əlillərin sosial müdafiə fondu.

Məşğulluq fondu müstəqil maliyyə sistemi kimi respublika səviyyəsində və yerli səviyyədə yaradılır və dövlət əhalinin məşğulluğu siyasətinin həyata keçirilməsi tədbirlərini maliyyələşdirilməsi üçün istifadə edir. Məşğulluq fonduna ödəniş müəssisələrin əməyinin ödənilməsinə yönəldilən vəsaitin 2 faiz miqdarında təyin edilir və bu məsrəflər maya dəyərinə daxil edilir.

Əlillərin Sosial Müdafiə Fondunun büdcəsi mülkiyyət formasından asılı olmayaraq respublika ərazisində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatların mənfəətindən 1 faiz məcburi ayırmalar hesabına formalaşır.

8. Sosial sferada əmək məsrəflərinin əsas xüsusiyyətlərini nümunə üzərindən izah edin.. (orta)

Sosial sferanın əsas vəsaitlərinin təkrar istehsalının mühüm xüsusiyyəti ondan ibarətdir ki, onlar təbiətən iqtisadi cəhətdən uzun müddətli istehlak rifahına aiddir və insanların maddi rifahının artması, keyfiyyətcə inkişafı üçün maddi zəmin yaradırlar.

Sosial sferada əsas vəsaitlərin əhalinin keyfiyyət tərkibinə olan struktur uyğunluğu və sosial sferanın bölmə və sahələrinə kapital qoyuluşu arasındakı nisbətlər sosial mütənasiblik adlanır.

Sosial sferanın əsas vəsaitlərinin istehlak dəyərini səciyyələndirən, onların işlənməsi nəticəsində alınan sosial effekt, insanlara xidmət üçün rahat və əlverişli sanitar-gigiyenik və ekoloji şəraitin yaradılmasında, xidmət sahələri idarə və müəssisələr şəbəkəsinin maksimum dərəcədə rahat yerləşdirilməsində, onların geniş imkanlarında, həmçinin arxitektura, bədii, tarixi, estetik dəyərində öz təzahürünü tapır.

Əsas sosial sfera vəsaitlərinin sosial effekti və sosial sferada kapital qoyuluşlarının effekti nəqliyyat yorğunluğu vasitəsilə iqtisadi cəhətdən nisbətən qiymətləndirilə bilər. Bu sənaye zonasının ictimai və yaşayış tikililərinin dağınıq yerləşdirilməsi, nəqliyyat xətlərinin səmərəsiz planlaşdırılması çoxlu nəqliyyat növlərindən istifadə, artıq nəqliyyat dəyişmələri və s. səbəblərdən əmək və mədəni-məişət məqsədli gedişlər vaxtı işdənkənar vaxtın itirilməsini səciyyələndirir.

Nəqliyyat yorğunluğu işçilərin əmək məhsuldarlığının aşağı düşməsinə səbəb olduğuna görə onu şərti olaraq itirilmiş iş vaxtı ilə ifadə etmək olar. Bundan sonra əmək haqqı və yaxud bir saat ərzində istehsal edilən məhsulun dəyəri vasitəsilə istehsal edilməmiş məhsulun həcmini müəyyən etmək olar.

Sosial sferanın digər mühüm amilinin-təkrar istehsalın bir sıra xüsusiyyətləri mövcuddur. Bu amil əmək-insan resurslarıdır.

Xidmətlərin istehsalçıları ilə istehlakçıları arasındakı birbaşa şəxsi əlaqələr göstərilən xidmətin keyfiyyətinin insan-əmək resurslarının keyfiyyət icraçılarının ixtisas dərəcəsinin və peşə ustalığınm aparıcı rolunu müəyyən edir. Sosial-mədəni və işgüzar xidmətlər göstərən sahələrdə işçilərin yüksək təhsil və peşə hazırlığının səviyyəsi, əməyin yaradıcı, intellektual məzmunu ilə müəyyən olunur.

Müəssisələri insanların yaşayış zonalarına yaxın və işçilərinin əməyi əksər hallarda fiziki cəhətdən orqanizm üçün yüngül olan sosial sfera qadın əməyinin tətbiqi üçün çox əlverişli bir sahədir. İqtisadiyyatda qadınların


məşğulluğunun genişlənməsi bütün dünyada əsas etibari ilə onların sosial sferaya cəlb olunması hesabına baş verir. Xidmət sferasının bir çox sahələrində məşğulluğun daim "qadınlaşma" prosesi gedirdi. Nəticədə əmək kollektivlərində qadın və kişilərin məqsədəuyğun mütənasibliyi və nisbətləri pozulur ki, bunun da ağır sosial aqibəti olur. Məsələn, məktəblərdə kişi müəllimlərinin olmaması (xüsusən yuxarı siniflərdə) yeniyetmələrin tərbiyəsinə mənfi təsir göstərir, pedoqoji kollektivdə sağlam sosial-psixoloji şəraitin yaradılması çətinləşir.

9. Məşğulluğun səviyyəsini nümunə misal üzərindən hesablayın. Məşğulluğun sosial-iqtisadi strukturunu şərh edin. . (cetin)

İqtisadiyyatın bazar yönümlü inkişafı iş qüvvəsinin transformasiyasına səbəb olmuşdur. Əmək resurslarından səmərəli istifadə edilməsi məsələsinə 2 istiqamətdə baxmaq olar. Bir tərəfdən işsizliyi ləğv etmək üçün bütün işləyə bilən əhalinin işlə təmin olunması. İkinci bir tərəf iqtisadiyyatın tələbatını ödəyə bilən ixtisaslı kadrların, mütəxəssislərin işlə təmin olunması. Əmək resurslarının səmərəli bölgüsünün konkret metodikası yoxdur, lakin qanunauyğunluğu vardır. Belə ki, bu zaman ilk əvvəl maddi istehsalın tələbatı, onun da daxilində olan sahələrin tələbatı ödənilir. Bu ardıcıllıqla olan sahələrin də işçi qüvvəsinə olan tələbatı ödənilir. Lakin bu zaman müəyyən mütənasiblik - ümumi əhali ilə əmək resursları arasında, maddi istehsalla xidmət sahələri və kənd təsərrüfatı arasında və s. mütənasiblik gözlənilməlidir.

İqtisadi fəal əhalinin sayının əmək qabiliyyətli əhalinin sayına faiz nisbətinə əhalinin iqtisadi fəallığı əmsalı deyilir. İşsizlərin sayının iqtisadi fəal əhalinin sayına faiz nisbəti isə işsizliyin səviyyəsini səciyyələndirir.

Əməyin kəmiyyətini və strukturunu müəyyən edən əmək ehtiyatlarından fərqli olaraq, əmək potensialı əmək ehtiyyatlarının keyfiyyətini və potensial imkanlarını xarakterizə edir. Kəmiyyət nöqteyi nəzərdən əmək potensialının sinonimi "iqtisadi aktiv əhali" sayılır.



Məşğulluq və işsizlik vəziyyətini xarakterizə edən göstəricilərə aiddir: qeyri-institusional əhali, məşğul əhalinin sayı, işsiz əhalinin sayı, işçi qüvvəsinə daxil olmayan şəxslərin sayı.

Məşğulluğun səviyyəsi aşağıdakı düsturla hesablanır:

$$S_m = \frac{M}{İ_f} \times 100\%$$

S_m - məşğulluğun səviyyəsi, M - məşğulluq, $İ_f$ - iqtisadi fəal əhali.

Məşğulluğun sosial-iqtisadi strukturu aşağıdakı kimidir:

* muzdla işləyənlər;
* sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar;

- əmək qabiliyyətini itirənlər, məzuniyyətdə olanlar, ixtisasını artıranlar və s;

* sərbəst fəaliyyətlə məşğul olanlar;
* vəzifələrə seçilənlər və təyin olunanlar;
* hərbi xidmətdə və digər hərbi işdə olanlar;
* təhsil alanlar.

10. İşsizliyin orta aylıq səviyyəsini nümunə misal əsasında hesablayın. (cetin)

11. Sosial inkişafın mahiyyətini izah edin. (asan)

Sosial inkişaf iqtisadi inkişafın tərkib elementi olub, özünəməxsus qanunauyğunluqları, dəyişmə meyllən olan bir prosesdir. Sosial inkişaf

insanın həyat fəaliyyəti, həyat tərzi, davranışı, qərar qəbulu, onun məhsuldarlığı ilə bağlı olub iqtisadi inkişafın həm nəticəsi, həm də onun həlledici, təyinedicı amilidir. İlk növbədə sosial inkişaf həyat səviyyəsi, həyat tərzi, əmək haqqı. sosial müdafıə, sosial sığorta problemlərinin həlli ilə bağlıdır.

Sosial inkişaf prosesi özündə bir neçə mərhələni birləşdirir.

Bunlardan birincisi erkən yaşdan etibarən öyrənməyə başlamaqdır. Erkən tədris təşəbbüslərinə yatırılan investisiya insanlar arasında daha yüksək uğur üçün zəmanət ola bilər. Uşaqların öz təhsillərinə mükəmməl başlaması onların rifah və uğurlarının davamlı və uzunmüddətli olmasına əsas yaradır.

İkincisi uşaq qayğı sistemidir. Valideynlər övladlarının bağçalarda, məktəblərdə vəziyyətlərinin yaxşı olduğunu, onlara yüksək qayğı göstərildiyindən əmin olsalar öz işlərinə daha arxayın köklənəcəklər. İşəgötürənin işçiləri yüksək səmərəliliklə çalışsalar onun biznesi uğurlu olacaqdır. Tək-tək bizneslərin uğurlu olması ümumilikdə cəmiyyətin rifah halının yüksəlməsinə və sağlam iqtisadiyyatın yaranması şərait yaradır.

Beləliklə, bu gün uşaq qayğı sisteminin inkişaf etdirilməsi üçün yatırılan investisiya uzunmüddətli dövrdə iqtisadi səmərə olaraq geri qayıdacaqdır.

Üçüncüsü yaşayış yerlərinin insanlar üçün əlçatan olmasıdır. Mənzillər ailə həyatının əsasıdır; onların təhlükəsiz yaşaya biləcəkləri, övladlarını

böyüdə biləcəkləri, ictimai münasibətlər qura biləcəkləri və yaşlanan valideynlərinin qayğısını çəkə biləcəkləri bir məkandır.

Dördüncüsü ictimai həyatın digər sahələrinə yatırılan investisiyadır. Buraya gənclərin inkişafı üçün xidmət və proqramların təklif olunması ali təhsil imkanlarının yaradılması, iş yerlərinin açılması, insanların sağlam və aktiv həyat tərzinə təşviq olunması daxildir.

12. Sosial inkişafın dövlət tənzimlənməsinin əsas obyektləri haqqında məlumat verin. (asan)

Sosial inkişafın dövlət tənzimlənməsinin əsas obyektləri aşağıdakılardır:

1. Tələbat sislemi,formalaşması, dinamikası, meylləri və perespektivası;

2. Bölgü münasibətlərindən asılı olaraq əhalinin gəlirləri, alıcılıq qabiliyyəti və onun dinamikası;

3. Əhalinin maddi, mənəvi nemətlər və xidmətlər istehlakı və xidməti təmin edən uyğun sosial obyektlərin inkişafı xüsusiyyətləri, qanunayğunluqları. O cümlədən təhsil, məişət xidməti, sərnişin nəqliyyat və digər sosial sahələr;

4. Əhalinin həyat səviyyəsi, həyat tərzi, onları formalaşdıran amillər, iqtisadi və sosial mexanizmlərin həyat səviyyəsinə təsirinin öyrənilməsi bölmələri. Məsələn: qiymət, vergi, mal təklifi, respublikada göstərilən xidmətin miqdarı, kredit şərtləri;

5. Əhalinin məşğuliyyətinin əsas iqtiqamətləri (əmək şəraiti, sərbəst vaxt), ondan istifadə məsələləri, təbii artım prosesi, doğum və ölüm arasında nisbət;

6. Maarifin, mədəniyyətin, incəsənətin və digər mənəvi dəyərlərin mövcud vəziyyəti, onların inkişafının maliyyə əsasları, kadr təminatı, maddi

texniki bazası və d, aspektlər;

7. Yüksək ixtisaslı kadrların xalq təsərrüfatı tələbatına uyğun olaraq inkişafını tənzimləmək;

8. Xarici iqtisadi əlaqələrin, mədəni əlaqələrin, texniki əlaqələrin respublikada əhalinin həyat səviyyəsinə, məşğuliyyətinə, elmi texniki siyasətin formalaşmasına təsirini qiymətləndirmək;

9. Ətraf mühitin və təbii resurslardan istifadənin sosial atributları və bu sahələrin ınkişafı üçün lazım olan təşkilati - iqtisadi və texniki problemlərin həllin i müəyyən etmək daxildir.

Sosial inkişafın tənzimlənməsi bir çox iqtisadi elmlərin predmeti ilə sıx əlaqəlidir: strateji planlaşdırma, iqtisadiyyatın dövlət tənzimlə nməsi, iqtisadi nəzəriyyə və s.

13. Əhalinin həyat səviyyəsinin əsas göstəricilərini və tənzimlənməsi amillərini izah edin. (orta)

Əhalinin həyat səviyyəsi öz mahiyyəti etibarı ilə sosial iqtisadi kateqoriya olub, insanların istehlakı üçün lazım olan maddi və mənəvi nemətlərin miqdarı və tələbatının ödənilməsi göstəricisi kimi ifadə olunur. Həyat səviyyəsi ölkədə milli gəlirin istehsalı, bölgüsü və yenidən bögüsü əsasında formalaşır. İqtisadi imkanlar nə qədər yüksək olursa sosial inkşaf və həyat səviyyəsi üçün maddi imkanlar bir o qədər çox olur. Həyat səviyyəsinin yüksək olması iqtisadi inkişafa təsir edir, əmək məhsuldarlığını artırır, milli gəlirin və milli məhsulun artımına təsir edir.

Ədəbiyyatlarda həyat səviyyəsı sosial inkişafın sintetik göstəricisi kimi təsvır olunur. Onun qiymətləndirilməsi iki əsas metodoloji prinsip üzərində qurulur:

1. Həyat səviyyəsi istehlak olunmuş maddi və mənəvi nemətlərin məcmusu ilə müəyyən olunur.

2. Tələbat üzərində qurulur. Əhalinin tələbatı, onun tənzimlənməsi həyat səviyyəsinin və sosial inkişafın nəzəri metodoloji əsasını təşkil edir. Tələbat dedikdə insanların maddi nemətlərə, xidmət sahələrinə obyektiv ehtiyacları nəzərdə tutulur. Tələbatın formalaşması və onun ödənilməsi yolları həyat səviyyəsinin xarakterini, məzmununu müəyyən edir. Ona görə də tələbat sistemi həyat səviyyəsini müəyyən edir. Təcrübə göstərir ki, tələbat artdıqca, onun ödənilməsi imkanları yüksəldikcə ölkə daha inkişaf etmiş ölkələr sisteminə daxil olur. Beləliklə tələbatın ödənilməsi dərəcəsi həyat səviyyəsinin əsas göstəricisi kimi qəbul oluna bilər. Deməli həyat səviyyəsi maddi nemətlərin, xıdmətlərin istehlakı və tələbatın ödənilməsi dərəcəsi ilə müəyyən olunur.

Həyat səviyyəsi istehsal, bölgü, mübadilə və istehlak göstəricilərinə bölünür. Bu proseslərin qarşılıqlı və bir-birinə təsiri nəticəsində formalaşır. İstehsalın həcmi artdıqca həyat səviyyəsi üçün lazım olan maddi nemətlər çoxalır. Bu bölgü effekti səmərəli olduqda hər kəsin payı formalaşır, alıcılıq qabiliyyəti, gəlirlər formalaşır, istehsalın həcmini artırmaq üçün stimul yaranır. Mübadilə prosesində isədüzgün səmərəli tələb və təklif qanunauyğunluqları, proporsiyaları, mexanizmləri tətbiq etdikdə əhalinin alıcılıq qabiliyyəti reallaşır. Real gəlirləri artır, istehlak üçün əlverişli zəmin yaradılır. İstehlak prosesinin səmərəli əlverişli təşkili və effektli tənzimlənməsi əhalinin bilavasitə yaşayışını, həyat səviyyəsini artırır, tələbatın ödənilməsini təmin edir və insanların hərtərəfli inkişafı və təkrar istehsalı üçün maddi əsas yaradır.

Əhalinin həyat səviyyəsinin əsas göstəriciləri bunlardır: 1) adambaşına düşən milli gəlirin həcmi, 2) onun əhalinin qrupları və sinifləri arasında bölüşdürülməsi, 3) nominal və real əmək haqqı, 4) ictimai istehlak fondundan güzəşt və ödəmələr.

Həyat səviyyəsini tənzimləmək üçün onun amillərini tapmaq, formalaşma mənbələrini müəyyən etmək, gəlir və xərcləri tənzimləmək lazımdır. Gəlirlər forma və strukturundan asılı olaraq həyat səviyyəsinin formalaşması mənbələrinin maddi əsasını təşkiledir. Gəlirləri tənzimləmək üçün onların formalaşma mənbələrinə təsir edən amilləri tənzimləmək lazımdır. Əmək haqqı gəlirlərin əsas hissəsini təşkil edir. Mülkiyyət formasından asılı olaraq əmək haqqının formalaşması məzmunu və dinamikası dəyişilir. Məsələn: dövlət müəssisəsində işləyən əhalinin gəlirlərinin əsasını onların əmək haqqını təşkil edir. Kənd təsərrüfatında işləyənlərin gəlirlərinin əksər hissəsi natural gəlirlər və fərdi təsərrüfatdan əldə olunan gəlirlərdir. Gəlirlər pul və natural gəlirlərə bölünür. Natural gəlırlər şəxsi yardımçı təsərrüfatda yaradılan və əhalinin şəxsi istehlakına natural şəkildə daxil olan vəsaitlərin dəyərini əks etdirir. Natural gəlirlər istehlak olunmuş məhsulların miqdarı ilə ölçülür. Natural gəlirlərə pulsuz təhsil, səhiyyə xidməti və s. daxildir. Əhalinin pul gəlirlərinə isə işçilərin əmək haqqı, sahibkarlıq fəaliyyəti üə məşğul olan şəxslərin gəlirləri, pensiya, müavinət, təqaüd və başqa sosial transferlər, mülkiyyətdən gəlirlər, qiymətli kağızlar, dividentlərdən faizlər və digər dəlirlər daxildir. Hər bir gəlirin formalaşma mənbələri asılıdır: - mülkiyyət münasibətlərindən; təsərrüfatçılığın effektliyindən və bölgünün səmərəliliyindən.

14. Yaşayış minimumu haqqındaqanunun əsas anlayışlarını izah edin. Gəlirlərin bölgüsündə bərabərsizliyi yaradan amilləri şərh edin . (orta)

Yaşavış minimumunun tənzimlənməsinin qanunvericilik bazası.

Yaşayış minimumu haqqındaqanun ölkə üzrə minimum yaşayış səviyyəsini tənzimləmək, əhalinin gəlirlərinin və sosial müdafiəsinin, dövlət tədbirlərinin hüquqi-təşkilatı və tətbiqi əsaslarını müəyyəniəşdirir.

Bu qanunun məqsədlərini həyata keçirmək üçün aşağıdakı anlayışlardan istifadə olunur:

- Minimum istehlak səbəti - insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri - ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyən edilmiş toplusu;

- Yaşayış minimumu- minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial norma;

- İstehlak səbəti minimum yaşayış səviyyəsini təmin edən istehlak məhsullarını və xidmətlərin cari qiymətlərdə dəyəri və məcburi ödənişlərin məcmusu;

- Əhalinin əsas sosıal demoqrafık qrupları - yaş, cins əlamətlərinə, sosial vəziyyətinə görə fərqlənən əhali qruplar (əmək qabiliyyətli əhali, pensiyaçılar, əlillər, uşaqlar və s.);

* Ailədə adambaşına düşən orta gəlir - ailənin məcmu gəlirlərinin ailə üzvlərinin sayına nisbəti;

* aztəminatlı ailə - orta aylıq gəlirləri hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olanailə.

* Ünvanlı dövlət sosial yardımı - əhalinin aztəminatlı təbəqələrinə dövlət tərəfindən müxtəlif formalarda (sosial ödənişlər, müavinətlər, icbari ödənişlərdən güzəştlər və s.) göstərilən yardımlar;

Minimum əmək haqqı - qanunvericiliklə ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyən edən sosial norimativdir.

Gəlirlərin bölgüsündə bərabərsizliyi yaradan amillər aşağıdakılardan ibarətdir:

- ✓ Adamların şəxsi qabiliyyətindəki fərqlər, ayrı-ayrı insanların xüsusi istedada malik olması daha yüksək gəlir əldə etməyə imkan verir;
- ✓ Təhsilin səviyyəsi və işçilərin peşə hazırlığı daha yüksək gəlir qazanmağa şərait yaradır;
- ✓ Mülkiyyətə sahib olmaq, vərəsəlik hüququ gəlrlər arasında olan fərqləri artırır;
- ✓ Peşəkarlıq zövqü və riski, daha intensiv işləmək və risk etmək əldə edilən gəlirləri artırır;

- ✓ Bazarlarda hökmran mövqe tutmaq, süni şəkildə qiymətləri qaldırmaq gəlirlər arasında olan fərqlərə təsir edir;
- ✓ Psixoloji amillər, uğur qazanmaq, əlaqələr, bədbəxt hadisələr gəlirlər arasındakı bərabərsizliyə təsir göstərir.

Dövlətin gəlirlər siyasətində əsas istiqamət əhali gəlirlərini artırmaq və onun ədalətli bölgüsü üçün şərait yaratmaqdır. Gəlirlərin bölgü səviyyəsini müəyyən etmək üçün iqtisadi nəzəriyyədə Lorens əyrisindən istifadə olunur. Bu əyri Amerika iqtisadçısı və statistiki Maks Lorens tərəfindən tətbiq olunmuşdur. Lorens əyrisi müəyyən dövrlərdə əhali qrupları arasında gəlirin bölüşdürülməsinin müqayisəsi üçün istifadə edilir. Lorens əyrisi adamların rifah halının dəyişməsini, onların alıcılıq qabiliyyətini proqnozlaşdırmağa imkan verir. Gəlirlərin bölgüsündəki bərabərsizliyin dərəcəsini əks etdirən göstərici iqtisadi nəzəriyyədə İtaliya iqtisadçısı və statistiki Korrado Cininin adı ilə bağlı Cini əmsalı adlanır. Cini əmsalının qiyməti 0 ilə 1 arasında dəyişə bilər. Əmsalın 0 qiyməti gəlirlərin bölgüsündə mütləq bərabərliyi göstərir. Cini əmsalı da 1- ə yaxınlaşması gəlirlərin bölgüsündə bərabərsizliyi göstərir, bu isə heç bir ölkədə gözlənilmir. Bu cəmiyyətin məhvi deməkdir. Heç bir iqtisadi sistemdə gəlirlərin bölgüsündə bərabərsizliyi ləğv etmək mümkün deyil. Sadəcə olaraq bazar iqtisadiyyatı gəlirlərin yenidən bölgüsünü təmin etməklə belə hallara yol vermir.

15. Minimum istehlak səbətinin mahiyyətini və tərkibini praktiki əsasda izah edin. Sosial qanunları xarakterizə edin.

Minimum istehlak səbəti əhalinin sosial - demokratik qrupları üzrə, bir nəfərin və ya ailənin xərc maddələri üzrə aşağıdakı tərkibdə formalaşdırılır:

* ərzaq məhsullarının minimum toplusu;

* fərdi və ailəvi istifadə olunan qeyri - ərzaq mallarının minimum toplusu (geyim, təsərrüfat, mədəni-məişət, sanitariya əşyaları, dərmanlar və s);

- xidmətlərin mınimum toplusu (mənzii - kommunal, nəqliyyat, rabitə, məişət, təhsil, mədəni - maarif, müalicə - istirahət xidmətləri və s.).

Minimum istehlak səbətinin tərkibi dövlət elmi idarə və müəssisələrinin, qeyri - hökümət təşkilatlarının iştirakı ilə mivafiq icra hakimiyyət orqanı tərəifndən üç ildə bir dəfədən az olmayaraq müəyyənləşdirilır.

Sosial qanunlar iqtisadi qanunlar sistemində fəaliyyət göstərir. Hər bir iqtisadi prosesin sosial tərəfi mövcud olduğu üçün, onlar qarşılıqlı fəaliyyət göstərirlər.

Sosial qanunlar sisteminə aşağıdakı qanunvericinik bazası daxildir:

* Sağlamlıq haqqında qanun;
* Tibbi sığorta haqqında qanun;
* Mədəniyyət haqqında qanun;
* Tarixi abidələrin bərpası və qorunması haqqında qanun;
* Elm və incəsənət sahələri haqqında qanun.

Əhalinin həyat səviyyəsini və sosial inkişafını müəyyən edən iqtisadi-sosial qanunlar aşağıdakılardır:

* əhalinin istehlak büdcəsi haqqında qanun;
* gömrük məcəlləsi;
* vergilər haqqında qanunlar;
* dövlət büdcəsi haqqında qanun;
* ətraf mühitin qorunması haqqında qanun;
* məşğulluq haqqında qanunlar.

İqtisadi və sosial qanunlar real vəziyyəti yenidən təşkil etmək üçün düşünülür, onlar obyektiv qanunlardır. Qanunların tərtibi dünya ölkələrində olan inkişaf meyllərinə uyğun spesifık xüsusiyyətləri nəzərə almaqla işlənib

hazırlanır. Qanunların texnologiyasında təşəbbüskar kimi ölkə prezidenti, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Milli Məclisin uyğun komissiyaları çıxış edir. Belə ki, həmin problemlər qoyulur, onun məqsədi, mexanizmləri seçilir, sonra isə tənzimləmənin əsas müddəaları işlənib hazırlanır.

Sosial sahələr qanunvericilik obyekti olaraq sosial siyasətin reallaşmasının hüquqi əsasıdır. Sosial qanunlar Milli Məclisin Sosial Siyasət Komissiyası tərəfindən işlənib hazırlanır, parlament tərəfindən təsdiq olunur. Sosial qanunlar sahələr üzrə həm də insanın həyat səviyyəsi ilə bağlı olan vəzifələri həyata keçirir. Sosial qanunların obyektləri sosial problemlərdir. Onun mexanizmləri həyat səviyyəsini yüksəltmək, gənclərin inkişafını təmin etmək, sosial mühiti yaxşılaşdırmaq, əhalinin və aztəminatlı kateqoriyaların hüquqlarını və onların vəzifələrini müəyyənləşdirmək, bu insanların perspektiv gələcək inkişafına hüquqi baza yaratmaqdan ibarətdir. Bu sxem həm də sosial sahələr üçün də xarakterikdir. Sosial qanunların spesifik xüsusiyyətləri odur ki, onlar daha da dövlətin himayəçilik siyasəti ilə inkişaf edir, dövlətin mexanizmləri, ümumbüdcəsi, sosial təminatlar, maddi və təşkilati yardımlar, əhalinin mənafeyinin qorunması tədbirləridir. Sosial obyektlər dövlət tənzimlənməsinin obyektləridir. Onun əsas resursları dövlətin mülkiyyətində olan resurslarla təmin olunub və konstitusiya hüquqlarına uyğun olaraq hər bir şəxsin pulsuz ehtiyaclarını ödəmək vəzifəsini həyata keçirir. Sosial qanunlar sistemlidir. Çərçivə qanunları və o qanunlardan ayrılan qanunlar var. Məsələn, mədəniyyət haqqında qanun çərçivə qanunudur. Mədəni və mənəvi dəyərlərin qorunması, inkişafı, yerləşməsi, funksiyası hüquqi və təşkilati-iqtisadi bazasını müəyyənləşdirir. Bu qanunlardan çıxan digər qanunlar törəmədir. Məsələn, tarixi abidələrin

qorunması, muzeylər, kinolar haqda qanunlar.

16. Sosial sferanın idarə olunmasının mahiyyətini izah edin (asan)

Sosial sferanın idarə olunması dedikdə isə - təkrar sosial istehsal üçün zəruri olan xarici mühitin və və daxili şəraitin formalaşdırılması yolu ilə sosial subyektlərin sosial təkrar istehsalının idarə olunması başa düşülür. Belə olduqda, sosial sferaya təsir edən bütün amillər nəzərə alınır: məsələn, xarici və daxili, qanunauyğun və təsadüfi, həmçinin sabit və qeyri-sabit inkişaf şəraiti.

Məqsədyönlü idarəetmə mexanizmi, spesifik ictimai institutlar-idarəetmə subyektləri vasitəsilə həyata keçirilir. Bu subyektlər cəm halında, tərkibinə dövləti, siyasi partiyaları, ictimai təşkilatları və başqa elementləri daxil edən idarəedici sistemi əks etdirir. Regional və yerli səviyyələrdə bu vəzifələri müvafıq orqanlar və təşkilatlar icra edirlər.

Sosial sferanın dövlət tərəfından idarə olunması, sosial siyasətin məqsədlərinin həyata keçirilməsi, həyat səviyyəsini, sosial rifahı, əhalinin məşğulluğunu, ona sosial yardımı təyin edən qanunla müəyyənləşdirilmiş davranış qaydalarına əsaslanan mexanizmlərdən ibarətdir.

İnkişaf etmiş ölkələrin sosial proseslərin tənzimlənməsi təcrübəsində sosial proseslərin "ikilaylı" idarəçiliyi formalaşır. Birinci "lay" - maddi rifahın və xidmətlərin istehsalı sahəsi bazar mexanizmləri ilə tənzimlənirsə, ikinci "lay" insanın təkrar istehsalı sferası, "insan kapitalının" toplanması - faktiki olaraq, bazar münasibətlərinin "özbaşınalıqlarına" qətiyyən yol verməyən dövlət strukturları tərəfindən idarə olunur.

Sosial inkişafın idarə edilməsi dedikdə, sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsi, insanlar üçün sosial standartlara uyğun optimal həyat fəaliyyəti şəraitinin yaradılması üzrə dövlət hakimiyyəti orqanlarının, qeyri-dövlət strukturlarının və əhalinin məqsədyönlü,

cəmiyyətin bütün üzvlərinə nüfuz edən fəaliyyəti başa düşülür.

Dövlət, sosial sferanın müəssisə və idarələrinin fəaliyyətini hüquqi, inzibati və iqtisadi alətlər vasitəsilə idarə edir.

Bir çox hallarda sosial sferada özəlləşdirməyə və ya kommersiyalaşdırmaya yol verilmir və dövlət, vətəndaşların Konstitusiya hüquqlarını təmin etmək məqsədilə, sosial obyektlərin saxlanılması üçün lazım olan zəruri xərcləri öz üzərinə götürür.

Sosial sfera sahələrinin idarə edilməsində səlahiyyətlər, mərkəzi, regional və bələdiyyə hakimiyyət orqanları arasında bölüşdürülür. Sosial sfera sahələrinin inkişafı məsələlərinin əksəriyyəti yerli orqanlar tərəfından həll edilir. Mərkəzi orqanlar konkret sahələrdə sosial siyasətin istiqamətlərini əsaslandırır, sosial xidmət üzrə fəaliyyətin lisenziyalaşdırılması qaydasını müəyyənləşdirir, irimiqyaslı və kəskin sosial problemləri həll edirlər.

17. Dövlət səviyyəsində səhiyyə sisteminin idarə edilməsi vəzifələrini açıqlayın. (asan)

Səhiyyə sistemi - müalicə-profılaktik, elmi-tədqiqat, əczaçılıq, təhsil və digər idarələrdən, tibb texnikası, dərmanlar istehsal edən müəssisələrdən və səhiyyənin idarəetmə orqanlarından təşkil olunmuşdur.

Səhiyyə müəssisə və idarələri öz vəzifələrini, yalnız seçilmiş fəaliyyət növü üzrə lisenziya olduqda yerinə yetirə bilərlər. Lisenziyalar, fəaliyyət şəraitinin qəbul edilmiş standartlara uyğunluq sertifıkatı əsasında dövlət idarəetmə orqanlarının və ya onların tapşırığı ilə yerli hakimiyyətin təşkil etdiyi lisenziya komissiyaları tərəfından verilir.

Mərkəzi, dövlət səviyyəsində səhiyyə sisteminin idarə edilməsi vəzifələri Səhiyyə nazirliyinin üzərinə düşür. Nazirlik, əhaliyə tibbi yardımın göstərilməsinin prioritet təşkil edən istiqamətləri üzrə strategiyanı, məqsədli proqramları işləyib hazırlayır, tibbi sığorta və sosial təhlükəli

xəstəlik proqramları çərçivəsində əhalinin tibbi yardım həcmləri arasındakı nisbəti müəyyənləşdirir, kadr hazırlığını təşkil edir, investisiya siyasəti ilə məşğul olur, əhaliyə tibbi yardım göstərən təşkilatlara metodoloji dəstəyi təmin edir, əhaliyə tibbi xidmətin dövlət standartlarını işləyib hazırlayır və təsdiq edir.

Səhiyyəni idarə edən regional orqanların vəzifələri ərazi şəbəkəsinə nisbətən əhəmiyyətli dərəcədə genişdir. Onlar, praktiki olaraq, əhalinin sağlamlığının mühaflzəsinin kompleks proqramını toplum şəkildə formalaşdıran və onun yerinə yetirilməsinin nəticələri üzrə (xəstələnmələrin dinamikası, orta ömür müddəti, ölüm səviyyəsi) məsuliyyət daşıyan əsas orqandır.

18. Təhsil fəaliyyətinin təşkili və idarə edilməsi standartlarını təhlil edin. (orta)

Təhsilin inkişafında əsas məqsəd- vətəndaşlarda şəxsiyyətin və insanın yaradıcılıq qabiliyyətinin harmonik inkişafına və ölkənin intelektual və mədəni potensialının artırılmasına olan tələbatların ödənilməsidir.

Dövlət təhsil müəssisələri şəbəkəsi, şəhər və kənd əhalisinin tələbatlarına uyğun, milli və regional xüsusiyyətləri nəzərə alaraq yaradılır. Orta peşə təhsili kompleksləri əhalinin ehtiyaclarına və yerli əmək bazarlarına istiqamətlənir. Ali ixtisas təhsili sistemi, dövlətin mütəxəssislərə olan tələbatını və ayrı-ayrı şəxslərin maraqlarını nəzərə alır.

Təhsil fəaliyyətini aparmaq üçün lisenziya, dövlət təhsili idarəetmə orqanları və ya yerli özünüidarəetmə orqanları tərəfindən, bu orqanların yaratdığı ekspert komissiyasının rəyi əsasında verilir.

Təhsil müəssisəsi dövlət qeydiyyatından keçdikdən sonra, onun məzunlara müvafiq təhsil səviyyəsi haqqında nümunəvi dövlət formalı

sənədi vermək hüququ yaranır.

Dövlət akkreditasiyası, mərkəzi və təsisatların dövlət təhsili idarəetmə orqanları tərəfindən aparılır və müəssisənin dövlət statusunu, məzunların hazırlığının dövlət təhsil standartlarının tələblərinə cavab verməsini, dövlət qeydiyyatı haqqında şəhadətnamə ilə təsdiq edir.

Təhsil müəssisələrində attestasiyahər beş ildən bir aparılır. Bu, təhsil fəaliyyəti üzərində dövlət-ictimai nəzarətin həyata keçirilməsinin əsas formasıdır. Onun məqsədi - təhsil alanların tərbiyəsi və təhsilinin keyfıyyətinin və məzmununun müvafıq şəkildə qurulmasıdır.

Dövlət, hər il, təhsil ehtiyaclarına milli gəlirin müəyyən faizi miqdarında maliyyə vəsaitlərinin ayrılmasına, həmçinin dövlət büdcəsinin və yerli büdcələrin məxaric maddələrinin müdafiəsinə zəmanət verir. Bu vəsaitlərin hesabına, təhsil sisteminin bütün pillələrində və səviyyələrində kütləvi, o cümlədən təmin edilmiş pulsuz təhsil, müsabiqə əsasında isə dövlət-və qeyri-dövlət təhsil müəssisələrində pulsuz orta, peşə, ali və ali məktəbdən sonrakı təhsili təmin edilir.

Maliyyələşdirmə, hər tipdən olan müəssisə üçün hər bir təhsil alan hesabı ilə təyin edilən dövlət və yerli normativlər əsasında həyata keçirilir. Müəyyən ərazidə qeyri-dövlət müəssisələrinin maliyyələşdirmə normativləri oxşar dövlət müəssisələrinin maliyyələşdirmə normativlərindən aşağı ola bilməz.

Təhsil müəssisələri müvafıq təhsil proqramlarının və dövlət standartlarının nəzərdə tutmadığı əlavə pullu təhsil xidmətləri göstərə bilər. Belə bir fəaliyyətdən əldə edilən gəlir onların istəyinə əsasən təhsil müəssisələrinə yenidən investisiya edilir və belə fəaliyyət sahibkarlığa aid edilmir.

Qeyri-dövlət təhsil müəssisələri, təhsil alanlardan tədris xidmətləri

üçün, o cümlədən dövlət təhsil standartları çərçivəsində tədris üçün təhsil haqqını almaqda haqlıdır. Qeyri-dövlət təhsili alanların, onların valideynləri arasında qarşılıqlı əlaqələr vasitəsilə tənzimlənir.

19. Əmək bazarının idarə edilməsi və əmək münasibətlərinin tənzimlənməsi problemlərini təhlil edin. İşsizlikdən sığorta haqqının tutulması və sığorta ödənişinin təyin olunması qaydalarını izah edin. (orta)

İşsizlər - qəbul olunmuş tərifinə görə özlərindən asılı olmayan səbəblər üzündən, işə və ya qazanca sahib olmayan, dövlət məşğulluq xidmətində iş axtaran və ya işləməyə hazır və qadir olan şəxslər kimi qeydiyyatdan keçən və bu xidmət tərəfindən münasib iş təklifini almayan, əmək qabiliyyətli yaşda olan vətəndaşlardır.

Sosial sahələrin idarə olunması problemləri sırasında əmək bazarının idarə edilməsi və əmək münasibətlərinin tənzimlənməsi problemləri xüsusi yer tutur. Bu problemlər əsasən aşağıdakılardır:

* işsizliyin səviyyəsinin artması;
* işini itirmiş şəxslər arasında işsizlik müddətinin uzanması;
* qadınların və gənclərin işlə təmin olunmasının çətinlikləri;
- azgəlirli və mühafizəsiz məşğulluq növlərinin artımıdır.

Azərbaycanda “İşsizlikdən sığorta haqqında” qanun 30 iyun, 2017-ci ildə qəbul olunub və 2018-ci il yanvarın 1-dən qüvvəyə minib. İşsizlikdən sığorta haqqı, hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi miqdarında sığortaedən tərəfindən və işçinin əməkhaqqının 0,5 faizi miqdarında sığortaolunan tərəfindən ödənilir. Sığorta ödənişi ilkin müraciət zamanı 6 ay, təkrar müraciət zamanı isə 3 ay müddətinə təyin edilir. Bir şəxs üçün sığorta ödənişinin verilmə müddəti ilkin müraciət zamanı sığorta ödənişi təyin edildiyi aydan sonrakı 24 ay ərzində 9 aydan artıq ola bilməz. İşsizlərə

müavinət, son iş aylarında orta qazancın müəyyən faizi qədər təyin olunur.

20. Dövlətin sosial zəmanətlər sistemini və minimum sosial standartların tətbiqi məsələlərini təhlil edin. (cetin)

Əsas sosial zəmanətlərKonstitusiyada, hökumətin qərarlarında təsbit olunur və sosial siyasətdə öz əksini tapır. Müasir mərhələdə dövlət sosial müdafiə sistemi özünü iki əsas funksiyada göstərir. Birinci pensiyaçılara, qocalara, əlillərə və bu qəbildən olan digər əhali kateqoriyalarına sosial ödənişlərin verilməsi və sosial xidmətlərin göstərilməsidir. Bu funksiya sosial cəhətdən ən zəif cəmiyyət üzvlərinə dövlət qayğısı və sosial xeyriyyəçilik prinsipinə əsaslanır. Eyni zamanda sosial müdafiə sosial zəmanətlər sistemi vasitəsi ilə əhalinin bütün kateqoriyalarına şamil edilir.

Sosial zəmanətlər - uzunmüddətli fəaliyyət göstərən mexanizmdir və dövlətin qanunla nəzərdə tutulmuş və vətəndaşların konstitusiya hüquqlarının həyata keçirilməsinə yönəldilmiş öhdəliklərdir. Sosial zəmanətlərin təmin edilməsi, əhaliyə sosial xidmət göstərən sahələr blokuna münasibətdə, dövlət siyasətinin prinsiplərini həyata keçirmədən mümkün deyildir. Bu prinsiplər aşağıdakılardır:

- bütün vətəndaşlar, yaşayış yerindən və gəlirlərindən asılı olmayaraq, müəyyən pulsuz və ya güzəştli xidmətlər minimumu ilə təmin olunmalıdır;

* hər bir vətəndaş öz istəyinə uyğun olaraq xidmətlərin əldə etmə yerini və onları təklif edən obyekti seçmək imkanına malik olmalıdır;

* sosial xarakterli xidmətlərin təklif edilməsində dövlət və özəl təşkilatların tam bərabər hüquqları təmin edilməlidir;

- qanunvericilik aktları sosial xidmətlərin keyfiyyətinin artırılmasına və istehlakçıların hüquqlarının müdafiəsinə yönəldilməlidir;

* sosial kompleksin fəaliyyəti cəmiyyətin bütün təbəqələrinin və sosial qruplarının müxtəlif tələbatlarının daha tam və keyfiyyətlə ödənilməsinə istiqamətlənməlidir;
* sosial sahələrin və müəssisələrin fəaliyyəti, ilk növbədə sosial, sonra isə iqtisadi meyarlardan çıxış edərək qiymətləndirilməlidir;
* hər bir yekcins obyektlərin yarımsahəsində və ya qrupunda təsərrüfat mexanizmi, həmin obyektlərin xüsusiyyətləri nəzərə alınmaqla, əhəmiyyətli dərəcədə fərqləndirilməyə uğraya bilər.

Dövlətin sosial zəmanətləri əsasında minimum sosial standartlar durur.

Minimum sosial standartlar - qanunvericiliklə müəyyən olunmuş norma və normativlərdir, sosial müdafiənin minimum səviyyəsini təsbit edir və ondan aşağı səviyyəyə düşmək yolverilməzdir.

Ən zəruri minimum sosial standartlar qanunla təsbit olunur, bununla da dövlət bütün səviyyələrdə icra hakimiyyətləri üçün, həmçinin bütün mülkiyyət növlərində işləyənlər, işəgötürənlər və sahibkarlar üçün onların təminatını mütləq edir.

Dövlətin minimal sosial standartları ali təhsil, ibtidai təhsil, işsizlikdən müdafiə, işsizlik müavinəti, səhiyyə xidməti, mədəniyyət, idman və istirahət sahələrində tətbiq olunan minimal hədlərdir.

Dövlətin sosial zəmanətləri sosial xidmət, əməyin ödənilməsinin minimum məbləği, pensiya təminatı, dövlət müavinətlərini əhatə edir.
Əməyin ödənilməsi sahəsində minimum dövlət standartları - əməyin ödənilməsinin minimum məbləği və büdcə sahəsi işçilərinin əməyinin ödənilməsi üzrə vahid tarif cədvəli ilə müəyyən olunur. Minimum əmək haqqı - ixtisassız əməklə məşğul olan işçinin əmək haqqı səviyyəsidir və onun təkrar istehsalı üçün normal şərait yaratmaq məqsədi güdür. Bu məbləğ qanunvericiliklə, yaxud xüsusi razılaşmalarla müəyyən edilir.

21. Tələbat və istehlakın mahiyyətini izah edin. (asan)

Mahiyyət etibarilə tələbat obyektiv, zəruri ehtiyaclar sistemidir. Aydındır ki, bu ehtiyaclar daim dəyişir, iqtisadiyyatın sosial və dinamik mütərəqqi keyfiyyət, kəmiyyət dəyişmələrinə məruz qalır. Bu gün ödənilən tələbat perspektiv dövr üçün həm kəmiyyət, həm də struktur etibarilə azlıq edə bilər. Ona görə də onların dəyişilməsi labüdlüyü meydana çıxır. Tələbatın formalaşması, tələbat növləri iqtisadi, ictimai, siyasi, coğrafi mühitlə əlaqəlidir.

Təyinatından asılı olaraq tələbat istehsal tələbatına və qeyri-istehsal tələbatına bölünür.İstehsal tələbatı dedikdə, məhsul istehsalına yönəldilən ehtiyaclar nəzərdə tutulur. Onun artırılması, genişlənməsi istehsal məhsullarına olan tələbatla müəyyən olunur, yəni istehlakın həcmi ilə ölçülür. Buna görə də istehlakı, tələbatı, istehsalı sistem baxımından öyrənmək lazımdır. Bu sistemin hər bir elementi digərini doğruldur, yaradır, genişləndirir və inkişaf etdirir.

Tələbat və istehlakı müxtəlif aspektdən öyrənmək olur. İqtisadi tənzimləmə obyekti kimi tələbat və istehlak əhalinin təkrar istehsalının əsas meyarı və göstəriciləri baxımından öyrənilir. Marketinq elmi baxımdan isə tələbat ayrı-ayrı əmtəələrin, malların tədiyyə tələbləri reallaşmaları baxımından öyrənilir. Tələbat bir sıra texniki-iqtisadi atributlara malikdir. Məsələn, məhsulların keyfiyyəti, çeşidi, texniki-iqtisadi göstəriciləri bunların istehlak dəyəri baxımından öyrənilir. Lakin, makro səviyyədə tələbat və istehlak bir-birilə qarşılıqlı təsirdə olan təkrar istehsalın elementləri kimi öyrənilir. Tələbatın planlaşması və tənzimlənməsi mürəkkəb sosial-iqtisadi proses olduğu üçün onun kompleks şəkildə bütün nisbətlərini nəzərə almalıyıq.

Tələbat və istehlakın dəyişməsini doğuran obyektiv iqtisadi və sosial

faktorlar mövcuddur və bu faktorların kompleks təsiri bütövlükdə tələbatın və onun ayrı-ayrı növlərinin dinamikası və strukturuna təsir edir. Tələbat mücərrəd kateqoriyadır. Onun öyrənilməsi mücərrəd baxımdan bütövlükdə ümumi halda ehtiyacları nəzərə alır. Mütləq mənada tələbatın ödənilməsi və bu tələbata uyğun olan maddi və mənəvi nemətlər çoxluğu potensial tələbat adlanır. Potensial tələbat nominal tələbatın arzu olunan maddi və mənəvi nemətlər çoxluğudur. Lakin real şərait bu çoxluğun neçə nisbi faiz ödənilməsinə gətirib çıxarır. Beləliklə, mücərrəd tələbata tələbatın ödənilməsi dərəcəsi də deylir. Analitik olaraq tələbatın ödənilməsi dərəcəsi istehlakın ideal tələbata olan nisbəti ilə xarakterizə olunur.

Burada, - tələbatın ödənilməsi dərəcəsi, %-lə;

T_{real} – reallaşantələbat;

T_{ideal} – idealtələbat.

22. Əhali istehlakının formalaşmasına təsir göstərən sosial-iqtisadi amilləri açıqlayın. (asan)

Əhali istehlakının formalaşmasına bir sıra münasibət forması, iqtisadi və sosial amillər təsir edir. Ona görə də bu amilləri aşağıdakı əsas qruplara bölmək olar:

1. İstehsal amilləri;
2. İqtisadi amillər;
3. Sosial amillər;
4. Coğrafi-iqtisadi amillər;
5. Təşkilati-iqtisadi amillər;
6. Siyasi amillər;

7. Xarici-iqtisadi əlaqələr amilləri.

İstehsal amilləri istehlakın və tələbatın məzmunca formalaşmasına təsir edir, bu və ya digər məhsula tələbat doğurur; istehsal strukturu, onun ərazi və sahə quruluşu dəyişdikcə yeni məhsullara tələbat sistemi meydana çıxır, yaxud eyni tələbatın yeni məhsullarla ödənilməsi imkanları meydana çıxır. Beləliklə, istehsal tənzimləyici sistemdə təyinedici rolunu oynayır. Beləliklə, iqtisadi və sosial inkişafın tənzimlənməsində istehlak tənzimləyici-meyar rolunu oynaya bilər. Onun perspektivliyi, dəyişmə dinamikası, struktur qanunauyğunluqları iqtisadiyyatın tənzimlənməsinin mexanizmi kimi istifadə oluna bilər.

İstehlakın iqtisadi amilləri təkcə istehsalda yox, istehsal olunmuş məhsulun bölgüsü, yenidən bölgüsü mexanizmlərini özündə əks etdirir. Belə ki, bölgü nəticəsindəəhalinin gəlirləri və ya yaxud alıcılıq qabiliyyəti formalaşır. Qiymət sistemi vasitəsilə ayrı-ayrı sahələrin, ərazilərin, şirkətlərin, fərdi sahibkarların və hər bir şəxsin ümumi mənfəəti və payı, uyğun olaraq tədiyyə tələbləri formalaşır. O cümlədən, vergi normaları, kredit münasibətləri, maliyyə münasibətləri, müxtəlif güzəştli ödəmələr istehlakın formalaşmasına təsir edir.

Sosial amillər ayrı-ayrı regionlarda və sahələrdə sosial vəziyyətlə bağlıdır, yəni işsizlik, işlə təminat, əmək haqqının səviyyəsi, əhalinin ayrıayrı qruplarının tələbatı, əmək məhsuldarlığı, sosial müdafiə fondlarının və bir sıra ödəmələrin, yardımların təsiri daxildir. O cümlədən, sosial qruplara əhalinin məskunlaşması, milli tərkibi, məşğuliyyət növü, təhsil səviyyəsi və s. təsir edir.

Coğrafi-iqtisadi amillərə regionlarda və ayrı-ayrı sahələrdə təbii sərvətlərin zənginliyi, regionun coğrafi mövqeyi, onun nəqliyyat qovşaqlarına yaxınlığı, əhalinin təbii artımı, məhsuldar qüvvələrin

yerləşdirilməsi xüsusiyyətləri daxildir. Coğrafi amillər təbii olaraq istehlakın ilkin şəraiti üçün həlledici amil sayılır.

Təşkilati-iqtisadi amillər regionda istehsal və sosial infrastrukturların, əhaliyə xidmət sahələrinin inkişafını xarakterizə edir. Belə ki, bank sistemi, sığorta sistemi, işlə təminat müəssisələri, əhalinin sosial müdafiəsi sistemi, mənzil-kommunaltəsərrüfatı, fərdi tikinti sahələri və s. istehlakın təşkilati-iqtisadi amillərdir.

Əlbəttə, istehlak iqtisadi kateqoriya olduğu kimi siyasi mühitin formalaşmasına təsir edir və o mühitdən asılı olaraq inkişaf edir. Siyasi vəziyyət iqtisadi inkişafın və sosial həyat tərzinin mənəvi dəyərlərinin inkişafına təsir edir.

Xarici-iqtisadi əlaqələr əhalinin istehlakının formalaşmasında mal təklifinin vasitəsilə təsir edir. Belə ki, heç bir açıq iqtisadiyyata malik olan ölkədə tələbatın ödənilməsi tamamilə yerli istehsalın hesabına baş vermir. Müəyyən hissəsi xarici ölkələrdən gətirilən istehsal və istehlak şeyləri ilə ifadə olunur. Buna görə də idxalvə ixrac siyasəti formalaşır. İdxal siyasətinin əsasını əhalinin tələbatını ödəmək üçün əlverişli olan məhsulların gətirilməsinin vacibliyi təşkil edir.

23. Real praktikada və tədqiqat işlərində istifadə olunan metodları təhlil edin. (cetin)

Real praktikada və tədqiqat işlərində aşağıdakı metodlardan istifadə olunur: 1. Balans metodu;2. Birbaşa hesablama metodu;3. İqtisadi riyazi metodlar;4. Normativ metodlar;5. Eksperiment metodu;6. Faktorlar üsulu.

Hər bir metodun tətbiqi üçün real formalaşan dinamika əsas götürülür. Metodların tətbiqinin nəticəsi və reallığı istehlak göstəricilərinin əhatə dairəsindən xeyli asılıdır. Balans metodu istehlakın xalq təsərrüfatı balansı

sistemində əlaqəsini təmin edir.

Birbaşa hesablama metodumövcud istehlakın dinamikası arasında qanunauyğunluqların parametrləri əsasında per spektiv inkişaf haqqında hesabatların verilməsidir. Real həyatda bu şərh etdiyimiz hesablama müxtəlif ifadələrlə reallaşır: xətti; qeyri-xətti; parabola; hiperbola və s.

$$y= a+bx;\ y= ax+bx^2+c;\ y= ax^2+bx^3+cx+d$$

və s. verilmiş sistemdə analitik ifadələrdən real həyata uyğun olan qanunauyğunluqlar seçilir. Bu qanunauyğunluqların pa rametrləri statistik rəqəmlərlə hesablanır.

İqtisadi riyazi metodlar istehlakın formalaşmasına və dinamikasına təsir edən kompleks amillərin bir-birləri ilə təsirini ölçmək, qiymətləndirmək və proqnoz vermək üçün istifadə olunur. Bu metodlar dəqiq hesablama metodudur.

Normativ yanaşma metodları müəyyən standartlara uyğun tələbat və istehlakın artım tempini və strukuturunu tənzimləməyə deyilir. Normativlər iki əsas aspektdə cəlb olunur. 1. Ali məqsədlərin tələb və istehlakın normativ bazası əsasında hesablanmasına; 2. Həmin məqsədlərə nail olmaq üçün bütün resursların istifadəsinin normativ əsaslarla tənzim olunmasına.

Eksperiment metodu ayrı-ayrı istehlak (k onkret) ərzağın, qeyri-ərzaq məhsullarının, xidmətin, məhsuldarlığın mənəvi s osial inkişafa təsirini qiymətləndirmək üçün istifadə olunur. Xüsusi laborat oriya şəraitində əhali ilə açıq söhbətdə toplanılan fikirlərin, ç oxluğun fikrini nəzərə almaqla hesablanılır

24. Nominal və real gəlirlərin formalaşması ilə bağlı müqayisəli təhlil aparın. (orta)

Gəlirlər istehsal, bölgü proseslərinin nəticəsində formalaşır, sosial-

iqtisadi inkişafın maddi əsasını təşkil edir. Dövlət, müəssisə, sahibkar öz fəaliyyətini əldə olan maliyyə vəsaiti ilə həyata keçirir. Bu vəsaitin mənbəyi istehsal prosesində əldə olunan gəlirlər hesabınadır. Mahiyyət etibarilə gəlirlər il ərzində istehsal prosesində, mübadilədə yeni yaradılan dəyərdir. Gəlirlərin artması hər bir sahibkarın perspektiv inkişafında iqtisadi, təşkilati, elmi-texniki tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Həmçinin gəlirlər stimul yaratmaq mexanizmidir. Əhalinin cəmiyyətdən aldığı vəsait artır, istehlak qabiliyyəti yaxşılaşır. Bu da öz növbəsində istehsalın sonrakı artımına və gəlirlərin yüksəlməsinə müsbət təsir edir.

Milli gəlirin bölgüsündə əhalinin payını müəyyən edən gəlir səviyyəsi nominal gəlirlər adlanır. Nominal gəlirlər sahibkarın və əhalinin xərclərini ödəmək üçün ilkin bölgü yolu ilə əldə olunan gəlirlərdir. Lakin nominal gəlirlərin yenidən bölgüsü baş verir. Nominal gəlirlərin yenidən bölgüsü maliyyə-kredit, bank, qiymət sisteminin bölgüsü prosesində rolu ilə baş verir. Belə ki, dövlət nominal gəlirlərdən vergi vasitəsilə özünü ümumi cəmiyyətin tələbatını ödəmək üçün yenidən özünə qaytarır, qiymət və maliyyə vasitəsilə iqtisadi subyekt kimi yenidən bölgüdə iştirak edir. Bu mexanizmlər vasitəsilə gəlirlərin yenidən bölgüsü baş verir. Dövlətlə əhali, müəssisələr və əhali qrupları arasında nominal gəlirlərin bir subyektdən başqa subyektə axını baş verir. Beləliklə, potensial imkanları olan subyektlərin real alıcılıq qabiliyyəti və tələbatı məhdudlaşır. Tənzimləmə nöqteyi nəzərindən məhz yenidən bölgü hesabına formalaşan gəlirlərin qiymətləndirilməsi onun istehlaka təsirinin öyrənilməsi, hesablanması və sonra isə proqnoz tədbirlərində nəzərə alınması əhəmiyyətlidir.

Beləliklə, real gəlirlər nominal gəlirlərdən kəmiyyət və struktur baxımından fərqlidir. Real gəlirin dəyişməsinə təsir edən amillər nominal gəlirlərin dəyişməsinə başqa müstəvidə təsir edir. Məsələn, əgər vergilərin artması istehlakçıların alıcılıq qabiliyyətini azaldırsa, dövlətin büdcə vəsaitini çoxaldır, kapital qoyuluşu imkanlarını artırır. İstehlakı mallarının qiymətinin artması ayrı-ayrı istehlakçıların həyat səviyyəsini aşağı salır, alıcılıq qabiliyyətini azaldır, lakin həmin məhsulu istehsal edən sahibkarın, şirkətin, dövlətin gəlirini artırır. Real gəlirlərin formalaşmasının əsas mənbəyi nominal gəlirlər, yaxud istehsal həcmi və onun məhsuldarlığıdır.

Nominal gəlirlər və real gəlirlər arasında fərqlər məhsulun reallaşması prosesindən də asılıdır, yaxud tələb və təklifin uyğunluğundan asılıdır. Real gəlirlər öz strukturu və dinamikası ilə həyat səviyyəsinin ümumiləşmiş, sintetik keyfiyyət göstəricisidir. Nominal və real gəlirlər arasında nisbət iqtisadi tənzimləmə sistemində istehsal, bölgü və istehlakın əlaqəli tarazlı inkişafı üçün əhəmiyyətlidir.

25. Tələbatın ödənilmə dərəcəsi necə müəyyən edilir? Praktiki nümunə üzərindən izah edin. (orta)

Tələbat və istehlakın dəyişməsini doğuran obyektiv iqtisadi və sosial faktorlar mövcuddur və bu faktorların kompleks təsiri bütövlükdə tələbatın və onun ayrı-ayrı növlərinin dinamikası və strukturuna təsir edir. Tələbat mücərrəd kateqoriyadır. Onun öyrənilməsi mücərrəd baxımdan bütövlükdə ümumi halda ehtiyacları nəzərə alır. Mütləq mənada tələbatın ödənilməsi və bu tələbata uyğun olan maddi və mənəvi nemətlər çoxluğu potensial tələbat adlanır. Potensial tələbat nominal tələbatın arzu olunan maddi və mənəvi nemətlər çoxluğudur. Lakin real şərait bu çoxluğun neçə nisbi faiz ödənilməsinə gətirib çıxarır. Beləliklə, mücərrəd tələbata tələbatın ödənilməsi dərəcəsi də deylir. Analitik olaraq tələbatın ödənilməsi dərəcəsi istehlakın ideal tələbata olan nisbəti ilə xarakterizə olunur.

$$a = \frac{T_{реал}}{T_{идеал}}$$

Burada, - tələbatın ödənilməsi dərəcəsi, %-lə;

T_{real} – reallaşantələbat;

T_{ideal} – idealtələbat.

26. Sosial siyasətin mahiyyəti və prinsiplərindən bəhs edin. (asan)

Sosial siyasət dedikdə, ictimai rifah, insanların maddi, sosial və intelektual tələbatlarının ödənilməsi, insan ləyaqətinə hörmətin formalaşdırılması, cəmiyyətdə sosial sabitlik və sosial sülhün bərqərar

olması ilə bilavasitə bağlı olan siyasət başa düşülür.

Sosial siyasətin məqsədi- cəmiyyətdə əhalinin əsas həyati tələbatlarının ödənilməsini təmin edən əlverişli sosial mühitin və sosial həmrəylik şəraitinin yaradılmasıdır. " Hakimiyyət-cəmiyyət-əhali " münasibətlərinin bütün məcmusu, dövlətin sosial sferada vəzifələri, bir tərəfdən dövlətin sosial proseslərə təsiri mexanizmləri, digər tərəfdən əhalinin sosial tələbatlarına onun reaksiyası - dövlətin sosial siyasətinin mahiyyətini təşkil edir.

Siyasətin mahiyyətcə mühüm cəhətlərindən biri odur ki, o sosial qrupların və ümumilikdə cəmiyyətin maraq iradələrinin inteqrasiyası, ümumiləşdirici forması kimi çıxış edir.Sosial siyasət- dövlətin daxili siyasətinin əsas hissəsidir. Sosial siyasət dövlətin sosial proqramlarında ifadə olunur və praktikada həyata keçirilir, əhalinin əsas sosial qruplarının mənafeyi naminə və maraqları vasitəsilə cəmiyyətdə olan münasibətləri tənzimləyir. Sosial siyasət məzmununa, formalarına, hazırlanması və reallaşması metodlarına olan tələblərin xarakterini əks etdirən prinsiplər sisteminə əsaslanır:

1) humanistlik, sosial ədalət;
2) sistemlilik, fasiləsizlik, varislik;
3) sosial siyasətin reallaşması üçün məqsəd və imkanların tarazlaşdırılması;
4) aşkarlıq - sosial siyasət məsələləri üzrə ictimaiyyətin bütün qrup və təbəqələrinin öz fıkirlərini azad ifadə etməsi - idarəetmə orqanları ilə xalq arasında "əks əlaqə"nin mövcudluğu;
5) sosial siyasətin işlənib hazırlanması və reallaşmasının demokratikliyi (sosial yeniliklərin əsas məsələləri üzrə ictimai rəyin hərtərəfli aşkar edilməsi);
6) sosial siyasətin həyata keçirilməsinə ictimaiyyətin nəzarəti;
7) əhalinin sosial müdafıəsi üzrə tədbirlərin ünvanlılığı, əhalinin sosial cəhətdən ən zəif və aztəminatlı qruplarına sosial yardımın gücləndirilməsi.

27. Sosial siyasətin məqsəd və vəzifələrini açıqlayın.(asan)

Sosial siyasətin vəzifələri dedikdə, dövlətin həll etməli olduğu əsas məsələlər nəzərdə tutulur. Yəni, adamların həyat səviyyəsini və əmək şəraitini yaxşılaşdırmaq; bazar münasibətlərinə uyğun gələn yeni sosial-

sinfi quruluşu formalaşdırmaq; sosial ədalət və müdafiəni həyata keçirmək; millətlərarası və etnoslararası münasibətləri tənzimləmək; ölkədə demokratik və ekoloji şəraiti normallaşdırmaq. Sosial siyasətin əsas vəzifələrini aşağıdakı kimi təsnif etmək olar:

1.Gəlirin ədalətli bölgüsü və yoxsulluğun azaldılaması: Sosial siyasətin qarşısına qoyduğu ən əsas məsələlərdən biri milli gəlirin cəmiyyətdə ədalətli bölügüsü ilə əlaqədardır. Dövlət bu yöndə siyasətlər həyata keçirərək siniflər arası maddi uçurumun qarşısını alır və sosial ədaləti yaratmağa çalışır. Gəlirin ədalətsiz bölgüsü zamanı yaranan yoxsulluq probleminin həlli də sosial siyasətin ən əsas vəzifələri sırasındadır.

2.Fürsət barəbərliyi: liberal fəlsəfəyə əsaslanan qanun qarşısında bərabərlik prinsipinin sosial-iqtisadi sahəyə tətbiq olunmasıdır. Bərabərlik prinsipi daha çox təhsil və fərdin özünü inkişaf etdirəcəyi müəyyən sahələrə tətbiq edilir.

3.Sosial Müdafiə: hər hansı bir sosial risk, qocalıq, xəstəlik, işsizlik, iş qəzalarına görə vətəndaşın gəlirinin azalması və ya ümumiyyətlə dayanması zamanı onun digər insanlardan asılı olmadan yaşamasını təmin etmək üçün görülən tədbirlər bütünüdür.

4.Tam məşğulluğun təmin olunması və işsizliklə mübarizə:bütün vətəndaşların gəlir əldə edə biləcəyi bir iş yerinin olması sosial siyasətin əsas məqsədlərindən biridir.

5.Sosial nizam və sülhü təmin etmək: sosial dövlət insanlar arasında aid olduqları fərqli sinif, irq, din, məzhəb, iqtisadi vəziyyətə görə ayrı-seçkilik salınmasının qarşısını almağa çalışır. Cəmiyyətdə müxtəlif tip insanların sülh içərisində yaşamalarını təmin edir.

6.İqtisadi inkişafın təmin olunması: dövlətin iqtisadi inkişafı üçün investisiyalara münbit şərait yaradır. İqtisadi fəaliyyətlərdə tam məşqulluq

halını təmin etmək üçün buna uyğun fəaliyyətlər həyata keçirilir.

28. Sosial siyasət modellərini müqayisəli şəkildə təhlil edin. (orta)

Dünya təcrübəsində 5 sosial siyasət modeli mövcuddur:

1.Poternalist siyasət modeli: Bu model keçmiş SSRİ-də tətbiq edilən model olmaqla müsbət və mənfi xüsusiyyətlərə malik olmuşdur. Müsbət xüsusiyyətlərinə aid edilir: Dövlət vətəndaşların hərtərəfli sosial iqtisadi vəziyyətinə görə məsuliyyəti öz üzərinə götürür; əhali üçün zəruri olan əmtəə və xidmətlərin istehsal və bölgüsünü özü həyata keçirir; sosial sabitliyə nail olmağa çalışır. Mənfi xüsusiyyətlərinə aid edilir: İqtisadi səmərəliliyin aşağı olması nəticəsində bütün vətəndaşların yüksək sosial rifahına nail olmaq mümkün olmur; əsas əhali kütləsi üçün sosial sərvətlərin limiti müəyyənləşdirilir.

2) Sosial siyasətin İsveç modeli və ya Skandinaviya modeli: İsveç, Norveç, Finlandiya, İslandiya və Danimarka kimi Şimali Avropa ölkələrində tətbiq olunan oxşar əmək qüvvəsi, təhsil və sosial siyasətlərlə xarakterizə olunan sosial-iqtisadi model. Bu model siyasi anlayış olaraq, bu ölkələrdəki sosial dövlətin əsasını təşkil edir. Modelin müsbət cəhətlərinə dövlətin sosial sfera sahələrinin yüksək səviyyədə tənzimlənməsi, sosial problemlərin həllində dövlət məsuliyyətinin yüksək olması, ümumən, əhalinin güclü sosial müdafiə ilə əhatə olması aid edilə bilər. Mənfi cəhətlərinə isə sosial sfera sahəsində mərkəzləşmənin yüksək olması nəticəsində iştirakçılar üçün seçim azadlığında müəyyən məhdudiyyətlərin olması, yüksək vergiqoymanı göstərmək olar.

3) Sosial rifahın dövlət modeli: Tipik bazar iqtisadiyyatı modeli olmaqla dövlətin vətəndaşlarının sosial sabitlik şəraitində yaşamasını öz üzərinə götürməsi və çoxlu sayda sosial xidmətlərin mövcudluğu modelin müsbət

cəhətləridir. Mənfi cəhət kimi xərclərin yüksək olması, minimal standartların ölkə üzrə orta göstəricilərə yaxınlaşdırılması çıxış edir.

4) Sosial istiqamətlənmiş bazar təsərrüfatı modeli. Model vətəndaşların dövlət tərəfindən yüksək səviyyədə sosial müdafiəsini əks etdirir. Dövlət sosial siyasətini hüquqi təminat, vergi siyasətini sərvətlərin yenidən bölgüsü vasitəsilə reallaşdırır. Dövlət tərəfindən çoxlu sayda amortizasiyalardan istifadə olunur ki, bu da əhalinin kasıblıq səviyyəsindən aşağı düşməsinə imkan vermir. Mənfi cəhət kimi dövlətin öz üzərinə hədd ən artıq yükün götürməsi çıxış edir ki, bu da dövlətin vətəndaşlarının özləri həll edə biləcəyi problemi öz üzərinə götürməsində öz əksini tapır.

5) Bazar sosial modeli: Onun əsas prinsipi sosial sferanın tənzimlənməsində birbaşa metodlara nisbətən iqtisadi metodlara üstünlük verilməsi olmasıdır. Əsasən sosial sfera sahələrinin dövlətsizləşdirilməsi, dövlətin dotasiya və subsidialarının minimuma çatdırılması onun xarakterik cəhətlərindəndir.

29. İnsan kapitalının qiymətləndirilməsinə dair yanaşmaları açıqlayın. Orta təbəqəyə məxsusluğu səciyyələndirən göstəriciləri xarakterizə edin. (orta)

Sosial siyasətin vacib funksiyası - "insan kapitalının" saxlanılması, onun təkrar istehsalı üçün minimal şəraitin təmin olunmasıdır.

Dövlət çərçivəsində cəmiyyətin inkişafı səviyyəsi, həm təsərrüfatın hakim tipləri, həm də maraq və dəyərlərin bərqərar olmuş ierarxiyası, əhalinin xarakteristikaları, yəni "insan kapitalı" ilə müəyyənləşdirilir. Bu ifadə altında, işçilərə sosial və iqtisadi sahələrdə aktiv şəkildə fəaliyyət göstərməyə imkan verən, onların qabiliyyətləri, bilikləri və bacarıqları başa düşülür. Bu keyfiyyətlər, qidalanma, sağlamlıq və təhsillə müəyyən olunur.

İnsan kapitalının formalaşması əhalinin sağlamlığının, təhsil, peşə və mədəni səviyyəsinin artırılmasına yönələn fəaliyyəti nəzərdə tutur. Qərb nəzəriyyəsində insan kapitalının qiymətləndirilməsində üç yanaşmadan istifadə olunur.

Birinci yanaşmada insanın professional bilik və bacarığının artırılması üçün investisiya qoyuluşu ilə bərabər insanın sosial-bioloji varlıq kimi də inkişafına kapital qoyuluşunun vacib olduğu qeyd olunur.

İkinci yanaşmaya əsasən insan yalnız professional bilik və bacarıqların inkişafı üçün investisiya tələb edən bir varlıqdır. Çünki, bazar iqtisadiyyatında istehsal prosesi zamanı insan yalnız öz qabiliyyətini satır. Ona görə də ailənin istehsalına qoyulan vəsait kapitala çevrilmir.

Üçüncü yanaşmaya əsasən insan intelektual və sosial-bioloji keyfıyyətlərə malik kapital olmaqla yanaşı həm də sosial keyfıyyətlərə malikdir. Belə ki, özünü cəmiyyətin mənəvi vəziyyətində, sosial, həmçinin ailə münasibətlərinin möhkəmliyində, sosial-psixoloji mühitində özünü göstərir ki, bu da əmək məhsuldarlığına, əmək və sahibkarlıq aktivliyinin səviyyəsinə təsir edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə demokratik bazar cəmiyyətinin bazası, orta sinif adlanan güclü sosial qrup tərəfından dəstəklənir. Dünya praktikasında qəbul edilmişdir ki, iqtisadi yüksəliş əhalinin kifayət qədər ödəncqabiliyyətli tələbinin olması ilə şərtləndirilir. Belə tələbi orta sinif o halda təmin edir ki, o əhalinin 30%-dən az olmayan hissəsini təşkil etsin, müəyyən gəlir səviyyəsinə (yaşayış minimumuna nisbətdə 3-10 qat), əhəmiyyətli sosial mədəni potensiala və dayanaqlı sosial imicə malik olsun.

İnkişaf etməkdə olan ölkələrdə sosial siyasətin başlıca istiqaməti, siyasi cəhətdən fəal, iqtisadi cəhətdən güclü, yüksək hüquq düşüncəsi

səviyyəsinə malik olan orta təbəqənin yaradılması və hərtərəfli möhkəmləndirilməsi olmalıdır.

Bir sıra meyarlar göstərmək olar ki, onların eyni zamanda ödənilməsi orta təbəqəyə məxsusluğu səciyyələndirir:

- iqtisadi cəhətdən maksimal fəal yaşda (30-55), dəyər hesabı ilə işçinin 20-100 orta illik gəlirinə bərabər mülkiyyətə sahib olması;
- 3 - 10 qat yaşayış minimumu həcmində sabit gəlir;
- qanuna tabelilik, sosial məsuliyyətin yüksək səviyyəsi, praqmatik düşüncə tərzi və aktiv fəaliyyət.

30. Sosial siyasətin səmərəliliyini müəyyən edən indikatorları şərh edin. İnsan inkişafı anlayışını və onun əsas göstəricilərini praktiki əsasda izah edin. (cetin)

Sosial siyasətin səmərəliliyini müəyyən edərkən, müxtəlif indikatorlardan istifadə olunur ki, onlar da aşağıdakılardır:

- həyat səviyyəsi göstəriciləri (gəlirlər üzrə desil əmsalı, təmərküzləşmə indeksi (cini indeksi), yoxsulluq həddi, əhalinin sosial stratifikasiyası əmsalı, tələbatların ödənilmə səviyyəsi, gəlir və xərclərin strukturu və s.);
- minimal dövlət standartları (yaşayış minimumu, minimal əmək haqqı və s.);
- sosial-demoqrafik göstəricilər (ömür müddəti, doğum, ölüm dinamikası);
- əhalinin iqtisadi fəallığı göstəriciləri (müxtəlif sektorlarında məşğul olanların nisbəti, məşğulluq və işsizlik səviyyəsi, əhalinin mühacirəti və səbəbləri);
- sosial gərginlik göstəriciləri (siyasi tədbirlərdə, tətillərdə iştirak, işsizlik həddi, cinayətkarlığın dinamikası, korrupsiya və s.);
- sosial sferanın inkişafı göstəriciləri (dövlət və özəl sektorun payı, büdcədənkənar sosial fondlar, pullu, güzəştli və pulsuz xidmətlərin nisbəti və s.);
- ÜDM-da ekologiyaya çəkilən xərclər.

İnsan inkişafı anlayışı - 1990-cı ildə BMT-nın İnkişaf Proqramı tərəfindən daxil edilmiş və həmin vaxtdan geniş surətdə istifadə edilməyə başlanmışdır. İnsan inkişafı indeksi (III) dörd paradiqmadan (məhsuldarlıq, bərabərlik, sabitlik və imkanların genişləndirilməsi

prinsipləri) ibarətdir və üç göstərici ilə ölçülür.

Məhsuldarlıq prinsipində o nəzərdə tutulur ki, insanlar gərək öz fəaliyyət məhsuldarlığını artırmaq imkanlarına malik olsunlar, gəlir əldə edilməsi prosesində fəal iştirak etsinlər və pul qazanmaq üçün zəhmət çəksinlər. Buna görə də iqtisadi artım insan potensialının inkişafının əsas modellərindən biri hesab edilir.

Bərabərlik prinsipi dedikdə isə, hər şeydən əvvəl insanların ilk başlanğıcından bərabər imkanlara malik olması nəzərdə tutulur. İqtisadi və siyasi həyatda mövcud olan imkanlardan istifadə edilməsində yaranmış bütün maneələr ləğv olunmalıdır.

Sabitlik prinsipi - mövcud imkanlara yiyələnməyin indi və gələcəkdə əlverişli olmasının təmin edilməsini nəzərdə tutur.

İmkanların genişləndirilməsi prinsipi dedikdə isə, nəzərdə tutulur ki, inkişaf insanların gücü ilə həyata keçirilməli və təkcə onların maraqlarına yönəldilməməlidir. İnsanlar, onların həyatını müəyyən edən başqa qərarların qəbul edilməsi prosesində də iştirak etməlidirlər.

İnsan inkişafı indeksini müəyyən edən mühüm göstəricilər arasında üçü ən mühümdür: ehtimal edilən ömür müddəti; təhsil səviyyəsi; adambaşma düşən ÜDM. Birlikdə götürdükdə isə, onlar üç əsas keyflyyəti əks etdirir: uzun və sağlam həyat tərzi; bilik səviyyəsi; layiqli həyat səviyyəsi.

31. Sosial müdafiə anlayışının mahiyyətini açıqlayın. (asan)

Sosial müdafiə institutu - cəmiyyət tərəfindən, onun tarixi inkişaf prosesində sosial-iqtisadi problemlərin həlli üçün formalaşdırılan, cəmiyyətin yaşlı vətəndaşlara, əlillərə, xəstələrə, işsizlərə, ailə başçısını itirənlərə, həmçinin, uşaqlı ailələrə yardım göstərilməsinin zəruriliyi ilə şərtləndirilən məqsədli kompleks sistemdir. Bu konteksdə, "sosial müdafiə institutu" termini, "sosial müdafıə sistemi" termininin sinonimi kimi işlədilir.

Sosial müdafiə terminini geniş və dar mənalarını müəyyənləşdirmək olar. Geniş mənada "sosial müdafiə" termini, insanların iqtisadi, hüquqi, ekoloji, tibbi və mənəvi müdafiəsini, həmçinin, onların həyatının təhlükəsizliyinin təminatını, təbii fəlakətlər zamanı və fovqaladə vəziyyətlərdə yardımı ifadə edir.

Dar mənada isə "sosial müdafiə" termini, qeyd olıınan müdafiə növlərindən birinin və ya bir neçə növünün həyata keçirilməsi ilə əlaqədar istifadə edilə bilər. Beləliklə, sosial müdafiə termini ilə iqtisadi müdafiəni ifadə etmək olar, elə bu termin ilə də eyni vaxda həyata keçirilən iqtisadi, hüquqi və mənəvi müdafiəni göstərmək olar.

Başqa sözlə,sosial müdafiə bəzi əlverişsiz şərtlər (işin və ya ailə başçısının itirilməsi, qocalıq, xəstələnmə, bədbəxt hadisə və s.) üzündən iqtisadi fəal ola bilməyən və müstəqil şəkildə özünə gəlir qazana bilməyən insanları zəruri həyati nemətlərlə təmin edərək onların müəyyən rifah səviyyəsini dəstəkləyən sistemdir.

Sosial müdafiə anlayışı İstər xəstəlik, qəza, ölüm halları kimi kədərli, istərsə də ailə qurmaq, övladın dünyaya gəlişi kimi sevindirici hadisələri də xərcin artması və gəlirin azalması səbəbindən sosial risk anlayışının tərkib hissəsi olaraq qiymətləndirilir. Sosial müdafiə yalnız sosial risklərə qarşı deyil, geniş mənada yoxsulluqdan və sosial ehtiyaclardan qorunma cəhdidir. Bu mənada sosial siyasətin əsas xətti olan sosial müdafiə modeli fərdləri gözlənilən təhlükələrdən qorunmaqla yanaşı, həm də cəmiyyətdə yoxsulluğu və gəlirlərin bölüşdürülməsindəki ədalətsizlikləri azaltmaq və sosial rifahı gücləndirmək məqsədi daşıyır. Sosial müdafiə sistemi geniş mənada, gəlirindən asılı olmayaraq əhalinin bütün təbəqələrini cəmiyyətin rifahına mənfi təsirgöstərən sosial təhlükələrin verdiyi zərərlərdən qorumağı, vətəndaşların hüquqlarını müdafiə etməyi qarşısına məqsəd qoyan bir sistemdir.

Qlobal mənada isə sosial müdafiəinsanın təməl hüquqlarından və dövlətin vəzifələrindən biri olaraq, “əmək qabiliyyəti olmayan müddətdə gəlir itkilərinin kompensasiya edilməsi yolu ilə, bütün fərdlərə və ailələrə yaşadıqları cəmiyyətdə onları başqalarına möhtac qalmayacaq şəkildə,

insan şərəf və ləyaqətinə yaraşan minimum bir həyat standartını təmin etməyi hədəf alan tədbirlər planı" olaraq təsvir edilir.

32. Sosial yardım formaları və ölçüsünün müəyyən edilməsinə dair yanaşmalardan bəhs edin.(asan)

Sosial müdafiənin ən vacib istiqamətlərindən biri sosial yardımdır. Məlumdur ki, sosial müdafiənin funksiyası, çətin həyati vəziyyətdə olan adama kömək etməkdən və ya bu vəziyyətin meydana çıxmasının qarşısını almaqdan ibarətdir. Sosial sığorta proqramları iqtisadiyyatın dövrü tərəddüdləri və ya işçinin hayat dövründəki dəyişikliklər üzündən azalan gəlirin bölüşdürülməsinə yönəldilir. Əgər insan sosial sığorta sistemi ilə əhatə olunmayıbsa, onda onun gəlirinin müvəqqəti və ya xroniki azalması qarşısında yeganə dəstəyi - dövlət sosial yardım proqramları verə bilər. Sosial ehtiyaclara ayrılan vəsaitlərin istifadəsinin səmərəliliyini artırmaq üçün, başqa ölkələrin sosial yardıma dair təcrübəsini öyrənmək vacibdir. Hal-hazırda inkişaf etmiş sosial müdafiə sisteminə malik olan ölkələrdə sosial yardımı o vətəndaşlar alır ki, sosial sığorta sistemi və digər sistemlər üzrə onlara ödənilən müavinətlərin həcmi, münasib həyat səviyyəsi üçün kifayət deyildir. Bu ölkələrdə sosial yardım, sosial müdafiənin digər təşkilati-hüquqi formalarının kifayət qədər vəsait vermədiyi əhali kateqoriyaları üçün son sığorta şəbəkəsi rolunu oynayır.

Sosial yardım aşağıdakı formalarda göstərilə bilər:

Nağd və nağdsız pul ödənişləri (sosial transfertlər, maliyyə yardımı, dotasiyalar və müxtəlif növ güzəştlər);
natural mədaxil (pulsuz yeməkxanalar, sənaye mallarının paylanması, müvəqqəti yaşayış yerləri, əlillər üçün protezlər və s.);

pulsuz və güzəştli xidmətlər (təhsil, səhiyyə, sosial xidmət və s.).

Əgər sosial yardım pul ödənişləri vasitəsilə göstərilirsə, onda pul təzminatlarının hansı səviyyəsinə çatmaq lazım olduğunu müəyyən etmək gərəkdir. İtirilmiş gəlirin təzminatı səviyyəsi, yəni sosial yardım şəklində ödənilməli olan itirilmiş qazancın payı ölkənin iqtisadi şəraitindən asılı olaraq müəyyənləşdirilməlidir və əmək qabiliyyətli əhalinin əməyə olan stimullarını qoruyub saxlamalıdır. Təzminat faizi elə olmalıdır ki, sosial müdafiə sisteminin xidmətlərindən çox uzun müddət istifadəyə şirniklənmə meydana gəlməsin.

Beynəlxalq praktikada sosial yardımın ölçüsünün müəyyən edilməsində dörd alternativ yanaşma mövcuddur:

* bütün yardım alanlara eyni ölçüdə yardım verilir;
* yardım fərdi ehtiyaca yönəldilir, yəni, yalnız ona görə verilir ki, yardım alan başqa gəlir mənbəyinə malik deyil;
* yardımın ölçüsü keçmiş əmək haqqınm ölçüsünə və ya yardım alanın sığorta ödənişlərinin ölçülərinə əsaslana bilər;

yardımın ölçüsü yardım alanın tələbatından asılıdır (xüsusilə dərmanlar və tibbi xidmətlərin ödənilməsində).

33. Sosial müdafiə sisteminin beynəlxalq təcrübədə formalaşan əsas istiqamət və formalarını şərh edin. (orta)

Sosial müdafiə sisteminin təcrübədə formalaşan əsas istiqamət və formalar kompleksi aşağıdakılardır:

1. Əhalinin gəlirlərinin indeksləşdirilməsi . Bu ad altında, qiymətlərin artımı ilə əlaqədar, əhalinin əsas gəlirlərinin (əmək haqqı, pensiyalar, müavinətlər, təqaüdlər) real məzmunun yüksəldilməsi tədbirləri başa düşülür.

2. Gəlirlər üzrə minimum sosial zəmanətlərin təmin edilməsi. Onların arasında əsas olanı –yaşayış minimumudur. Yaşayış minimumu üzrə gəlirə malik olmayanlar üçün dövlət sosial yardımını almaq hüququ müəyyənləşdirilir.

3. Sosial sferanın minimal dövlət standart və normativləri ilə tənzimlənməsi. Bu, hər şeydən əvvəl, təhsil, səhiyyə, mənzil, əmək iqtidarında olmayan əhaliyə sosial xidmət və s. üzrə minimal büdcə xərcləridir.

4. İmtiyazların verilməsi (güzəştlər və maddi yardımlar). İmtiyaz dedikdə, müəyyən əhali qrupuna şamil edilən, ümumi fəaliyyət qaydaları ilə müqayisədə, xüsusi üstünlük başa düşülür. Belə tipik güzəştlərə misal olaraq, əlillərə, müharibə iştirakçılarına pulsuz və güzəştli qiymətlərlə verilən dərmanları, nəqliyyatda pulsuz və güzəştli gediş haqqı və s. göstərmək olar. İmtiyazların köklü problemi - onların maliyyə təminatsızlığıdır. Buna görə də, hal-hazırda daha çox güzəştlərin ünvanlı maddi yardım (subsidiya) formasında təqdim olunmasına keçilmişdir.

5. Qiymətlərə dotasiyaların ayrılması, istehlak qiymətlərinin dövlət tərəfindən tənzimlənməsi. Ümumdövlət miqyasında, bu və ya digər formada, kifayət qədər dar çərçivədə, əsasən də təbii inhisarların və dövlət mülkiyyəti sektorunun fəaliyyəti (qaz, elektrik enerjisi, şəhərlərarası danışıqlar, rabitə və s.) ilə bağlı olan qiymətlər tənzimlənir.

1. Məcburi sosial sığorta.İqtisadi cəhətdən müvəffəqiyyət qazanmış ölkələrdə, xüsusilə Avropa, daha çox isə Skandinaviya ölkələrində, sosial müdafıənin bu üsulu geniş yayılmışdır. Məcburi sığorta cəmiyyətin bütün işləyən üzvlərinə aid edilir, burada üç tərəf iştirak edir: işə götürən, işçi və dövlət.

7. Sosial təminat və sosial yardım.Sosial təminat, cəmiyyətin əmək

iqtidarı olmayan üzvlərinin təmin olunmasına yönəldilmişdir. Bu təminat, qanunvericiliyə əsasən, iki mənbədən istifadə etməklə həyata keçirilir: büdcədən (vergilər hesabına) və sosial sığorta fondlarından. Büdcə hesabına məcburi qaydada sığorta edilməmiş, əmək iqtidarı olmayan kateqoriyalar (qocalar, əmək stajı olmayanlar, uşaqlar və s) və ya əmək fəaliyyəti və vəziyyətinin peşə xüsusiyyətlərinə malik olan kateqoriyalar (hərbi qulluqçular və onlara bərabər olan kateqoriyalar, Çernobıl iştirakçıları və s) təmin edilir. Sığorta vəsaitləri hesabına əmək pensiyaları və sığorta olunanlara müavinətlər ödənilir.

8. İşə götürənlə işçi arasında sosial partnyorluq. Sosial partnyorluq və onun formalarından biri olan tripartizm, işə götürənlərin, işçilərin və dövlətin sosial sülhə nail olmaq və həm texniki tərəqqinin verdiyi faydanı, həm də sosial əziyyətləri cəmiyyətdə ədalətli bölüşdürmək məqsədilə könüllü əməkdaşlığı ifadə edir.

9. Sosial əmək qanunvericiliyinin birbaşa təsir normaları. Bu normalar əsasən, əmək hüquqlarının - işə qəbul, işdən çıxarma, iş vaxtının rejimi, əmək haqqının müdafiəsi ilə bağlıdır. Bu sahədə daha əhəmiyyətli qanunvericilik mənbəyi - Əmək məcəlləsidir. Büdcədən əmək haqqı alan işçilərin ölkə miqyasında təsdiq olunan vahid tarif cədvəlini də sosial müdafıə mexanizmi kontekstində nəzərdən keçirmək olar. Nizamlanmış məhkəmə sistemi mövcud olduğu halda buraya həmçinin, insanların hüquq və zəmanətlərinin təmin edilməsində güclü vasitə - məhkəmə siyasəti hüququ - daxil edilir.

34. Ünvanlı sosial yardımın təyin olunması zaman ailənin orta aylıq gəliri hesablanarkən nəzərə alınan və nəzərə alınmayan amilləri izah edin. (orta)

Sosial yardımın alınması iki normativ hüquqi aktla — "Ünvanlı dövlət

sosial yardımı haqqında" 21 oktyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu və "Sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli 37 №-li qərarı ilə tənzimlənir. Ehtiyac meyarı əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddir. Ailənin orta aylıq gəliri ailənin gəlirinin orta aylıq göstəricisidir. Ailənin gəlirlərinə ailə üzvlərinin müraciətdən əvvəlki ardıcıl gələn 12 ay müddətində gəliri aiddir. Bura bütün növ gəlirlər, ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natural formada gəlirlər, ölkə ərazisinin hüdudlarından kənarda istənilən mənbədən daxil olan milli və xarici valyutanın məbləği daxildir.

Ailənin orta aylıq gəliri hesablanarkən ailənin gəlirindən aşağıdakılar çıxılır:

1. vergi, sosial sığorta haqları və digər məcburi ödənişlər;
2. təbii fəlakət (sel, yanğın, epidemiya, zəlzələ, torpaq sürüşməsi), müharibə və digər gözlənilməz bədbəxt hadisələr zamanı dövlət və ya işəgötürən tərəfindən ailəyə göstərilmiş yardımın məbləği (dəyəri);
3. ailə üzvünə ödənilən birdəfəlik müavinətlər (radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət, uşağın anadan olmasına görə müavinət, dəfn üçün müavinət və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə birdəfəlik müavinət);
4. ailə sosial yardım üçün təkrar müraciət etdikdə, ailənin gəliri hesablanan zaman əvvəlki dövr üçün ödənilən sosial yardımın məbləği.

Ailənin gəlirinin hesablanması zamanı ailə üzvlərinin gəlirləri haqqında məlumatların düzgünlüyünü təsdiq edə biləcək bütün rəsmi və mənbəyi bəlli olan digər mənbələrdən istifadə edilir. Bura cari transferlər, bütün növ pensiyalar, sosial müavinətlər, təqaüdlər, maddi yardımlar, qrantlar, kompensasiya xarakterli ödənişlər, aliment, sığorta ödənişi, borc-kredit, həmçinin natural formada alınan sosial transfertlər və digər gəlirlər də daxildir. Ailə üzvünün digər şəxslərdən və ölkə xaricindən aldığı vəsaitlər onların digər gəlirləri hesab olunur.

Sosial yardımın əsas prinsipləri aşağıdakılardan ibarətdir:

1. ünvanlılıq - sosial yardım yalnız aztəminatlı ailələrə təyin olunur;
2. ədalətlilik - sosial yardım ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasındakı fərq məbləğində təyin olunur;
1. bərabərlik - sosial yardım bütün aztəminatlı ailələrə təyin olunur.

ÜDSY təyin edilərkən, ailənin tərkibində aşağıda göstərilən ailə üzvləri nəzərə alınmır və onlara görə ÜDSY ödənilmir:

- tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində, xüsusi təhsil müəssisələrində yaşayan şəxslər);
- müddətli həqiqi hərbi xidmətdə olan şəxslər;
- cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər;
- axtarışda olan şəxslər;
- Azərbaycanda yaşamayan Azərbaycan Respublikasının vətəndaşları;
- əcnəbilər (ölkə ərazisində daimi yaşayanlar istisna olmaqla).

Sosial yardımın verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar baş verdikdə sosial yardım dayandırılır. Bura təmsilçi vəfat etdikdə, ailənin tərkibində və gəlirində sosial yardım məbləğinin dəyişdirilməsinə səbəb ola biləcək hallar baş verdikdə və ya sosial yardım ailə tərəfindən ardıcıl gələn 3 ay müddətində alınmadıqda sosial yardımın verilməsi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır. Ailəyə mənzil (əgər ailənin yeganə nəqliyyat və ya mənzili deyildirsə) və nəqliyyat vasitəsi bağışlandığı hallarda, sosial yardımın verilməsi həmin halın baş verdiyi gündən dayandırılır.

35. Sosial xidmətlərin ünvanlı təqdimat mexanizmlərini paktiki əsasda müqayisəli şəkildə təhlil edin. (cetin)

Ehtiyacı olanlara müavinətlərin və xidmətlərin ünvanlı təqdimatının əsas mexanizmləri mövcuddur və onları hər bir mexanizmin inzibati ehtiyaclarını nəzərə almaqla qruplaşdırmaq olar.

a) şəxsin müavinət alma ərizəsini bəyənmək və ya bəyənməmək haqda

müdiriyyətin (idarənin) qərarını tələb edən, ehtiyacı olanların fərdi qiymətləndirilməsi mexanizmləri. Qərarın qəbul olunması üçün əsas dolanacaq imkanlarını və ya ərizəçinin qidalanması ilə bağlı vəziyyətin yoxlanılmasıdır;

b) oxşar, asan aşkara çıxan xüsusiyyətlərəmalik olan əhali qruplarına kömək hüququnu təmin edən, qrup və ya coğrafı ünvanlılıq mexanizmləri;

c) avtomatik ünvanlılıq (özünəünvanlılıq) mexanizmləri, namizədlərin iştirak haqqında fərdi qərarlarına arxalanır. Adətən bu proqramlar, nəzəri olaraq, hamı üçün açıqdır, əslində isə onlar elə işlənib hazırlanır ki, yoxsul olmayan şəxslər tərəfindən sui-istifadənin qarşısı alınsın. Çox vaxt bu proqramlar, yalnız yoxsulların istifadə etdiyi mallara, uşaq mallarına edilən maliyyə yardımı şəklində təzahür edirlər.

Fərdi qiymətləndirmə - bu, ən dəqiq, ancaq inzibati nöqteyi-nəzərdən ən baha başa gələn üsuldur. Hər bir ayrıca namizədin ərizəsinin nəzərdən keçirilməsi, birinci, gəlir səviyyəsinin uçotunu, ikinci, əlavə meyarlar əsasında sosial sektorun işçisi tərəfindən ailə vəziyyətinin qiymətləndirilməsini daxil edən, ətraflı şəxsi informasiyanı tələb edir. Bu üsuldan o vaxt istifadə oluna bilər ki, ünvanlanacaq qrupu dəqiq müəyyən etmək mümkün olsun və etibarlı informasiyanın alınması üçün kifayət qədər yaxşı inzibati imkanlar olsun.

Qrup ünvanlılığı mexanizmi hər hansı bir açıq-aydın xüsusiyyətlərə malik olan bütün kateqoriyalara tətbiq oluna bilər. Bu xüsusiyyətləri iki qrupa bölmək olar: konkret coğrafı ərazidə yaşama ilə müəyyən edilmiş xüsusiyyət; hərbi xidmətdə olanlar, tələbələr, çoxuşaqlılar, dul qadınlar və s.qrupuna aid olunma ilə müəyyən olunmuş xüsusiyyət. Bu yanaşma, fərdi qiymətləndirmə ilə müqayisədə, daha az müfəssəldir və arzuolunmaz şəxslərin daxil edilməsi riski yüksəkdir. Bu yanaşmanın üstünlüyü ondadır

ki, o, daha az xərclərlə bağlıdır və onu tətbiq etmək daha asandır. Bundan başqa, güzəştlərdən istifadə hüququnun fasiləsiz təmin olunmasına daim yenidən baxılmasını tələb edir.

Avtomatik ünvanlılıq potensial rıfah və xidmət alanların fərdi qərarlarına əsaslanır və adətən əks-ünvanlılığın aləti kimi istifadə olunur ki, yoxsul olmayan şəxslərin proqramın rifah və xidmətlərindən istifadəsinə yol verilməsin. Qəbul olunan qərarlara təsir vasitələri: yoxsul hesab olunmayan rayonlarda rifahı əldə olunma imkanı (əldə olunma imkanınm olmaması); rıfahın (xidmətin) aşağı keyfıyyəti və ya həmin rifah və xidmətdən istifadə edən şəxslərə münasibətdə mənfı ictimai fıkir "damğa". Bu, seçim qabiliyyəti ən aşağı olan mexanizmdir və digər mexanizmlərə nisbətən daha çox qeyri-səmərəliliyi və sui istifadəni şərtləndirir. Onun üstünlüyü - minimal inzibati fəaliyyət və yenidən baxılma mexanizminin praktiki olaraq yoxluğudur.

36. Sosial sığortanın mahiyyəti və formalarını izah edin. (asan)

İnsanın həyat səviyyəsinin qəfil aşağı enməsindən əsas mühafızə mexanizmi - onun əmanətləri, şəxsi sığortası, könüllü və məcburi sığortasıdır. Dövlətin vəzifəsi isə - elə bir maliyyə iqliminin yaradılmasıdır ki, gəlirin mümkün azalmalarına qarşı bu özünümaliyyələşdirmə mexanizmləri səmərəli işləsin.

Sosial sığorta - iqtisadi cəhətdən fəal əhalinin iş yerinin, iş qabiliyyətinin və gəlirlərinin itirilməsi ilə bağlı risklərdən, zərərin ödənilməsində kollektiv həmrəylik əsasında sosial müdafiənin formasıdır.

Sosial sığortanın xüsusiyyəti, onun işə götürənlərin və işçilərin məqsədli ödəmələrindən, dövlət yardımı ilə yanaşı, formalaşan xüsusi büdcədənkənar fondlardan maliyyələşdirilməsidir.

Sosial sığorta fondlarının ictimai əhəmiyyətli xarakteri və onların formalaşmasında işçilərin və işə götürənlərin həmrəy inkişafı prinsipi, bu fondların idarə olunmasımn xüsusiyyətini müəyyənləşdirir. Bu fondlar, özünüidarəçilik və qeyri-kommersiya təsərrüfatçılığı prinsipləri əsasında fəaliyyət göstərir.

Sosial sığorta iki formada mövcuddur:məcburi və könüllü sığorta.

Bu formaların nisbəti, müxtəlif ölkələrdə və sığortanın inkişafının ayrı-ayrı mərhələlərində müxtəlifdir.

Məcburi sosial sığorta,məqsədli büdcədənkənar (dövlət, ictimai) fondlar vasitəsi ilə həyata keçirilən dövlət sosial zəmanətlərinin bir növüdür. Burada natamam özünümaliyyələşdirmə prinsipi həyata keçirilir. Belə fondlar kəsirdə qaldıqda, dövlət onlara büdcə vəsaitindən kömək edir və bu fondların maliyyə sabitliyinə zəmanət verən və məcburi sosial sığorta proqramını həyata keçirən subyekt kimi çıxış edir.

Könüllü sosial sığorta, dövlətin (büdcənin) sığorta dəstəyinin olmaması şəraitində, kollektiv həmrəylik və qarşılıqlı yardım prinsipləri üzərində qurulmuşdur. Onun fərqləndirici cəhətləri - sığorta fondlarının idarəçiliyində demokratizm, özünü idarəçilik prinsiplərinin tam reallaşması, işə götürənlərin və muzdlu işçilərin sosial partnyorluğu, sığorta ödəmələrinin və proqramlarının sığorta edənlərin gəlirlərindən sıx asılılığıdır.

37. Sosial sığorta hadisəsi, sığorta ödəmələri və sosial sığortanın prinsipləri haqqında açıqlama verin. (asan)

Sosial sığorta hadisəsielə bir haldır ki, onun baş verməsi ilə sığorta olunanın sığorta təşkilatından sığorta ödənişi almaq hüququ yaranır.

Sosial sığorta hadisəsinə aşağıdakılar daxildir:

pensiya yaşına çatmaq; əlil və ya 18 yaşınadək sağlamlıq

imkanları məhdudluğunun olması; ailə başçısını itirmək; əmək qabiliyyətinin müvəqqəti itirilməsi (qanunvericiliklə müəyyən olunmuş dövr üçün); hamiləlik və doğum; uşağın anadan olması; uşağa qulluq; ölüm; sanatoriya-kurort müalicəsi zərurəti; işsiz olmaq (qanunvericiliklə müəyyən olunmuş dövr üçün).

Qeyd edək ki, sosial sığortanın formaları olan məcburi dövlət sosial sığortası bu maddədə göstərilən bütün hadisələr üzrə, könüllü (əlavə) sosial sığorta isə tərəflərin seçdiyi sığorta hadisələri üzrə aparılır.

Sosial sığorta hadisəsi baş verdikdə aşağıdakı sığorta ödəmələri verilir:

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilən əmək (sosial sığorta)pensiyaları; könüllü (əlavə) sosial sığorta əsasındaəmək pensiyalarına əlavələr; əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət (qanunvericiliklə müəyyən olunmuş dövr üçün); hamiləliyə və doğuma görə müavinət; uşağın anadan olmasına görə birdəfəlik müavinət; qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət; dəfn üçün müavinət; sığortaolunanların sanatoriya-kurort müalicəsi üzrə xərclərinin tam və ya qismən ödənişi; işsizlik müavinəti.

Sosial sığortanın həyata keçirilməsi müəyyən prinsiplərlə həyata keçirilir. Sosial sığortanın prinsipləri aşağıdakılardır:

sosial sığortanın müntəzəmliyinə dövlət təminatı; sosial sığortanın ümumiliyi; sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi; sosial sığorta subyektlərinin hüquq bərabərliyi; sosial sığortasının məcburiliyi; məcburi dövlət sosial sığortasının idarə

edilməsində ictimai təşkilatların iştirakının təmin olunması.

38. Sosial sığorta fondlarının spesifik cəhətlərini şərh edin. (orta)

Bununla yanaşı, bu fondlar, sosial sığortanın funksional məqsədini əks etdirən spesifık cəhətlərə malikdirlər.

Birincisi, milli gəlirin müvafıq hissəsi, sosial sığorta fondlarının formalaşdırılması və istifadəsi yolu ilə, şəxsi gəlirə, konkret rifaha və xidmətlərə çevrilir.

İkincisi, sosial sığortada ilkin və sonrakı bölüşdürmənin sərhədləri aydın şəkildə izlənilir. İlkin bölüşdürmə, müəssisələrin, təşkilatların və işçilərin gəlirlərindən xüsusi ayırmalar hesabına, fondların yaranması mərhələsi üçün səciyyəvi hal daşıyır. Dövlət büdcəsinin, əhalinin vəsaitinin cəlb edilməsi və ictimai həmrəylik prinsipləri əsasında sosial sığorta fondlarının bundan sonrakı xərclənməsi isə gəlirin yenidən bölüşdürülməsi sahəsinə aiddir.

Üçüncüsü, maliyyə münasibətlərinin bu sahəsi dövlət tərəfindən fəal surətdə tənzimlənir. Sığorta fondlarının siyahısı, onların təyinatı, istifadə sahəsi, formalaşdırma mənbələri və xərclənmə istiqamətləri, dövlət normativ aktları ilə müəyyənləşdirilir. Bu aktların təsir dairəsinə müxtəlif mülkiyyət formaları düşür. Bununla bərabər, sosial sığorta fondlarının fəaliyyəti, sosial partnyorların və ictimai təşkilatların fəal iştirakı ilə həyata keçirilir: həmkarlar ittifaqları, sahibkarlar assosiasiyaları, qadın, veteran təşkilatları, əlillər birlikləri və ictimai qəyyumluq orqanları.

Dördüncüsü, sosial sığorta fondları, sığorta üsulu ilə, yəni müəssisələrin, təşkilatların və vətəndaşların ödədikləri sığorta haqlarının hesabına yaradılır. Bu fondlar, insanın əmək prosesində müvvəqqəti, yaxud daimi şəkildə kənarlaşdırılması ilə nəticələnən müəyyən hadisələrin (xəstəlik, bədbəxt hadisə, iş yerinin itirilməsi və s.) baş verməsi etimalı ilə

formalaşdırılır.

Beşincisi, bu fondlar əhalinin, müəssisələrin əmanətlərini cəmləşdirir və onların bir hissəsinin iqtisadiyyata investisiya olunmasını təmin edir.

Sosial sığorta fondları üç mənbədən yaranır: işçilərin ödədikləri sığorta ödəmələrindən, işə götürənlərin ödəmələrindən və dövlətin maliyyə yardımından

39. Məcburi dövlət sosial sığorta haqqının ödənilmə dərəcəsini misal göstərməklə izah edin. (orta)

Sosial sığorta iki formada mövcuddur:məcburi və könüllü sığorta.

Bu formaların nisbəti, müxtəlif ölkələrdə və sığortanın inkişafının ayrı-ayrı mərhələlərində müxtəlifdir.

Məcburi sosial sığorta,məqsədli büdcədənkənar (dövlət, ictimai) fondlar vasitəsi ilə həyata keçirilən dövlət sosial zəmanətlərinin bir növüdür. Burada natamam özünümaliyyələşdirmə prinsipi həyata keçirilir. Belə fondlar kəsirdə qaldıqda, dövlət onlara büdcə vəsaitindən kömək edir və bu fondların maliyyə sabitliyinə zəmanət verən və məcburi sosial sığorta proqramını həyata keçirən subyekt kimi çıxış edir.

Məcburi sosial sığorta sistemində. dövlət zəmanətinin kifayət səviyyədə olmaması və sığorta edənlərin gəlirlərinin yüksək səviyyəsi, belə bir hal üçün əlverişli şərait yaradır ki, könüllü sosial sığorta fondları məcburi sığortanın alternativi kimi deyil, onun tamamlayıcısı kimi çıxış etsin. Bu fondların biri-birini qarşılıqlı şəkildə tamamlaması, birinin qüsurlarını digərinin üstünlükləri ilə konpensasiya etmək imkanı verir.

Məcburi dövlət sosial sığorta haqqı sığortalamaya görə sığortaçıya verilən pul vəsaitidir. Məcburi dövlət sosial sığortasında sığorta haqqı əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyən edilir, sığortaedənin və sığortaolunanın vəsaiti hesabına ödənilir.

Muzdlu işdən əldə edilən gəlirlər üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir: sığortaedən tərəfindən ödənilən sığorta haqqı - hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi; sığortaolunan tərəfindən ödənilən sığorta haqqı - işçinin əməkhaqqının və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 3 faizi.

40. İcbari tibbi sığorta haqqını nümunə misal üzərindən hesablayaraq izah edin. (çətin)

Sosial sığortanın formalarından biri də tibbi sığortadır. Tibbi sığorta müəyyən səbəblər üzündən sağlamlığın itirilməsi hallarında əhalinin maraqlarının sosial müdafiəsi formasıdır. Tibbi sığorta vətəndaşların tibbi xərclərinin kompensasiya edilməsi ilə əlaqədardır ki, bu da tibbi yardımın alınması formasında həyata keçirilir. Bu sığorta həmçinin sağlamlığın qorunması ilə əlaqədar olan digər xərclərlə bağlıdır. Həmin xərclər sığorta obyektlərinin xüsusiyyətləri ilə əlaqədardır və sığorta olunan şəxslərin müalicəsi zamanı aşağıdakı işlərə xərclənir:

- ✓ həkim mütəxəssislər tərəfindən xəstələrin müayinəsi və ambulator şəraitində lazımi müalicələrin aparılması;
- ✓ tibbi ləvazimatların əldə edilməsi;
- ✓ daimi tibbi müəssisələrdə yaşama;
- ✓ profilaktik tədbirlərin aparılması.

Tibbi sığortanın məcburi (icbari) və könüllü formaları mövcuddur. Məcburi tibbi sığorta üzrə fondun vəsaitlərindən bu və ya digər səbəbdən, o cümlədən xəstəlikdən öz sağlamlığını itirməsi ilə əlaqədar olaraq əmək qabiliyyəti olmayan sığortalanmış fəhlə və qulluqçuların müalicəsinə müəyyən həcmdə xərclərə yönəldilir. Könüllü tibbi sığorta zamanı vəsaitlər əməkçilərin vəsaitləri hesabına ödənilir və çox yüksək səviyyədə tibbi

yardımın ödənilməsi təmin edilir.

"Tibbi sığorta haqqında" Qanunda edilən son dəyişikliyə əsasən icbari tibbi sığorta haqqı 2022-ci ilin yanvar ayının 1-dən etibarən aşağıdakı qaydada hesablanır:

İşəgötürən tərəfindən:

Misal üçün işəgötürən işçiyə aylıq 800 manat əməkhaqqı müəyyən edib. Yəni, işəgötürən işçi üçün həmin məbləğin 2 faizi, aylıq 16 manat (800 x 2 faiz = 16) icbari tibbi sığorta haqqı ödəyəcək.

Əgər, işəgötürən işçiyə aylıq 8500 manat əməkhaqqı müəyyən edibsə, bu halda 8000 manatın 2 faizi, yəni 160 manat (8000 x 2 faiz = 160), qalan 500 manatın isə 0,5 faizi, yəni 2,5 manat (500 x 0,5 faiz = 2,5) icbari tibbi sığorta haqqı hesablanır. Nəticədə işəgötürən işçi üçün aylıq 162,5 manat icbari tibbi sığorta haqqı ödəyəcək.

İşçi tərəfindən:

Tutaq ki, işçinin aylıq əməkhaqqı (əlavə, mükafat və s. daxil olmaqla) 800 manatdır. Bu halda onun əməkhaqqından 2 faiz, yəni aylıq 16 manat (800 x 2 faiz = 16) icbari tibbi sığorta haqqı tutulacaq.

Əgər, işçinin aylıq əməkhaqqı (əlavə, mükafat və s. daxil olmaqla) 8500 manatdırsa, bu zaman 8000 manatın 2 faizi, yəni 160 manat (8000 x 2 faiz = 160), qalan 500 manatın isə 0,5 faizi, yəni 2,5 manat (500 x 0,5 faiz = 2,5) icbari tibbi sığorta haqqı hesablanır. Nəticədə işçinin əməkhaqqından aylıq 162,5 manat icbari tibbi sığorta haqqı tutulacaq.

41. Qeyri-kommersiya sektorunun mahiyyətini izah edin. (asan)

Müasir vətəndaş cəmiyyəti üç ayrılmaz tərkib hissədən, üç sektordan ibarətdir.

Birincisi - dövlət sektorudur ki, o, bütün səviyyələrdə dövlət hakimiyyəti

orqanlarını, həmçinin dövlətin payının üstün olduğu dövlət və qarışıq mülkiyyət formalarına əsaslanan bütün müəssisə və təşkilatlardan ibarətdir .

İkinci - kommersiya və ya biznes sektorudurki, bu, bazar qanunları əsasında fəaliyyət göstərən qeyri-dövlət kommersiya fırmalarının sektorudur.

Üçüncü sektor -qeyri-kommersiya sektorudur . Geniş mənada o, bütün fəaliyyət istiqamətlərinin dövlət və qeyri-dövlət təşkilatlarının məcmusunu özündə əks etdirir. Dar mənada isə bu fəaliyyəti sosial əhəmiyyətli ictimai problemlərin həllinə yönəlmiş partiyalardan, ictimai hərəkatlar və təşkilatlardan, assosiasiya, birlik, müxtəlif yönümlü coxsaylı təşkilatlar (idarələr), xeyriyyə cəmiyyətləri, fondlar və s. qeyri-dövlət (qeyri-hökumət) qeyri- kommersiya təşkilatlarından ibarət olan sektordur.

Üçüncü sektoru həmçinin qeyri-dövlət, qeyri-hökumət, müstəqil, qeyri-kommersiya, gəlirsiz, xeyriyyə, könüllü fəallıq sektoru, volontyor, fllantropik də adlandırırlar. Bu sektorun hər bir tərifində onun konstitusional əlamətləri formalaşır:

1) qeyri-dövlət və ya qeyri-hökumət sektorunun tərkibinə daxil olan təşkilatlar, tam həcmdə dövlət hakimiyyəti və səlahiyyətlərinə malik deyillər. Hərçənd, onların bəziləri, öz üzvləri vasitəsilə, amiranə təsirə malik ola bilərlər, bəziləri isə hətta müəyyən dövlət funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə də malik ola bilərlər. Məsələn, ABŞ-da bəzi təhsil təşkilatları lisenziyaların verilməsi üzrə hökumət səlahiyyətlərini yerinə yetirirlər.

2) müstəqil sektor - hər şeydən əvvəl fəaliyyətin maliyyə mənbələrinin çoxsaylılığı, onu həm dövlətdən, həm də biznesdən nisbətən müstəqil edir.

3) qeyri-kommersiya, gəlirsiz sektordur .Bu sektorun təşkilatları,

kommersiya təşkilatlarından fərqli olaraq, gəlir əldə etmək üçün fəaliyyət göstərmirlər. Lakin, bu heç də o demək deyildir ki, onlar gəlir əldə edə bilməzlər. Qeyri-kommersiya təşkilatları əldə edilən gəliri təsisçilər arasında bölmək hüququna malik deyildirlər, onlar onu nizamnamə məqsədləri (yalnız elan olunmuş missiyanın məqsədləri) üçün istifadə etməlidirlər.

1) könüllü fəallıq (volontyor) sektoru - bu sektorun fərqləndirici xüsusiyyəti odur ki, burada volontyorların könüllü əməyindən geniş istifadə olunur. Məsələn, ABŞ-da yaşlı əhalinin təqribən 54%-i həftədə 4 saat könüllü işlə məşğul olur, Böyük Britaniyada əhalinin 30%-i həftədə 1,1 saat könüllü xidmətə həsr edirlər. Finlandiyada isə əhalinin 44%-i ayda 15-18 saat könüllü işləyir. Bir işdə çalışanların 70%-i həmkarlar ittifaqının üzvüdür.Bununla belə ödənilməyən könüllü əmək, həm bu sektorun təşkilatlarının mövcud olma mənbəyi, həm də geniş əhali kütlələrinin vətəndaş fəallığı forması kimi çıxış edir.

2) filantropik xeyriyyə sektoru - belə bir tərif bu sektorun xeyriyyə fəaliyyəti sektoru kimi meydana çıxmasının davamlı tarixi köklərini əks etdirir və bunun nəticəsi kimi, bu sektorun bir hissəsini xeyriyyə təşkilatları təşkil edir. Bu sektora verilən tərif həm öz-özlüyündə həm də başqaları ilə əlaqədə, ədalətlidir. Bu konteksdə filantropik xeyriyyə sektoru ən geniş yayılmış qeyri-kommersiya sektoru (QKS) termini kimi istifadə edilir.

42. Qeyri-kommersiya sektorunun üstünlüklərini açıqlayın. (asan)

Qeyri-kommersiya təsərrüfatçılığının mexanizmi bir sıra üstünlüklərə malikdir. Bu üstünlüklər, kollektiv istifadə xidmətlərinin reallaşdırılması kimi "bazar iflaslarını", dövlətə nisbətən daha səmərəli həll etməyə QKS-na imkan verirlər. QKS-nin üstünlüklər aşağıdakılardır:

1. İdarəetmənin qeyri-mərkəzləşdirilməsi. Burada söhbət, dövlət

öhdəlikləri, vətəndaş və şəxsi məsuliyyət arasında ağlabatan tarazlığa qadir, özünü idarə edən mexanizmə olan ehtiyacın reallaşdırılmasından gedir.

2. Kollektiv istifadə xidmətlərinin göstərilməsində ünvanlılıq:

a) xidmət və rifahların bölgüsü formal əlamətlər üzrə (hər hansı müəyyən bir qrupa məxsus olmağa görə) deyil, faktiki əlamətlər üzrə (həqiqi ehtiyaca görə) həyata keçirilir.

b) müxtəlif sosial qrupların ehtiyaclarına, sosial xidmətlərə olan tələbata daha operativ reaksiya vermək imkanı.

3. Təsərrüfatdankənar yanaşma, yəni siyasi amillərdən, biznesin təzyiqindən daha az asılılıq. QKS çərçivəsində xidmətlər dövlətdə olduğundan daha az standartlaşdırılıb, daha rəngarəngdirlər. Burada sərt reqlamentləşdirmə və həddindən artıq bürokratlaşma təhlükəsi yoxdur.

4. Təsərrüfatçılıq mexanizminin çevikliyi:

a) QKT təşkilatları bilavasitə konkret məqsədlərin həyata keçirilməsi üçün yaradılaraq, nisbətən asan yarana və ləğv oluna bilərlər;

a) problemlərin həllinin yeni yollarının, üsullarının axtarılması üçün daha böyük imkanlara malikdirlər.

a) fərdi tələblərə uyğun olaraq, xidmətlərin xarakterini dəyişə bilirlər, bu isə xidmətlərin diversifikasiyasının dərəcəsinin əhəmiyyətli səviyyəsini təmin edir.

5. Qarışıq maliyyələşdirmə. QKS çərçivəsində müxtəlif, həm büdcə, həm də büdcədənkənar maliyyə axınlarının qeyri-mərkəzləşmiş şəkildə cəlb edilməsinin və başqa cür istifadə oluna bilməyən dağınıq maliyyə resurslarının akkumulyasiyasının real imkanları mövcuddur.

43. Qeyri-kommersiya sektorunun əsas funksiyalarını praktiki əsasda izah

edin. (orta)

Qeyri-kommersiya sektorunun vəzifələri (funksiyaları) ictimai inkişafın müasir mərhələsində xeyli rəngarəngdir. Onları 3 böyük qrupa bölmək olar:

1) iqtisadi funksiyalar (kollektiv istifadə üçün rifah və xidmətlərin istehsalı, resursların akkumlyasiyası);

2) ictimai-siyasi funksiyalar (vətəndaş mövqeyinin fəallaşdırılması, ictimai proseslərə ayrı-ayrı şəxslərin, müxtəlif qrup və onların birliklərinin cəlb edilməsi);

3) cəmiyyətin başqa sektorlarına təsir funksiyaları:

* dövlətə təsir etmə; yeniliklərin, yeni fıkirlərin, yeni proseslərin tətbiqi ilə əlaqədar təşəbbüskarlıq (məs. ekologiyanın vəziyyətinə nəzarət, doğum sayına nəzarət, qadın hüquqları uğrunda hərəkatlar QKS-da yaranmış, sonra isə dövlər strukturları tərəfindən dəstəklənmiş və inkişaf etdirilmiş novator fıkirlərinə misal ola bilər; ictimai fıkirləri oynatmaq məqsədilə alternativ baxış və strategiyaların inkişafı; ictimai fıkrin monitorinqi yolu ilə dövlət siyasətinin konkret qərarlarınm işlənməsinə təsir; icra hkimiyyəti orqanlarının fəaliyyətinə müəyyən nəzarət; azlıqların maraqlarının və ya yerli maraqların dəstəklənməsi; konstitusiyanın dövlət orqanlarına qadağan etdiyi xidmətlərin təmin edilməsi (məs. dini xidmətlərin);
* kommersiya sektoruna təsir (biznes üzərində müəyyən nəzarət -həmkarlar ittifaqları, dövlət, həmkarlar təşkilatları və sahibkarlar arasında üçtərəfli razılıqlar; bazar konyunkturasının qərəzsis müşahidəsi vasitəsilə; özünün kommersiya sektorundakı analoqları ilə müəyyən rəqabət mübarizəsi, yəni rəqabətli mühitin yaradılmasında iştirak; biznesə müəyyən dəstəyin göstərilməsi - biznesin özünün maraqlarını qoruyan və təbliğ edən bir çox gəlirsiz təşkilatlar mövcuddur: sahibkarlar assosiasiyaları, sahə üzrə, regional assosiasiyalar);

* iqtisadiyyatın hər üç sektorunun məqsədlərinin və vəzifələrinin yaxınlaşması üçün vasitəçi fəaliyyəti: QKS təşkilatlarının nə kommersiya marağına, nə də çox vaxt onları, həm dövlətin və həm də işgüzar şəxslərin cəlb olunduğu müxtəlif layihələr və səylərdə vasitəçi və ya əlaqələndirici funksiyalarının icrası üçün çox əlverişli edir.

Qeyri-kommersiya sektorunun iqtisadi funksiyaları və kommersiya sektoruna təsir funksiyaları daha çox "bazarın iflaslarının" tarazlaşdırılmasına, QKS-nun ictimai-siyasi funksiyaları isə - "dövlət qüsurlarının" tarazlaşdırılmasına yönəldilib.

QKS-nun icra etdiyi funksiyaların mürəkkəbliyi və rəngarəngliyi, QKS-nun təşkilati strukturunun da əhəmiyyətli dərəcədə çoxcinsliliyini qabaqcadan müəyyən edir. Seçilmiş meyarlardan asılı olaraq, bir neçə tip təsnifatı fərqləndirirlər: müxtəlif ölkələrdə qeyri-kommersiya sektorunun inkişafının hüquqi və milli tarixi aspektlərinin seçilməsi əsasında; institusional strukturun və istehlakçıların məqsədli qruplarının təhlili əsasında; qeyri-kommersiya təşkilatlarının maliyyə mənbələrinin təhlili əsasında və i.a.

44. Qeyri-kommersiya sektorunun müxtəlif meyarlara görə təsnifat formalarını təhlil edin. (orta) ???????

QKS-nun daxili strukturunun müxtəlif meyarlarından irəli gələn bir çox başqa təsnifatları mövcuddur. Ancaq bu məqsədlərə istehlakçıların məqsədli qruplarının və QKS-nun institusional təhlilinə aid olan təsnifat uyğun gəlir.

Məhz bu təsnifat tipi, QKT-nın hansı bazar boşluqlarını doldurmağa çalışdığını və hansı ictimai qüvvələrin maraqlarını təmin etdiyini görməyə imkan verir.

Təsnifatın bu tipi QKS-nun xarici və daxili istehlakçılarının maraqlarının reallaşdırılması ilə bağlı meyarların ayrılmasına əsaslanır.

Bu təsnifata əsasən, qeyri-kommersiya təşkilatlarının üç kateqoriyası mövcuddur.

Birinci kateqoriya - miqyaslarına görə ən irisidir. Bu kateqoriyadan olan QKT-nın məqsədi - xarici istehlakçılarm maraqlarına xidmət göstərilməsidir. Onların məqsədləri bir qayda olaraq, dövlətin belə bir məqsədi ilə - kollektiv istifadə rifahları maksimal ünvanlılıq şəraitində hamı üçün əlçatan olsun - maksimal şəkildə üst-üstə düşür.

Qeyri-kommersiya təşkilatlarının bu qrupunun əhəmiyyətli hissəsini ictimai maraqların reallaşdırılmasına yönəlmiş sosial, sosial-mədəni məqsədləri olan xeyriyyə və digər təşkilatlar təşkil edir.

QKT-nın ikinci kateqoriyası - təsisçilərin və onların üzvlərinin maraqlarını reallaşdıran və "klub strukturları" adlandırılan qeyri-xeyriyyə xarakterli təşkilatlardır (sahibkarların və sənayeçilərin assosiasiyaları, ticarət-sənaye palataları, birjalar). Söhbət, oxşar statusu, maraqları, zövqləri, həyat tərzi olan şəxslər qruplarının birliyindən və yalnız ödəmə qabiliyyəti ilə məhdudlaşan, yekcins olmayan, ərazicə parçalanmış tələbin ödənilməsindən gedir.

Üçüncü kateqoriya - özləri üçün siyasi metodlar vasitəsilə bütün cəmiyyətin təkmilləşməsini, dövlət siyasətinin dəyişdirilməsini, konkret qrupların maraqlarının müdafiəsini qarşılarında əsas məqsəd qoyan qeyri-kommersiya təşkilatlarıdır. Bura isə siyasi hərəkat və partiyalar (qadın assosiasiyaları, gənclər qurumları) daxildir.

Bir sıra qeyri-kommersiya təşkilatlarını yuxarıda qeyd olunan kateqoriyalardan hər hansı birinə aydın şəkildə aid etmək çox çətindir, çünki onlar müxtəlif fəaliyyət növlərini kombinasiya etmək qabiliyyətinə

malikdirlər.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, təkcə bütövlükdə cəmiyyətdə deyil, daha vacibi odur ki, həm də sosial əhəmiyyətli sahələr çərçivəsində (səhiyyə, təhsil, mədəniyyət, elm və s.), yalnız QKS təşkilatlarının müxtəlif kateqoriyaları yox, həm də hər üç sektorun təşkilati strukturları, bir-birini tamamlayaraq yanaşı fəaliyyət göstərirlər.Məsələn, ABŞ-da uşaqların çoxu dövlət məktəblərində oxuyur, tələbələrin əksəriyyəti dövlət ali təhsil müəssisələrində təhsil alırlar, hərçənd özəl kommersiya və bir çox qeyri-kommersiya təhsil müəssisələrinin geniş təbəqəsi mövcuddur.

45. Qeyri-kommersiya sektorunun digər sektorlarla qarşılıqlı maraq əlaqəsini misal göstərməklə təhlil edin. (çətin)

Qeyri-kommersiya sektoru iqtisadiyyatın iki başqa sektorları ilə sıx surətdə əlaqəlidir. Onlar arasında dəqiq təyin olunmuş sərhədlər mövcud deyildir.

Dövlət və QKS, maliyyə mədaxili mənbəyi kimi biznes sektorun inkişafında maraqlıdırlar (dövlət - vergilər şəklində, QKS isə - ianələr şəklində). Kommersiya və qeyri-kommersiya təşkilatları, dövlətə hüquqi, iqtisadi sabitlik və təhlükəsizliyin zəmanətçisi kimi görürlər.

Biznes-sektoru QKS-un inkişafında maraqlıdır, çünki, bu sektorun, birjalar, sənaye-ticarət palataları, sahibkarların assosiasiyaları kimi bir sıra təşkilatların fəaliyyəti, biznesin maraqlarına xidmət edir, hərçənd ki, bəzi hallarda, QKT-ı biznes sektorun rəqibinə çevrilə bilərlər.

Müxtəlif sektorların təşkilatlarının fəaliyyəti sıx şəkildə əlaqəlidir, və sektorların hər biri - QKS və özəl biznes - iqtisadiyyatın digər sektorlarının inkişafında maraqlıdır.

İqtisadiyyatin hər bir sektorunun fəaliyyət miqyasları ölkədən, tarixi

ənənələrdən və iqtisadi inkişafın mərhələlərindən asılı olaraq dəyişir. Bu da öz növbəsində, onların sərhədlərinin şəffaflığı və çevikliyi amilləri ilə birgə üçüncü sektorun xalis formada fəaliyyətinin miqyas və sərhədlərinin səciyyələndirilməsinə çətinliklər törədir.

İqtisadiyyatin hər bir sektorunun fəaliyyət miqyasları ölkədən, tarixi ənənələrdən və iqtisadi inkişafın mərhələlərindən asılı olaraq dəyişir. Bu da öz növbəsində, onların sərhədlərinin şəffaflığı və çevikliyi amilləri ilə birgə üçüncü sektorun xalis formada fəaliyyətinin miqyas və sərhədlərinin səciyyələndirilməsinə çətinliklər törədir.

Qeyri-kommersiya təşkilatlarının əsas aspektləri hesabatlılıq, etibarlılıq, dürüstlük və təşkilata vaxt, pul və inam sərfedən hər bir şəxsə açıqlıqdır. Qeyri-kommersiya təşkilatları donorlar, təsisçilər, könüllülər, proqram alıcıları və ictimai ictimaiyyət qarşısında cavabdehdirlər. Fəaliyyətlərini ianələr vasitəsilə maliyyələşdirməyə çalışan qeyri-kommersiya təşkilatı üçün ictimai etimad, qeyri-kommersiya təşkilatının toplaya bildiyi pul məbləğində bir amildir. Qeyri-kommersiya təşkilatları öz missiyalarına nə qədər çox diqqət yetirsələr, bir o qədər ictimai etimad qazanacaqlar. Bu, təşkilat üçün daha çox pulla nəticələnəcək. Qeyri-kommersiya təşkilatının iştirak etdiyi fəaliyyətlər ictimaiyyətin qeyri-kommersiya təşkilatlarına inamını artırmağa, eləcədə standartların və təcrübələrin nə dərəcədə etik olmasına kömək edə bilər.

46. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi mahiyyətini izah edin. (asan)

Sahibkarlıq (sahibkarlıq fəaliyyəti) vətəndaşların mənfəət və ya şəxsi gəlir əldə etmək məqsədi ilə müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının fəaliyyət qabiliyyətli hər bir vətəndaşı sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. O, bu fəaliyyəti

müəssisə yaratmaqla hüquqi şəxs formasında və ya hüquqi şəxs yaratmadan fiziki şəxs kimi həyata keçirə bilər.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan şəxs Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan edilməyən istənilən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər. Bunun üçün şəxs yerli vergi orqanlarında qeydiyyatdan keçərək şəhadətnamə və fəaliyyət göstərəcəyi sahə üzrə lisenziya almalı, bundan əlavə, əldə etdiyi gəlirin miqdarından asılı olaraq qanunla müəyyən olunmuş həcmdə vergi ödəməlidir.

Sahibkar öz fəaliyyətindən irəli gələn öhdəliklərə görə tam cavabdehdir və şəxsi əmlakı həcmində məsuliyyət daşıyır. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq AR Konstitusiyası, AR Mülki Məcəlləsi, «Mülkiyyət haqqında» AR qanunu, «Sahibkarlıq haqqında» AR qanunu, «Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisi haqqında» AR qanunu, habelə «Fiziki şəxslərin gəlirindən vergi haqqında (gəlir vergisi)» Dövlət Baş Vergi Müfəttişliyinin təlimatı və digər normativ aktlarla tənzimlənir. Müasir şəraitdə Azərbaycan iqtisadiyyatı mürəkkəb bazar münasibətləri, rəqabətqabiliyyətli məhsullar və dünya maliyyə-iqtisadi sisteminə inteqrasiya olunmaq kimi cəhətlərlə xarakterizə olunur. Hazırda ölkə iqtisadiyyatının qarşısında duran ən mühüm vəzifə sahibkarlığın inkişafına nail olmaq üçün sahibkarlıq fəaliyyətinin təşkilini, onun sosial-iqtisadi səmərəliliyini və idarə edilməsini təkmilləşdirməkdir.

“Sahibkarlıq fəaliyyəti haqqında” 1992-ci il 15 dekabr tarixli qanununa əsasən sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağıdakılar məşğul ola bilərlər:

1. fəaliyyət qabiliyyəti olan Azərbaycan Respublikasının hər bir vətəndaşı;


2. mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
3. hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs;
4. xarici hüquqi şəxslər.

Sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərin həllini və ya bu fəaliyyətə nəzarəti həyata keçirən dövlət orqanlarının və qurumların vəzifəli şəxslərinə və mütəxəssislərinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağandır.

Sahibkarlıq fəaliyyətinin inkişafı ÜDM-in, əhalinin pul gəlirlərinin, istehsal və xidmətin həcminin, iqtisadiyyata qoyulan xüsusi kapitalın (investisiyaların) və s. bu kimi makroiqtisadi göstəricilərin artımına birbaşa təsir göstərir.


47. Sahibkarlığın əsas komponentlərini və xüsusiyyətlərini izah edin. (asan)

Sahibkarlığın əsas komponentlərini aşağıdakı kimi qruplaşdırmaq olar:



Şəkil. Sahibkarlığın əsas komponentləri.

Sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri bunlardan ibarətdir: həyata keçirilən fəaliyyətin və mənfəətin əldə edilməsinin təhlükəsini sahibkar öz üzərinə götürür; təhlükənin öz üzərinə götürülməsi birbaşa sahibkarın öz işinin aparılması məsuliyyətini göstərir; müəssisənin bazara lazım olan əmtəənin verilməsinə, əmtəənin keyfiyyətinə, qanuna, əməkdaşlar, investorlar, işçilər və dövlət ilə müqavilələrə riayət olunmasına görə sahibkar məsuliyyət daşıyır.




Şəkil. Sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri.

Sahibkarlıq sosial amil olaraq istehlakçı davranışını, ailənin tələbat sistemini müəyyənləşdirir. Sahibkarlıq ayrı-ayrı sosial demoqrafik qrupların əməyindən istifadə etmək imkanlarının genişləndirilməsi və bəzi sahibkarlıq növlərinə prioritet istiqamət üçün üstünlük verilməsi yollarını əsaslandırmaq vacib şərtdir.

48. Sahibkarlığın məqsədlərini sxematik təsvir edərək izah edin. (orta)

Sahibkarlıq fəaliyyəti - ərazi, sahə və əmək fəaliyyətinin əsas istiqamətləri kimi qiymətləndirilir. Sahibkarlığın məqsədlərini iqtisadi və sosial-psixoloji istiqamətlər üzrə qruplaşdırmaq olar. Aşağıdakı sxemdə sahibkarlığın məqsədlər üzrə bölgüsü verilmişdir . Şəkil-1. Sahibkarlığın məqsədləri.



Sahibkarlığın sosial mövqeyi istehsal və istehlak bazarında əmtəə və xidmət təklifini təmin etməklə əldə olunan səmərə ilə ölçülür. Məhz bu proseslər arasında əlaqənin funksional konkret əmtəə və xidmət üzrə əlaqəsi parametrik əlaqə ilə ifadə olunur.

49. Səmərəliliyin mahiyyəti və formalarını praktiki əsasda izah edin. (orta)

Ümumi iqtisadi səmərəlilik – məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən edilir.

Sosial-iqtisadi səmərəlilik - fərdi və ictimai tələbatın ödənilməsi prosesində mövcud ictimai istehsal prosesləri şəraitində bilavasitə məhsuldar qüvvələrin inkişaf səviyyəsinə əsaslanır.

Sosial səmərəlilik - sosial-iqtisadi səmərəliliyin bir hissəsidir və cəmiyyət üzvlərinin həyat tərzinin formalaşmasında əsaslı surətdə təsir göstərən tədbirlər vasitəsilə müəyyən edilir. Bu səməlilik formasının başlıca meyarı sosial xarkterli tələbatın insanların maddi və mədəni tələbatına daxil etməklə, onların ödənilməsi üçün yönəlmiş resurslar nisbətinin təyin edilməsidir. Iqtisadi və sosial səmərəliliyin yüksəldilməsi yalnız iqtisadi səmərəliliyin yüksəldilməsində mövcud ola bilər. Fond verimi, əmək məhsuldarlığı göstəricilərindən fərqli olaraq səmərəlilik göstəricisi nəticəvi xarakterli kateqoriya kimi çıxış edir. Elə buna görə də iqtisadi səməlilik göstəricisi təkrar istehsal kateqoriyasıdır. Çünki məhsulun təkrar istehsalının bütün mərhələlərində rastlaşılır.

Iqtisadi səmərə sahibkarlıq fəaliyyətini makrosəviyyəli və mikrosəviyyəli səmərə ilə ölçür. Belə ki, makrosəviyyədə səmərə sahibkarlığın ümumi daxili məhsulda rolu və onun artımı sahibkarlıq fəaliyyətinin iqtisadi göstəricilərinin elastiklik əmsalı ilə ölçülür. Sosial

səmərə daha geniş kateqoriya olmaqla, mürəkkəb göstərici olub, daha çox real prosesin içərisindən kənarda qiymətləndirmə subyektləri və ölçmə metodları ilə müəyyənləşir.

Sosial səmərəni ölçmək vahid göstərici ilə deyil, sosial demoqrafik istifadəçilərin qiymətləndirilməsi, onların seçimi və qabiliyyəti ilə bağlıdır. Ona görə də sosial səmərəni məsrəf və nəticə modeli ilə deyil, ümumi inkişafa səbəb olan inkişafın kompleks tələbatında mütərəqqi sahələrin artım tempi ilə ölçmək daha düzgündür.

50. Sahibkarlığın sosial səmərəlilik istiqamətlərini qruplaşdıraraq ətraflı təhlil edin. (çətin)

Sosial səmərənin qiymətləndirilməsi fikrimizcə aşağıdakı istiqamətlərdə hər bir sahibkar növünə uyğun axtarılmalıdır. Lakin bu səmərə bütövlükdə müxtəlif sahə strukturundan asılı olmayaraq tələbat sistemi və onun ödənilməsi istiqamətində olmalıdır. Tələbat sistemi respublikada mövcud iqtisadi proseslərin keyfiyyəti ilə bağlıdır. Əgər tələbat mütərəqqi və struktur baxımından optimaldırsa, qütbləşmə aşağıdırsa, orta təminat səviyyəsində əhalinin sayı çoxdursa, onda iqtisadi fəaliyyət sosial cəhətdən daha səmərəlidir. Bu istiqamətləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Sahibkarlıq və məşğulluq səviyyəsi artdıqca əhalinin təminat səviyyəsi yüksəlir, onun tələbat normasına yaxınlaşması dinamikası kəmiyyət və keyfiyyətcə təkmilləşir.

2. Sahibkarlıq artdıqca bazarda məhsul təklifi artır, məhsulun qiyməti aşağı düşməklə əhalinin məcmuu tədiyyə qabiliyyəti artır, tədiyyə qabiliyyətinin keyfiyyəti yaxşılaşır.

3. Sahibkarlıq qabiliyyəti dövlət büdcəsinin, sosial müdafiə fondunun

və müəssisə təşkilatların, həmçinin əhali gəlirlərinin mənbəyi olaraq bölgü sisteminin və bölgü mexanizmlərinin adekvatlığı və bölgü sisteminin ədalətli olmasını təmin edir.

4. Sahibkarlıq fəaliyyəti natural və ya mübadilə yolu ilə istehsalçının tələbatını və onunla bağlı muzdlu işçilərin həyat səviyyəsini, yoxsul təbəqələrin güzəranını yaxşılaşdırmaq üçün bölgü və yenidən bölgü mexanizmi olaraq fəal struktur olaraq inkişaf etdirilir.

5. Sahibkarlıq fəaliyyət dövlətin iqtisadi fəaliyyətdə birbaşa qarışmasını məhdudlaşdırır, dövlətin himayəçilik siyasətini, onun monetar və fiskal siyasətinin beynəlxalq səviyyələrə uyğunluğu və tənzimləmə funksiyasını səmərəli təşkil etməyə imkan verir.

Qeyd etdiyimiz bu istiqamətlər konseptual istiqamətdə sahibkarlığın sosial səmərəsini qiymətləndirmək, təhlil və proqnozlaşdırmaq üsullarını hazırlamağa şərait yaradır.

51. Xidmət sektorunun mahiyyəti və sosial funksiyalarını aydınlaşdırın . (asan)

Servis sözü ingilis dilindən tərcümədə mənası müxtəlif ola bilən sözlərdən ibarətdir «qulluq, xidmət, xidmətetmə, xidmətetmək, istismar və s». Bu səbəbdən müasir ədəbiyyatda xidmət anlayışının təhlilində müxtəlif fikirlər söylənmişdir, məsələn: xidmət anlayışının fəaliyyət növü və fəaliyyətin özü kimi tərcümə olunmuşdur. Bəzi müəlliflər servis anlayışını əlavə qulluq kontekstində göstərirlər və əsas xidmətin müəyyən bir hissəsi kimi qəbul edirlər.

Beynəlxalq marketinq üzrə professor Filip Kotler xidmət anlayışına aşağıdakı tərif verir: xidmət – bir tərəfin digər tərəfə təklif etdiyi istənilən fəaliyyət yaxud rifahdır, təsərrüfat xidmətləri, xadimənin xidməti ev işinin

yerinə yetirilməsi hesabına istehlakçının vaxtına qənaət edir. Restoranda yaxud kinoteatrda sərf olunan vaxt psixoloji cəhətdən qüvvələrin bərpa olunmasını təmin edir.

Xidmət sektoru milli iqtisadi sektorunun ayrılmaz hissəsidir, o cəmiyyətdə fəaliyyət göstərən ümumi iqtisadi qanunlara tabedir.

Sosial funksiyalara ilk növbədə əhalinin ehtiyaclarını, müxtəlif növ xidmətlərlə ödənilməsi daxildir.

İkincisi, sosial funksiyalar qrupu mənzil kommunal və məişət xidmətləri təşkilatlarının fəaliyyəti nəticəsində, ev təsərrüfatlarında əmək şəraitinin təkmilləşdirilməsi və xərclərin azalmasını təmin edir.

Sosial funksiyaların üçüncüsü, asudə vaxtlarının səmərəli istifadə edilməsində mədəniyyət və əyləncə xidmətləri nəticəsində həyata keçirilir.

Dördüncü sosial funksiya cəmiyyətə aiddir, bütövlüklə ictimai cəmiyyətin qorunması və dövlətin normal fəaliyyətini təhlükəsizliyini təmin edir.

Belə ki, xidmət sferası – xalq təsərrüfatının sənayesinin sistemini, ərzaq və istehlakçının qiymətləndirilməsidir hansı ki, rahatlığı təmin etməklə ifadə edir.

52. Xidmət sektorunu təsnifatını verin. Xidmət sektorunu n xüsusiyyətlərini açıqlayın.. (asan)

Xidmət sektorunun ölkə iqtisadiyyatındakı rolunu geniş mənada dərk etmək üçün aşağıdakı bölmələrə ayırmaq olar:

1. İqtisadi fəaliyyətin həyata keçməsi ilə bağlı olan xidmətlər (ticarət,ictimai iaşə, məişət xidməti, nəqliyyat, rabitə, maliyyə və kredit, bank işi və s.);

2. İnsan amilinin inkişafı və təkmilləşdirilməsi ilə bağlı olan xidmətlər

(təhsil, səhiyyə, incəsənət, bədən tərbiyəsi, idman, turizm, sosial təminat və s.)

3. Dövlətin inzibati-təsərrüfat fəaliyyəti ilə əlaqədar xidmətlər (dövlətin idarəetmə strukturu, ictimai və kooperativ təşkilatlar);

4. İşgüzar xidmətlər (konsaltinq, idarəetmə, texnoloji, injinirinq, marketinq, dizayn, layihələşdirmə, avadanlıqlarm icarəsi, işgüzar sənədlərin işlənməsi və saxlanması, ticarət müəssisələrinin inventarlaşdırılması və s.)

Xidmətlər istehlak əşyaları olub pullu, güzəştli və pulsuz xidmətlərə bölünürlər. Pulsuz xidmətlər - sosial sferanın sosial-mədəni sahələrinin xidmətləridir (təhsil, səhiyyə, mədəni xidmətlərin bir çox növləri və s.). Pulsuz xidmətlərin inkişafı ictimai istehlak fondları hesabına təmin olunur.

Mənzil-kommunal təsərrüfatı, məişət xidmətləri, nəqliyyat, rabitə, turizm və s. sahələrin xidmətləri pullu xidmətlərə aiddirlər. Pullu xidmətlər sahəsi əhalinin tələbatının ödənilməsinin əsasən fərdiləşdirilmiş formasını ifadə edir. Pullu xidmətlər sahəsinin inkişafı əhalinin pul vasitələrinin, həmçinin müəssisə və təşkilatların vasitələrinin cəlb olunması hesabına təmin edilir.

Əhaliyə göstərilən pullu xidmətlərə mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslər və bütün fiziki şəxslər tərəfindən əhalinin sifarişi ilə onun şəxsi tələbatını ödəmək üçün göstərilən xidmətlər aid edilir. Pullu xidmətlərin həcminə həmçinin fərdi sahibkarlıqla məşğul olan şəxslər tərəfindən əhaliyə göstərilən xidmətlər də daxil edilir. Bu xidmətlərin həcmi seçmə müşahidələrin əsasında və ya vergi statistikasının, ev təsərrüfatlarının büdcə statistikasının göstəriciləri əsasında hesablamalar aparmaqla təyin edilir.

Xidmət sferası maddi istehsal sahəsi ilə müqayisədə bir sıra

özünəməxsus xüsusiyyətlərə malikdir:

- Birincisi, əmtəəlik məhsuldan fərqli olaraq xidmətlər eyni zamanda həm istehsal, həm də istehlak olunur, onların saxlanılmaq zərurəti yoxdur. Bu isə xidmətlərə tələb və təklifin dəqiq tənzimlənməsi problemini yaradır, xidmətlərlə ticarəti əmtəə (mal) ticarətindən köklü surətdə ayırır.

- İkincisi, xidmətlər çox vaxt məhsulda əks qoyulur, halbuki sənayedə xidmətin rolu artır, buraya avadanlığın təmiri, təmirdən sonrakı xidmət və malın satılması ilə bağlı digər növ xidmətlər daxil olur. Məhsul satışı və xidmət göstərilməsinin bir-biri ilə belə sıx qovuşması xidmətin əlahiddə ayrılmasını və deməli uçotunu çətinləşdirir.

- Üçüncüsü, xidmət sferası, adətən, xarici rəqabətdən maddi istehsal sahəsinə nisbətən daha çox müdafiə olunur. Bundan başqa, bir çox ölkələrdə nəqliyyat və rabitə, maliyyə və sığorta xidmətləri, elm, təhsil, səhiyyə və kommunal xidmət sahələri ənənəvi olaraq tam və ya qismən dövlətin inhisarında qalır, başqa sözlə, bu sahələrə dövlət tərəfindən ciddi nəzarət edilir və tənzimlənir.

Dövlətin xidmət sferasının tənzimlənməsində rolu 2 istiqamətdə baş verir:

1. Dövlət öz mülkiyyətində olan və müəyyən əhali qrupları üçün zəruri olan xidmət sferasını tənzimləyir.

2. Bütövlükdə xidmət sahəsində rəqabət, təşəbbüskarlıq sahibkarlıq fəaliyyəti üçün şərait yaradır.

53. Ticarətin formaları haqqında izah verin. Əmtəə təklifi bazarının tənzimlənməsində göstəricilər sistemini səciyyələndirin. (orta)

Ticarət sahələri əhaliyə xidmət sahəsi olub, əhalinin tələbatının ödənilməsi təşkilində vasitə kimi istifadə olunur. Ticarət sahələri iqtisadi və

sosial meyar baxımından tənzimlənir və idarə olunur. Bu sahələrin sosial meyarını əhalinin alıcılıq qabiliyyətinə uyğun əmtəə bazarı təşkil edir. Əmtəə bazarının təşkili forması olaraq dövlət ticarət forması, şəxsi xüsusi ticarət forması, müəssisələrin, sahibkarların və digər sahələrin öz məhsullarını reallaşdırılması forması çıxış edir.

Ticarətin formaları topdansatış ticarət və pərakəndə satış formasında planlaşdırılır və tənzimlənir. Topdansatış ticarət uyğun olaraq müəssisələr arasında istehlakı və istehsalı arasında birbaşa partiyalar və əmtəənin, malın topdansatış qiymətləri vasitəsi ilə reallaşması formasıdır. Bu zaman istifadə olunan qiymətləri həmin əmtəələrin istehsalına və tədarükünə çəkilən xərclər təşkil edir. Əgər əmtəələr başqa ölkələrdən gətirilmiş əmtəələrdirsə, həmin əmtəələrin alınmasına çəkilən xərclər topdansatış qiymətinə əsasən təşkil edilir. Qiymətlər topdansatış qiymətlərini və ticarət obyektlərinin mənfəətini özündə cəmləşdirilir.

Aydındır ki, pərakəndə satış qiymətlərinə təsir edən əsas amilləri həmin əmtəənin təklifi, əhalinin alıcılıq qabiliyyəti və bir sıra marketinq, reklam xərcləri təşkil edir. Ticarətin sosial tərəfi pul gəliri səviyyəsində tələbata uyğun keyfiyyətli cari istehlak mallarının və uzun müddətli istifadə üçün mədəni-məişət mallarının əldə olunması nəzərdə tutulur. Ona görə də bazar iqtisadiyyatı şəraitində keyfiyyətli malların, əmtəələrin istehsalı alıcıların bazar seqmentlərinə uyğun qruplaşmasına gətirib çıxarır. Əmtəə bazarı müasir şəraitdə planlı təsərrüfatdan fərqli olaraq yeni prinsiplər bazar tələbatına uyğun mexanizmlər vasitəsilə idarə olunur. Əmtəə təklifi bazarının tən zimlənməsi aşağıdakı göstəricilər sistemi ilə müəyyən olunur:

1. Hər min nəfərə düşən ticarət obyektlərinin, mağazaların, çadırların, məntəqələrin ümumi sayı və onların ərazi və sahə strukturu.

2. Bütün ticarət obyektlərində satış üçün toplanmış əmtəələrin miqdarı.
3. Ticarət obyektlərində sahə kimi fəaliyyət göstərən ümumi işçilərin sayı və onların peşə, təhsil, funksional vəzifələrinə görə ixtisaslaşma strukturları.
4. Müasir şəraitdə ticarət obyektlərinin ayrı-ayrı mül kiyyət formaları arasında o cümlədən dövlət kooperativ, şəxsi xarici ölkələrin ticarət obyektləri və s. formalarda strukturası.
5. Ticarət obyektlərinin maddi-texniki bazası, ticarət obyektində hər işləyənə düşən vəsait, fondlarla silahlanma səviyyəsi.
6. Ticarət işinin ixtisaslaşma səviyyəsi, xüsusi ticarət formaları, kompyuterləşdirmə və avtomatik idarəetmə sistemləri.

Beləliklə ticarətin tənzimlənməsi həm sosial baxımından, həm də sahə baxımından uzlaşmış sosial iqtisadi fəaliyyət kimi idarə olunur.

54. Əhalinin mənzil təminatı və mənzilin istismarı planlarının tərtibində istifadə olunan kompleks göstəricilər sistemini təhlil edin. (orta)

Mənzil-kommunal təsərrüfatı əhalinin mənzilə olan tələbatını və mənzil şəraitinin yaxşılaşması üçün xidmət sahəsi olub, sosial infrastrukturanın tərkib elementidir. Bu sahənin fəaliyyəti iqtisadiyyatın və sosial inkişafın başqa sahələrlə əlaqəsini təmin edir. Onun fəaliyyətinin əsas meyarını sosial tələbat olan mənzilə ehtiyaclar təşkil edir. Mənzil-kommunal sahəsi öz fəaliyyətini həmçinin iqtisadi meyar üzərində qurur, belə ki, bu sahənin məhdud resursları, maliyyə, əmək, mənzil fondu mövcuddur. Insanların inkişafı üçün normal həyat şəraiti hər nəfərə və ailəyə düşən mənzil normaları planlaşdırılır. Bu normalar hər bir ölkədə inkişaf mərhələsindən asılı olaraq müxtəlifdir. Əhalinin mənzillə təminatı və mənzilin istismarı planları şəhərsalma və bələdiyyə planlarının tərkib

hissəsidir. Bu planların tərtibində kompleks göstəricilər sistemi tətbiq olunur və bunlar aşağıdakılardır:

1) Əhalinin sərəncamında olan mülkiyyətindən asılı olmayaraq bütün mənzil fondunun ümumi sahəsi kvadrat metrlə, nisbi olaraq hər nəfərə düşən mənzil sahəsi kvadrat metrlə;

2) Mənzil və kommunal xidmət sahələrinin, şəhər və kənd yerlərində yerləşdirilməsinin göstəriciləri. Ayrı-ayrı rayonlar, qəsəbələr və kəndlər üzrə;

3) Mənzil və kommunal sahələrin təsərrüfat sahəsi kimi fəaliyyətini əks etdirən iqtisadi və sosial göstəricilər. Konkret olaraq bu təsərrüfatlarda işləyənlərin ümumi sayı, kapital qoyuluşu, kadr potensialı və əmək haqqı sistemi.

Mənzil fondunun pulsuz olaraq əhaliyə bölgüsündə sosial normativlər əsas götürülür. Mənzil fondunun bölgüsü minimum yaşayış üçün lazım olan mənzil sahəsini və dövlətin, xalqın mənzil fondu imkanlarını nəzərə almaqla planlaşdırılır. Əgər adambaşına düşən mənzil fondunun minimum səviyyəsi bütövlükdə əhalinin mənzillə təminatı üçün uçotun əsasını təşkil edirsə, mənzil fondunun artım sürəti əhalinin mənzillə təminatının dinamikasını təşkil edir.

55. Mənzil fonduna tələbatın hesablanmasını misal nümunəsi üzərindən izah edin. (çətin)

Mənzil fondunun pulsuz olaraq əhaliyə bölgüsündə sosial normativlər əsas götürülür. Mənzil fondunun bölgüsü minimum yaşayış üçün lazım olan mənzil sahəsini və dövlətin, xalqın mənzil fondu imkanlarını nəzərə almaqla planlaşdırılır. Əgər adambaşına düşən mənzil fondunun minimum səviyyəsi bütövlükdə əhalinin mənzillə təminatı üçün uçotun əsasını təşkil edirsə, mənzil fondunun artım sürəti əhalinin mənzillə təminatının dinamikasını təşkil edir.

Mənzil fonduna tələbat əhalinin sayına görə aşağıdakı düsturla

hesablanır:

$M_t = (Ə_s \times S_n) - M_f + M_s$

M_t – mənzil fonduna tələbat,

M_f – mövcud mənzil fondu,

$Ə_s$ - əhalinin sayı,

M_s - silinəsi mənzil fondu,

S_n - sanitar norması.

Mənzil xidməti əhalidə olan yaşayış sahələrini və dövlət sərəncamında olan xüsusi mənzilləri əhatə edir.

Kommunal xidməti sahələri isə aşağıdakıları əhatə edir:

- Şəhər su kəmərləri və su axarları.
- Şəhər nəqliyyatı
- Enerji təsərrüfatı
- Sair sahələr (yaşıllaşdırma, sanitar-gigiyena)

56. Təhsilin əsas məqsədini aydınlaşdırın. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərini sadalayın. (asan)

Təhsil insanın, cəmiyyətin və dövlətin inkişafına xidmət edən, strateji əhəmiyyətli üstün fəaliyyət sahəsi olmaqla, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən, təlim və tərbiyə prosesi və onun nəticəsidir.

Təhsil sisteminin əsas vəzifəsiiqtisadiyyatın ayrı-ayrı sahələri üçün ixtisaslı kadr hazırlamaq və mənəvi, sosial cəhətdən inkişaf etmiş intelektual səviyyəli insanların formalaşmasına şərait yaratmaqdır. Mahiyyət etibarı ilə təhsil həm iqtisadi, həm də sosial əhəmiyyət kəsb edir. Təhsilin sosial, mənəvi aspektləri əhalinin sosial inkişafının, mənəvi dəyərinin artmasına təsir etməkdir.

“Təhsil haqqında” Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanununa əsasən Azərbaycan Respublikasındatəhsil sahəsindədövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və

təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;

demokratiklik – təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

bərabərlik – bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

millilik və dünyəvilik – milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

keyfiyyətlilik – təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

səmərəlilik – təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

fasiləsizlik, vəhdətlik, daimilik – mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

varislik – təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

liberallaşma – təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

inteqrasiya – milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Təhsilin əsas məqsədi aşağıdakılardır:

Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və parktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaq;

57. Beynəlxalq funksional təsnifata əsasən tətbiq olunan təhsil modellərini fərqləndirin. Azərbaycan Respublikasında hansı təhsil formaları tətbiq olunur? (asan)

Beynəlxalq funksional təsnifata əsasən təhsilin 3 modeli fərqləndirilir:

1. İngilis modeliüçün səciyyəvi olan liberal təhsil konsepsiyasında geniş intellektual qabiliyyətlərə və xüsusi şəxsi keyfiyyətlərə malik olan məzunların yetişdirilməsi onların peşəkar hazırlığı qədər vacib hesab olunur.

2. Fransız modelielmi və peşəkar fəaliyyətlərin bir-birindən fərqləndirilməsi, eləcə də elmi fəaliyyətin ali təhsil müəssisəsi və ya universitet “daxilində” və “xaricində” fəaliyyətlərə bölgüsü ilə seçilir.

3. Alman modelindəəsas diqqət elmi tədqiqatlara verilir. Müəllim heyətinin tədqiqat işlərinin nəticələri tədris proqramının tərkibinə daxil

edilərək dərs materialına çevrilir. Müəllim və tələbələr tərəfdaş-tədqiqatçı kimi çalışır və əməkdaşlıq edirlər. Təhsil sistemlərində təhsilin iki növü seçilir: bunlardan birincisi akademik, yəni elmi-nəzəri təhsil, ikincisi isə peşəkar və ya praktik bacarıqlara yönümlü təhsildir. Akademik proqramlarda konkret istiqamətlər üzrə peşəkar bacarıqların ötürülməsi ilə yanaşı əsas diqqət fundamental nəzəri hazırlığa verilir. Tətbiqi proqramlar konkret sahələrə dair daha çox peşəkar bilik və bacarıqların inkişaf etdirilməsinə yönəlir.

Azərbaycan Prezidenti dayanıqlı təhsil sistemi və standartlara uyğunluq yaratmaq məqsədilə imzaladığı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda 5 istiqamət müəyyənləşdirilib.

1. Şəxsiyyətyönlü təhsil məzmununun yaradılması;
2. İnsan resurslarının müasirləşdirilməsi;
3. Təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;
4. Müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması (Milli Kvalifikasiya Çərçivəsinin yaradılmsı və tətbiqi);
5. İqtisadi cəhətdən dayanıqlı və özünümaliyyələşdirən təhsil müəssisəsi modelinin qurulması aiddir.

58. Azərbaycanda dövlət və bələdiyyə təhsil müəssisələrinin maliyyələşmə mənbələrini açıqlayın. Hazırda hansı mənbələrdən daha çox istifadə olunduğunu şərh edin.. (orta)

Dövlət təhsilin inkişafına dövlət büdcəsindən və digər mənbələrdən vəsaitlər ayırır. Təhsil müəssisəsi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki

şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Dövlət ali və orta ixtisas təhsili müəssisələrinin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər. Dövlət təhsil müəssisəsinin maliyyələşdirilməsi təhsilin hər pilləsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər təhsil müəssisəsinin tipinə, növünə və kateqoriyasına uyğun olaraq hər bir təhsilalana düşən məsrəf məbləğinəzərə alınmaqla müəyyən edilir. Dövlət təhsil müəssisəsi nizamnaməsinə uyğun olaraq, ödənişli təhsildən əldə olunan və diğər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir. Dövlət təhsil müəssisəsinin inkişafına, təhsilalanların təhsil haqlarının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, elmi tədqiqat işlərinin aparılması, doktorantura proqramlarının maliyyələşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi tədqiqat qrantları təhsil müəssisəsinin digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

Dövlət təhsil sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər verilir. Təhsil sisteminə xarici investisiya qoyuluşu qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Dövlət və bələdiyyə təhsil müəssisələri aşağıdakı mənbələrdən

maliyyələşdirilir:

-qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;

-ödənişli təhsildən daxil olan vəsaitlər;

-hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;

-müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;

-təhsil müəssisəsinin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;

-hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma vəkadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;

-dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

-təhsil müəssisəsinin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmişavadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;

-təhsil müəssisəsinin beynəxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;

-qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

59. Dövlət, elmi-texniki sahədə öz məqsədlərini hansı üsullarla həyata keçirə bilər? Dövlətin elmi-texniki siyasətində büdcə prioritetlərinin çoxpilləli seçim prosesində nəzərə alınmalı amilləri əsaslandırın. (orta)

İstənilən dövlətin elmi-texniki potensialı - ən mühüm milli resurs,

sənaye inkişafının, ictimai və elmi həyatın yeniləşməsinin əsasıdır. Elmi-texniki və təcrübə-konstruktor işlərinin (ETTKİ) səmərəli təşkili və elmi biliklərin istifadəsi, yüksək texnologiyalar bazarında dövlətlərin müvəffəqiyyətlərini, bu ölkələrin iqtisadi artımını təmin edir. Əhalinin rifah halı bilavasitə elmin nailiyyətləri və onların yaratdıqları texnologiyaların sayəsində yüksəlir.Hər hansı bir ölkənin iqtisadiyyatının səmərəli və güclü inkişafını müvafıq elmi-texniki bazasız təsəvvür etmək ağlasığmazdır.

İntellektual potensialı artırmadan, olduqca kəskin sosial problemlərin həlli də mümkün deyildir.

Bazar iqtisadiyyatı şəraitində, dövlət, elmi-texniki sahədə öz məqsədlərini üç üsulla həyata keçirə bilər:

* dövlətin məqsədlərinə daha müvafıq olan tədqiqatları, işləmə və istiqamətləri büdcə hesabına maliyyələşdirmək;
* qanun və normativ aktlarını qəbul etsin, dövlət mülkiyyətində olan strukturları birbaşa idarə etsin, özəl kompaniyalar və qeyri-dövlət, qeyri-kommersiya müəssisələri üçün güzəştlər və stimullar tətbiq etmək;

- alimlər və yeni işləmələr, ixtiralar barədə ictimai rəyi formalaşdırmaq.

Çoxsaylı müəlliflər(Solou, Samuelson, Qrilixes, Mansfıld, Nelson, Ərrou) elmi tədqiqatların maliyyələşdirilməsində vəsaitlərin yerləşdirilməsinin və istifadəsinin təhlilində üç əsas prinsipə istinad edirlər.

Birincisi, elmi tədqiqatların iqtisadi dəyərini qabaqcadan söyləmək çətindirsə, bu barədə retrospektiv mühakimə yürütmək daha da çətindir. Elmi kəşflərin verdiyi iqtisadi rifah tez bir zamanda həyata keçirilə bilər, lakin, əksər hallarda, bu kəşflər uzun müddət istifadəsiz və iqtisadi cəhətdən reallaşmamış qalırlar.Elmi tədqiqatlar idrakın sərhədlərindən çıxmaq həddinə yaxinlaşdıqca, onların iqtisadi nəticələri də bir o qədər

qeyri-müəyyən olurlar.

İkincisi, tədqiqatların hətta kommersiya cəhətdən gəlirli nəticələrinin həyata keçirilməsi, ancaq elmi kəşfın müəllif hüquqlarının nə dərəcədə təmin olunmasından asılıdır. Patent və müəllif hüquqları vasitəsilə həll edilən bu problem, ixtiraçı və yenilikçilərin gəlir əldə etməsi üçün ancaq məhdud imkanlar yaradır. Belə ki, korporasiyalarda çalışan ixtiraçı yaxud tədqiqatçı öz intellektual mülkiyyət hüquqlarını tam, yaxud qismən çalışdığı fırmaya verir. Nəticələri adətən patentləşdirilmədən, açıq şəkildə nəşr olunan əsaslı tədqiqatlarda, əksər hallarda, hər hansı bir tədqiqatçının həmkarları arasında birinciliyini müəyyən etmək çox çətin olur, xüsusən ona görə ki, bir sahədə tədqiqatları, adətən, bir neçə alimlər qrupu aparır.

Üçüncü prinsipial əsas müddəası isə belədir: elm üçün ayrılan resursların adekvat olmasını bazar təmin edə bilməz, yəni, xüsusi stimulların olmadığı bir şəraitdə, elmi xərclərin optimal, yaxud sosial nöqteyi-nəzərdən məqbul olan səviyyəsinə bazar, prinsip etibarı ilə zəmanət verə bilməz. Məhz bu dəlil, elmi tədqiqatlar sferasının dövlət tənzimlənməsinin iqtisadi cəhətdən əsaslandırılmasında mərkəzi yer tutur.

Büdcə prioritetlərinin çoxpilləli seçilmə prosesi, dörd amilin eyni zamanda nəzərə alınması güman edilir:

1) milli məqsədlər (milli təhlükəsizliyin, iqtisadiyyatın rəqabətə davamlılığının təmin edilməsi, təhsilin, səhiyyənin inkişafı);
2) müəyyən dövrlərdə ən kəskin problemlərin həlli zərurəti , misal üçün, enerjiyə qənaət (keçən əsrin 70-ci illəri), ətraf mühitin mühafızəsi (80-cı illər), QİÇS-lə mübarizə (90-cı illər), Pandemiya (2020-ci ildən);
3) müasir elmi nailiyyətlərin həyata keçirilməsi , misal üçün, molekulyar biologiya, yaxud gen mühəndisliyinin, nisbətən uzaq

gələcəkdə isə - föqəlkeçiricilik effekti nəticələrinin tətbiqi;

4) milli elmi məktəblərin real imkanları.

60. Tədris və elmi tədqiqatların maliyyələşdirilməsi sahəsində Almaniya təcrübəsini şərh edin və Azərbaycanda tətbiqi imkanlarını dəyərləndirin. (çətin)

Ali məktəblərdə kommersiya fəaliyyətinin təşkili və büdcədənkənar vəsaitlərin cəlb edilməsi üzrə Almaniyanın təcrübəsi sübut edir ki, bu ölkədə təhsilin maliyyələşdirilməsinin çox saylı mənbələri mövcuddur.

Alman alı məktəbləri tərəfindən tədris və elmi tədqiqatların maliyyələşdirilməsi üçün fırmalardan, onların assosiasiyalarından və elmə kömək fondlarından alınan büdcədənkənar vəsaitlər, "üçüncü vəsaitlər" adını almışdır. Alman ali məktəbləri tərəfindən cəlb edilmiş "üçüncü vəsaitlərin" çox hissəsi, müqavilə əsasında aparılan tədqiqatların payına düşür. Ali məktəbdə işləyən alim və ya alimlər qrupu ilə fırma arasında, ikincinin maraqları dairəsində müəyyən tədqiqatların aparılmasına dair müqavilələr bağlanır. Bu müqavilədə, digər maddələrlə yanaşı, tədqiqatın predmeti, müqavilənin yerinə yetirilməsi müddəti, əməyin ödənilməsi forması və ölçüsü göstərilir.

Ali məktəblərdə büdcədənkənar vəsaitlərin cəlb edilməsinin digər bir forması, onların tərkibində, başlıca olaraq, şəxsi vəsaitlər hesabına maliyyələşdirilən institutların və ya tədqiqat mərkəzlərinin yaradılması ilə əlaqədardır. Belə institut və mərkəzlər, təsərrüfat assosiasiyaları, cəmiy - yətləri və elmə kömək fondları tərəfindən yaradılan və maliyyələşdiril ən, ali məktəblərin himayəçiliyi altına alınmış müstəqil struktur vahidlərdir.

Ali məktəblər tərəfindən büdcədənkənar vəsaitlərin cəlb edilməsinin digər forması - müəssisələr, onların birlikləri və elmə yardım fondları tərəfindən ali məktəbdə işləyən alimlərin stavkasının maliyyələşdirilməsidir.

Ümumiləşdirərək demək olar ki, müxtəlif milli təhsil sistemləri tarixən formalaşır, buna görə də təhsilin maliyyələşdirilməsi probleminin yeganə və optimal "elmi" həlli mövcud deyil.

Bir çox ölkələrdə ali təhsilin ictimai və özəl sektorların maliyyələşdirilməsi, aşağıdakı gəlir mənbələrinin kombinasiyası ilə təmin edilir: dövlət subsidiyaları, şəxsi ianələr, biznes və qismən də tələbələr.

61. Səhiyyənin mahiyyəti və vəzifələrini açıqlayın . (asan)

Səhiyyə - əhalinin sağlamlığının qorunmasına, onun müalicəsinin həyata keçirilməsinə, əllilliyin, uşaq ölümünün qarşısının alınmasına və s. yönəldilən, cəmiyyət və dövlət tərəfindən reallaşdırılan tibbi və sosial-iqtisadi tədbirlər kompleksidir ki, bu da səhiyyənin aşağıdakı vəzifələrini şərtləndirir:

- Müalicə-profılaktika işlərinin həyata keçirilməsi;
- Narkomaniya və alkoqolizmə qarşı mübarizə;
- Ana və uşaqların mühafızəsi;
- Sanitar tədbirlərin reallaşdırılması;
- Epidemiyalar və onları yaradan ünsürlərlə mübarizə və s.

Hələ SSRİ dövründən səhiyyə müəssisələri vahid nomenkulaturaya uyğun olaraq dörd qrupa təsnifləşdirilir ki, bunların da hamısının eyni məqsədə xidmət etməsinə baxmayaraq, hər birinin bir sıra özünəməxsus vəzifə və funksiyaları var: Birincisi, müalicə-profılaktika müəssisələri (poliklinikalar, xəstəxanalar, dispanserlər, hospitallar və s.) əhalinin sağlamlığının qorunması və müalicəsinin həyata keçirilməsində, ikincisi, sanitar-epidemioloji və sanitar maarifi müəssisələri, əhalinin sanitar-gigiyena məsələlərinə dair maarifləndirilməsində, hüquqi və fıziki şəxslərin sanitariya qaydalarına riayət etməsinə nəzarətin reallaşmasında, üçüncüsü, tibbi məhkəmə ekspertizalarıdır ki, tibbi məhkəmə ekspertizaları hüquq-mühafizə orqanları ilə əlaqədar vəzifələrin yerinə yetirilməsində, dördüncü, apteklər isə əhalinin dərman preparatları ilə təminatında əsas rol oynayırlar.

Səhiyyə sistemi həm bütövlükdə, həm də ayrı-ayrı müəssisələr səviyyəsində adı çəkilən tibbi məsələlərlə yanaşı, bir sıra sosial-iqtisadi problemlərin həllində də əvəzsiz əhəmiyyətə malikdir. O, əmək qabiliyyəti səviyyəsinə bilavasitə təsir etməklə, əmək ehtiyatlarından səmərəli istifadə

olunmasına, əmək məhsuldarlığının yüksəldilməsinə, həmçinin istehsalın dinamik inkişafına və onun səmərəliliyinin artırılmasına şərait yaradır.

62. Səhiyyə xidmətlərinin özünəməxsus xüsusiyyətlərini açıqlayın. (asan)

Bazar iqtisadiyyatı şəraitində səhiyyə xidmətlərinin bir sıra özünəməxsus xüsusiyyətləri də vardır ki, onlar sosial bölmənin bu sahəsinə bazar qanunlarının müdaxiləsini bir qədər məhdudlaşdırır:

-Tibbi xidmətlərin göstərilməsi başqa sosial sahələrdən fərqli olaraq istehsalçinin istehlakçıya yüksək fərdilik və standartdankənar yanaşması ilə səciyyələnir;

-Səhiyyədə başqa xidmət sahələri ilə müqayisədə tibbi xidmətlərin istehlakçı xassələri barədə istehsalçı və istehlakçı arasında məlumat assimetriyası daha güclü nəzərə çarpır;

-Tibbi xidmətlərə olan tələb insan həyatı ilə bağlı ən vacib tələbdir. Tibbi xidmətlərə tələbin formalaşmasının əsas xüsusiyyəti onun elastikliliyinin Çox aşağı olmasından ibarətdir. Səhiyyə xidmətlərinin təklifi isə başqa xidmətlərdən onunla fərqlənir ki, tibbi xidmətlərin göstərilməsi mənəvi - əxlaqi normaların gözlənilməsini tələb edir;

- Tibbi personalın əmək məsrəfləri ilə görülən işin son nəticələri arasındakı əlaqə olduqca qeyri - müəyyən və anlaşılmazdır;

Səhiyyədə xüsusi təsərrüfatçılıq mexanizminin qurulması iki əsas şərtin dixatomiyası ilə diktə olunur:

1. İqtisadi səmərə;
2. Sosial ədalət.

Səhiyyədə sosial ədalət prinsipi ilk növbədə tibbi xidmətlərdən hamının istifadə etməsinin mümkünlüyünü nəzərdə tutur. Bunun əsasında yaradılan səhiyyə modeli ya əhaliyə tibbi xidmətlərin pulsuz göstərilməsinə ya da

sosial həmrəylik prinsipinə əsaslana bilər. Dünya təcrübəsinə əsasən bu dixatomiyanın şərtlərindən hansınasa üstünlük verilməsindən asılı olmayaraq, başqa şərti tamamilə aradan qaldırmaq olmaz. Əks halda bu, sahənin maliyyələşmə mexanizminin tamamilə məhvinə səbəb ola bilər. Səhiyyə sisteminin maliyyələşdirilməsi, idarə edilməsi yalnız dövlət tənzimlənməsi metodlarının və bazar qanunlarının qarşılıqlı təsiri əsasında həyata keçirilə bilər.

63. Tibbi sığortanın təşkilinin əsas prinsiplərini açıqlayın. Sağlamlıq indikatorlarını təhlil edin. (orta)

Respublikada aparılan islahatlar kompleksində tibbi sığortanın inkişafı əsas yer tutur. Tibbi sığortaya keçid, səhiyyədə bazar münasibətlərinin xüsusiyyəti və pullu xidmətlər sektorunun inkişafı ilə şərtləndirilir. Tibbi sığorta hər bir insana, sağlamlığın mühafizəsi üçün zəruri məsrəfləri, onun öz sağlamlığının vəziyyəti ilə birbaşa tutuşdurmağa imkan verir.

Tibbi sığortaya keçid pasiyentlərin və səhiyyə işçilərinin sosial müdafiəsinin olmaması, həmçinin, sahənin qeyri-qənaətbəxş maliyyə təminatı və texniki təchizatı ilə şərtləndirilən obyektiv bir zərurətdir. Tibbi sığortanın təşkilinin əsas prinsipləri aşağıdakılardır:

- tibbi sığortanın məcburi və könüllü xarakterinin, onun kollektiv və fərdi formalarının uzlaşdırılması;
- vətəndaşların məcburi və könüllü tibbi sığorta proqramlarında ümumi iştirakı;
- büdcə və büdcədənkənar tibbi sığorta fondları arasında vəzifə və səlahiyyətlərin bölüşdürülməsi;
- sığortalananların bərabər hüquqlarının təmin olunması;
- məcburi tibbi sığorta çərçivəsində tibbi-diaqnostik xidmətlərin pulsuz göstərilməsi.

Sağlamlıq indikatoru, son nəticədə, sosial-siyasi komfortluq və demokratiklik dərəcəsini, müəyyən mənada cəmiyyətin liberallaşması səviyyəsini əks etdirir. Sağlamlıq indikatoruna əmək şəraiti, məişət və ətraf mühit, texnologiya və maddi-texniki bazanın inkişaf səviyyəsi təsir göstərir. Bu indikatorların tərkib hissələrində bütün sosial institutların, ilk növbədə də səhiyyə xidmətlərinin fəaliyyəti təcəssüm edilir.

Müxtəlif ölkələrdə aparılan tədqiqatların nəticələri müxtəlif amillərin sağlamlığa təsirini orta qiymət şəklində təsvir etməyə imkan verir: Həyat şəraiti və tərzi - 48-50 %, Ətraf mühit - 20-22 %, İnsanın biologiyası (genetikası) - 18-20% , Səhiyyə - 8-14 % .

Sağlamlığın səviyyəsi şəxsiyyətin statusundan da asılıdır.

Məsələn, Fransa- 45-49 yaşlı kişilər arasında sosial siniflərdən asılı olaraq, ölüm səviyyələrindəki fərqlər olduqca kəskindir: ixtisası olmayan işçilər arasında ölüm səviyyəsi yüksək rütbəli qulluqçularda olduğundan 4 dəfə, bu yaşda olan bütün kişilər üçün olduğundan 1,6 dəfə çoxdur.

Norveçdə, 22-26 yaşlı ixtisası olmayan kişilər arasında xroniki xəstəliklərin yayılması, həmin yaşdakı mütəxəssislərdə olduğundan 17 % artıqdır. O. cümlədən işsizlik səviyyəsinin 1 % artımı, 4.1 % intiharların artmasına gətirib çıxarır.

64. Sağlamlığın risk amillərini qruplaşdırın və geniş izahını verin. (orta)

Sağlamlığın risk amillərini, onların təsir səviyyəsindən asılı olaraq üç qrupa ayırmaq olar: ictimai sosial-iqtisadi şərait səviyyəsi; əhalinin ayrı-ayrı qruplarının səviyyəsi; fərdi (davranış) səviyyəsi. Bunlar müəyyən dərəcədə qarşılıqlı əlaqədədirlər. Əhaliyə tibbi yardım göstərilməsinin çatışmamazlıqları ilə şərtləndirilmiş risk amilləri isə xüsusi yer tutur. Risk amillərinin birinci qrupuna aşağıdakılar aiddir: Sosial-iqtisadi böhran; cinayətlərin artımı; "istehlak səbəti" dəyərinin artımı; insanlar arasında

bərabərsizliyin çoxalması; meyar və qiymətlərin alt-üst olması:

a) "pul hər şeydir";

b) maliyyə vəsaitlərinin və ehtiyatların xaricə axını;

a) sosial siyasət, bütün meyarlar və fəaliyyət sferaları arasında axırıncı yerlərdədir;

b) ictimai meyar kimi, təhsil və mədəniyyətin bütün parametrlər üzrə (cəmiyyətdə yeri, iqtisadi rifah və s.) heçə endirilməsi, bu da hər şeydən əvvəl yeniyetmələr və gənclər üzərində əhəmiyyətli dərəcədə əksini tapır;

a) mühacirətin, gizli və aşkar işsizliyin artımı;

b) Ermənistan tərəfindən təcavüz;

c) inkişaf etməmiş qanunvericilik.

2. Cəmiyyətin təbəqələşməsi; pisləşən ekoloji vəziyyət; pisləşən əmək şəraiti.

3. fərdi (davranış) səviyyəsi:

a) siqaret çəkmənin və əyyaşlığın artımı;

a) qidalanma problemi;

b) narkomaniyanın artımı;

d) diskomfort (narahatlıq) və gələcək üçün arxayınsızlığın hiss edilməsi, xüsusilə gənclər arasında;

c) kifayət qədər fiziki fəallığın olmaması;

f) bioloji və genetik risk amillərinin artımı.

65. Səhiyyə modellərini xarici ölkələr nümunəsində müqayisəli şəkildə təhlil edin. (çətin)

Müəyyən ölkələr səhiyyə sistemində islahatların aparılmasinda uğurlar qazanmışlar. Belə ki, dünyada yalnız üç səhiyyə modeli yaranmışdır:

- dövlət səhiyyəsi (Beveridge modeli) - Böyük Britaniya, Danimarka,

İrlandiya, Kanada və s.

- sığortalı səhiyyə (Bismark modeli) - Almaniya, Belçika, Hollandiya, Yaponiya və s.

- bu şkalada, onun iki kənarları arasında aralıq mövqe modeli. Aralıq mövqe, dövlət büdcəsi vəsaitləri, tibbi sığorta və pasiyentin bilavasitə ödədiyi tibbi xidmətlər arasındakı müxtəlif nisbətlərlə müəyyənləşir.

Ümumdünya Səhiyyə Təşkilatı, indiki şəraitdə aşağıdakı nisbəti tövsiyyə edir: 60 % -dövlət büdcəsi, 30 % - tibbi sığorta və 10 % - pullu xidmətlər.

Bir qayda olaraq, dövlət büdcəsinin mənbəyini vergilər təşkil edir. Hansı ölkələrdə ki, dövlət səhiyyə sistemi üstünlük təşkil edir, orada tibbi xidmətlər məhz bu mənbə hesabına maliyyələşdirilir. Məsələn, İspaniyada hökumət vergiləri yığır, sonra, ildə bir sakinin payına düşən hesabla, vəsaitlər əyalətlərə verilir, orada isə onlar, əyalətlərin istəyinə uyğun müxtəlif proqramlara sərf edilir. Bu məsələdə əyalətlər geniş sərbəstliyə malikdirlər. İspaniyada özəl sektor demək olar ki, yoxdur, bununla belə, dövlət müəssisələri bəzən əhaliyə əlavə pullu xidmətlər göstərə bilərlər.

İsveçdə, Portuqaliyada və Böyük Britaniyada səhiyyə analoji formada vergilərdən maliyyələşdirilir.

Böyük Britaniyada dövlət maliyyələşdirmə məhbələri 84 % təşkil edir, təxminən 4 % vətəndaşların şəxsi vəsaitlərindən ödəmələrin payına düşür, əsasən, reseptlərin yazılması və dişlərin müalicəsi üçün, yerdə qalan hissəsi xüsusi sığörtanın payına düşür. Bu üsuldan, əlavə xidmətlər şəklində ya da alternativ dövlət sistemi formasında, əhalinin 15 %-i istifadə edir.

Malaziyada, Çilidə, İranda xərclərin əsas hissəsi pasiyentlərin üzərinə düşür. Bu ölkələrdə xəstəxana çarpayılarının xeyli hissəsi özəl sektorun payına düşür. Inkişaf etmiş ölkələrdə hökumət öz üzərində aşağıdakı

vəzifələri saxlayır: xidmətlərin ödənilməsinə və özəl idarələrinin yerləşdirilməsinə, tibbi prosedurlar və əməliyyatlara nəzarət, təftiş və lisenziyalaşdırma, yardımın əlverişliliyinə, dərmanların, kadrhazırlığı proqramlarının keyfiyyətinə nəzarət.

Səhiyyənin islahatına müxtəlif yanaşmalar mövcuddur. İslahatların maliyyələşdirilməsinə xüsusi diqqət yetirilən birinci model, Böyük Britaniyada həyata keçirilir və səhiyyənin maliyyələşdirilməsi sisteminin dəyişmədiyi şəraitdə, səhiyyə xidmətlərinin bölüşdürülməsi sistemində (tibbi xidmətin alıcıları və təchizatçıları arasında vəzifə bölgüsünü) nəzərdə tutur.

İkinci model, Almaniya, Hollandiya, ABŞ, Skandinaviya ölkələri üçün səciyyəvidir. Bu modelin mahiyyəti ondan ibarətdir ki, xərclərin qarşısının alınması maneə deyil, tibbi xidmətin hamı tərəfindən əldə edilə bilməsi üçün ilkin şərtdir, ona görə ki, xərclərin sürətli artımı iqtisadiyyat üçün məhvedicidir. Bu model üzrə islahatlar, yardımın keyfiyyətinin və əhalinin sağlamlığının yüksək səviyyəsinin saxlanılmasını nəzərdə tutur.

Üçüncü model, Mərkəzi və Şərqi Avropa ölkələri üçün səciyyəvidir. Səhiyyə xidmətlərinin maliyyələşdirilməsini, paylaşdırılmasını və təqdim olunması sisteminin eyni zamanda dəyişdirilməsini əhatə edir və bir qayda olaraq, əhalinin sağlamlığının yaxşılaşdırılmasına yönəldilmişdir, çünki onun səviyyəsi, bütün göstəricilər üzrə digər ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə aşağıdır.

66. Kulturologiya anlayışının mahiyyətini izah edin. (asan)

1.Kulturologiya anlayışının mahiyyəti. Kulturologiya — ümumbəşəri və milli mədəni proseslərin obyektiv qanunauyğunluqlarını, insanların maddi və mənəvi həyatının mühüm hadisələrini özündə ehtiva edən elmdir. Bu elm insanların maddi maraq və tələbatlarının yaranıb formalaşdığı ilkin

şərtləri və amilləri öyrənir, mədəni dəyərlərin artırılması və gələcək nəsillərə ötürülməsini həyata keçirir.

Yer üzündə yaşayan insanlar zaman-zaman müxtəlif ictimai – iqtisadi formasiyalarda öz həyat, məişət və davranış tərzləri ilə bağlı olaraq zəngin bir tarixi – kulturoloji irs qoyub getmişlər. Tarixi keçmişimizi əks etdirən məhz bu maddi mənbələr və yazlı qaynaqlar vahid bir külliyat halında cəmləşərək mədəni sərvət toplusu kimi tariximizi kulturoloji baxımdan öyrənməyə və dərk etməyə əsas verir. Bu baxımdan bizə miras qalan kitabələr, yazılı qaynaqlar, qayalar, daşlar, sümük və gil lövhələr və s. məhz bu gün tarixi – kulturoloji mənbələr kimi xüsusi əhəmiyyətə malikdir.

Kulturologiya insanın ictimai şüuru və yaradıcılığı əsasında formalaşan bir anlam olsa da o, həm də hər bir yaradıcı fərdin meydana gətirdiyi yenilikləri, oxşar yaradıcılıqların daima təkrarlanan mənəvi mühitidir. Bu mühit həm yaradıcılığa, həm də milli mentalitetin inkişafına təsir edən müxtəlif amillərlə zəngindir. Məhz bu zənginliklər isə bu gün cəmiyyətdə mübahisə doğuran "mədəniyyətşünaslıq" və ya "kulturologiya" kimi anlamların yaranmasına, onların ictimai şüurda möhkəm yer tutmasına zəmin yaradır.

Kulturologiya (lat. cultura — becərmə, tərbiyə etmə, ehtiram etmə; qəd. yun. λόγος (logos) – məna, səbəb) – insanın və bəşəriyyətin yaradıcı həyatı və fəaliyyəti haqqında elmdir.O, insanın həyat fəaliyyətinin mahiyyət, xüsusiyyət, tarixi nailiyyəti, inkişaf qanunları, texnologiyaları və dəyişdirici imkanlarını aşkarlayır. O, idrakın elə bir çoxpilləli piramidasıdır ki, onun pillələrini qalxarkən, insan tədricən xüsusi elmi biliklərə yiyələndikcə, bu gününü pozitiv idarə etmək, dəyişmək, daha yaxşı gələcək qurmaq qabiliyyətlərini dəfələrlə artırıb müdrikliyə yaxınlaşır.

Kulturologiyanın yeri və predmeti haqqında hətta XXI əsrin

əvvəllərində də vahid fikir formalaşmamışdır. Əsasən iki –təcrid etmə və inteqrativ mövqelər geniş yayılmışdır. I mövqeyə görə kulturologiyanın özünün,yəni başqa elmlərin heç birinə bənzəməyən baxışı vardır.II mövqeyə görə isə əksinə, kulturologiya mədəniyyət haqqında sosial və humanitar biliklərin sintezidir.

67. Kulturologiyanın funksiyalarını açıqlayın. (asan)

Kulturologiyanın funksiyaları aşağıdakılardır:

1. Tədqiqat funksiyası- məkan və zaman daxilində tarixin, mədəniyyətin və sivilizasiyanın nailiyyətlərinin dərk edilməsinə, təzahürlərin, hadisələrin, faktların və insanın inkişaf proseslərinin mahiyyəti və xüsusiyyətlərinin düzgün başa düşülməsinə imkan verən əsas qanunauyğunluqların kəşfi və ruhi və maddi həyatın müxtəlif sahələrində daha effektiv həyat fəaliyyəti texnologiyalarının aşkar edilməsidir.

2. Maarifçilik funksiyası - müxtəlif ixtisaslara, yaşa, cinsə və dinə malik insanların təhsilinə və maariflənməsinə, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına, cəmiyyətin müxtəlif ruhi və maddi mədəniyyət sahələri üçün şəxsiyyətlərin və liderlərin formalaşdırılmasına imkan verən, dünya mədəniyyəti və sivilizasiyasının inkişaf tarixi və nəzəriyyəsi sahəsində universal biliklərin yayılmasına yardımdır.

3. Metodoloji funksiya - öyrənilən obyektlərin daha tam dərk edilməsinə, onların təbiəti və inkişaf qanunlarının düzgün başa düşülməsinə, texnologiyalarının dəyişdirilməsi və təkmilləşdirilməsinə, alternativ inkişaf modelləri və innovativ imkanların yaradılmasına imkan verən, sistemli kulturoloji yanaşma prinsiplərinə əsaslanan metodologiya və metodların hazırlanmasıdır.

4. İstehsal funksiyası- bəşəriyyətin sosial-mədəni təcrübəsinin dərk edilməsi, insanın, insan münasibətləri və beynəlxalq münasibətlər

mədəniyyətinin təkmilləşdirilməsi, sosial və dövlət fəaliyyətinin, dövlət quruculuğu, milli və beynəlxalq idarəetmənin müxtəlif sahələri üzrə mütəxəssislərin hazırlığı üçün zəruri olan universal kulturoloji biliklərin istehsalıdır.

5. İdeoloji funksiya - dövlətin maraqlarına cavab verən, elmin ən yeni nailiyyətlərinə və milli mədəniyyət dəyərlərinə əsaslanan, insanların mənəvi, hüquq və estetik tərbiyəsinə, ictimai münasibətlərin tənzimlənməsinə, milli inkişaf məqsədlərinə nail olunmasında əhalinin yüksək sosial fəallığı və mobilliyinə yardım edən mütərəqqi ideologiyanın formalaşdırılmasıdır.

6. İdarəçilik funksiyası - insanların maddi rifahı və həyat keyfiyyətinin təmin edilməsinə, ictimai tərəqqiyə, daxili və beynəlxalq təhlükəsizliyə nail olma məqsədilə cəmiyyətin istehsal və sosial həyat fəaliyyətinin təşkil edilməsi üzrə dövlət aparatının effektivliyinin yüksəldilməsinə imkan verən kulturoloji idarəetmə texnologiyalarının yaradılması və təkmilləşdirilməsidir.

7.Quruculuq funksiyası - yoxsulluğun aradan qaldırılmasına, ekoloji təhlükəsizlik və davamlı inkişafa nail olmağa yardım edən, əvvəlki nəsillərin təcrübəsini, bəşəriyyətin müasir elmi və texnoloji nailiyyətlərini nəzərə alan, gələcəkdə milli və qlobal kreativ inkişaf ssenarilərinin və səmərəli modellərin yaradılmasıdır.

68. Kulturologiya elminin təşəkkülü və inkişaf mərhələlərini xarakterizə edin. (orta)

Kulturologiya bir elm kimi XX əsrin əvvəllərində meydana gəlmişdir. Onun yaranmasında ABŞ kulturantropoloqu və kulturoloqu Lesli Alvin Uayt (1900-1975) xüsusi rol oynamışdır. Lesli Alvin Uayt öz nəzəriyyəsini "Kulturologiya" adlandırmışdır. Lesli Alvin Uaytın bu elmi tədqiqatı "insan

və kulturologiya" anlayışlarını əhatə etdiyindən kulturologiya elmi dünya ictimaiyyətinin diqqət mərkəzinə çevrilmişdir. Kulturologiya ümumbəşəri və milli mədəni proseslərin obyektiv qanunauyğunluqlarını, insanların maddi və mənəvi həyatının mühüm hadisələrini özündə ehtiva etdiyi halda, kulturologiya tarixi elmin keçdiyi yolu tədqiq edir, kulturoloji fikrin inkişaf mərhələlərini təsnif edir, müxtəlif elmi istiqamətlərə aid kulturoloji nəzəriyyə və müddəaları ümumiləşdirir.

Kulturologiya elmi bir-birilə əlaqədar aşağıdakı vəzifələri həll etməlidir:

•Mədəniyyətin əsas tarixi tipləri, qanunauyğunluqları, funksiyası, strukturu və mahiyyəti haqqında zəruri olan minimum biliklərin verilməsi;

•Xüsusi və humanitar biliklərin harmonik əlaqələndirilməsi,peşə etikası və mənəviyyatın işlənilməsi yardım göstərilməsi;

•Müxtəlif milli-mədəni, etno –konfessional və digər platformaların tənqidi, yaradıcı qavrayışına imkan yaradılması;

•Mədəni simvollar dünyasında, incəsənət, ədəbiyyatda musiqidə və s.-də istiqamətlərdən baş açmağa, kömək edilməsi;

•Mədəniyyətin sosial-dəyişdirici funksiyalarını dərk edilməsi və qavranılması metodların işlənib hazırlanması;

Kulturologiyanın inkişafı ictimai, humanitar və təbiət elmlərinin metod və nailiyyətlərinin istifadəsi ilə əlaqədardır. Onlar arasında tarix, fəlsəfə, məntiq, psixologiya, sosiologiya, etika, estetika, etnoqrafiya, dinşünaslıq, arxeologiya, coğrafiya, filologiya, sənətşünaslıq, linqvistika, toponimika, sinergetika, politologiya, iqtisadiyyat, ekologiya, ontologiya, dövlətşünaslıq, hüquqşünaslıq, ölkəşünaslıq, futurologiya, diplomatiya tarixi, inzibati idarəetmə, menecment, qlobalistika, riyaziyyat, informatika və digər elmlər vardır.

Müasir həyatda sosial və humanitar elmlərin ənənəvi metodlarına tabe olmayan mürəkkəb sosial-siyasi problemləri düzgün konseptual görmək, planlaşdırmaq və sistemli həll etmək məsələsi cəmiyyətmizin aktual problemlərindən biridir.Dünya kulturoloji fikri ilə tanışlıq göstərir ki, mədəniyyət və mədəni inkişaf problemləri hələ antik dövrdən qabaqcıl insanları narahat etsə də, kulturologiyanın elm kimi təşəkkülü üçün şərait XIX əsrdə antropologiya, etnologiya, sosiologiya və psixologiyanın inkişafı nəticəsində əmələ gəldi. Kulturologiyanın təşəkkül və inkişafının aşağıdakı mərhələlərini qeyd etmək olar:

İnsan və onun dünyasının tədqiqi ilə məşğul olan etnologiya və antropologiyanın inkişafı (XIX əsrin axırlarına qədər);

Sosiologiya və psixologiyanın təşəkkülü və inkişafı (XIX əsrin axırlarından);

Öz fəaliyyət və inkişaf qanunauyğunluqları olan bəşəriyyətin mədəniyyəti haqqında elm olan kulturologiyanın təşəkkülü və inkişafı (XX əsrin ortalarına yaxın);

Sistemli kulturoloji tədqiqatların intensiv inkişafı (XX əsrin II yarısından etbarən).

69. Mədəniyyətin tarixi inkişaf mərhələləri və prinsiplərini şərh edin. (orta)

Müasir mədəniyyətşünaslıqda mədəniyyət tarixinin aşağıdakı mərhələləri təsnif edilir:

İbtidai icma mədəniyyəti (b.e. 4 min il əvvəl);

Qədim Dünya mədəniyyəti (b.e.4 min il əvvəl — b.e.V əsrinə qədər);

Orta əsrlər (V—XIV əsr.);

İntibah Dövrü (XIV—XVI əsr.);

Yeni Dövr (XVI ax.—XIX əsr.);

Ən Yeni Dövr (XIX ax. — hazırkı dövr).

Mədəniyyətşünaslığın əsas məsələlərindən biri də mədəniyyətlə təbiətin qarşılıqlı münasibətləridir.Müasir dövrdə bu münasibətlərin əhəmiyyəti çox aktualdır.Hər ikisi insan həyatının ayrılmaz hissəsidir.Mədəniyyət insanın fəaliyyəti nəticəsində təbiətin bir qədər dəyişilməz formasıdır.Bu bir tərəfdən təbiəti nizamlasa da,digər tərəfdən təbiətin nizamlanmış qaydasına ciddi dəyişikliklərə aparıb çıxarır.Mədəniyyət « ikinci təbiət » də adlana bilər.

İnsanın təbiətlə əməkdaşlığı hər iki subyektə sərfəlidir.İnsan təbiətdən maddi sərvət götürür, ideyalar alır, ondan öyrənir.Bu düşünülmüş olduqda təbiəti daha da zənginləşdirir.Təbiətə ziyan vuran hərəkətlər isə ilk növbədə insanın özünə ciddi problem yaradır.Bu hərəkət mədəniyyt anlayışına zidd sayılır.

Mədəniyyətlə təbiət vahid təsəvvür edilməli ,bir-birindən yararlanmalıdır.Bu baxımdan şəhər mədəniyyətinin heç də hamısı mədəniyyət hesab edilə bilməz.Bu fikir rus ziyalıları Nikolay Berdyayev və Nikolay Rerixin əsərlərində öz əksini tapmışdır.

Mədəniyyət aşağıdakı prinsiplərə söykənir:

1. Həyat dəyərləridir;
2. Davranış qaydalarıdır;
3. Maddi əsərlərdir.

Həyat dəyərləri həyatda insanın yaşadığı mühitdür və mədəniyyətin formalaşmasında böyük rol oynayır.

Davranış qaydaları özünü ilk növbədə mənəviyyatda göstərir.Mənəviyyat qaydaları dövlət tərəfindən məcburi elan edilərsə o qanun adlanır.

Maddi əsərlər isə birinci və ikinci prinsiplərin müxtəlif kombinasiyalarından yaranır.Hesab edilir ki,mədəniyyətdə dəyişiklər üçün

aşağıdakı iki şərt mütləq olmalıdır.Onlara bəzən aksiomalar da deyirlər:

1. İstənilən dəyişikilikləri şərait tələb edir;
2. Dəyişikliklər üçün müvafiq tərkib hissələri toplanmalıdır.

Həmçini aşağıdakı faktorlar olmasa dəyişiklər baş verə bilməz:

Təbii ehtiyatlar

Mədəniyyətlərin təması

Bir-brindən dəyərlənmə

İstehsalatda müvafiq texnologiyalar

Müvafiq təşkilati strukturlar

Düşüncələrdən keçmələr

Rasionallıq

70. Bədən tərbiyəsi və idman xidmətlərinin əsas xüsusiyyətlərini təhlil edin. Onların fərqini aydınlaşdırın. (çətin)

Bədən tərbiyəsi və idman xidmətlərinin xüsusiyyətləri, onların müxtəlif - tərbiyəvi, müalicə-sağlamlaşdırıcı, rekreasiya, təkrar istehsal, informatik-əyləncə, idrak, milli vətənpərvərlik, müdafiə, reklam, şəxsiyyətin sosiallaşması kimi sosial-iqtisadi funksiyaları ilə şərtləndirilir. Bu funksiyalar, bədən tərbiyəsi və idman xidmətlərinin müxtəlif altsahələri və istiqamətlərinin inkişafında həyata keçirilir:

- məktəbəqədər tərbiyə və təhsil sistemində uşaqların və gənclərin fiziki tərbiyəsi;
- tibb və sanatoriya-kurort xidmətləri, əhalinin sosial-peşəkar reabilitasiyası sistemində müalicəvi bədən tərbiyəsi;
- işdən və təhsildən kənar vaxtlarda, fəal fiziki istirahət növü kimi, bədən tərbiyəsi ilə məşğul olma (fiziki rekreasiya);
- müəssisələrdə, firma və təşkilatlarda əmək rejimində bədən tərbiyəsi (istehsalat rekreasiyası);

* idman tamaşaları, passiv istirahət və əyləncə növü kimi (asudə vaxtlarda);
* şəxsiyyətin fiziki və mənəvi inkişafının forması kimi, yüksək nailiyyətlər əldə etmiş həvəskar idmanı;
* milli idmanın və ölkənin adını yüksəklərə qaldıran Olimpiya oyunları, dünya çempionatları və beynəlxalq yarışlarda iştirak;
hərbi xidmətçilərin və hüquq-mühafizə orqanları işçilərinin tətbiqi-peşəkar idman hazırlığı;
* sağlam həyat tərzi, idmanm müxtəlif növlərinin, idmançıların istifadə etdiyi idman ləvazimatı, idman qurğularının və kütləvi informasiya vasitələrində reklamı;
* şəxsiyyətin sosiallaşması vasitəsi kimi, idman böimələrində, klublarda, könüllü idman cəmiyyətlərində, idman yarışlarında iştirak.

Bədən tərbiyəsi və idmanın funksiyalarının müxtəlifliyinə baxmayaraq, onları birləşdirən əsas amil - asudə vaxt, rekreasiya fəaliyyətinə məxsusluqdur. Bədən tərbiyəsi və idmanın funksiyalarının bu xarakterinə görə, onları iki əsas istiqamətdə qruplaşdırmaq olar: bədən tərbiyəsi xidmətləri və idman xidmətləri.

Bədən tərbiyəsi xidmətləri , əhalinin fiziki tərbiyəsi məqsədilə həyata keçirilən sosial fəaliyyətin müxtəlif formalarının müştərəkliyidir. Bədən tərbiyəsi xidmətləri, təhsil müəssisələrində, məktəbdən kənar könüllü bədən tərbiyəsi-sağlamlıq və idman təşkilatlarında, iş yerlərində - müəssisə, təşkilatda, əhalinin yaşayış yerlərində, istirahət evlərində, sanatoriya-kurort müəssisələrində, turist bazalarında və başqa rekreasiya müəssisələrində; hərbi xidmətçilər və hüquq-mühafizə orqanlarının şəxsi heyəti arasında, səhiyyə idarələrinin pasiyentləri arasında, o cümlədən, əlillər arasında - onların sosial-peşə reabilitasiyası çərçivəsində təşkil

oluna bilər.

İdman xidmətləri, şəxsiyyətin fiziki hazırlığının, onun mənəvi və iradə keyfıyyətlərinin mükəmməlləşməsinə, bədən tərbiyəsi-idman, tamaşa tədbirlərinin və əhalinin asudə vaxtının səmərəli istifadəsinin təşkilinə istiqamətlənmişdir.

Beləliklə, idman xidmətləri, insanın yarışlara hazırlaşdırılmasının, idman-əyləncə xidmətləri və yarış fəaliyyəti təşkilinin xüsusi təcrübə forması kimi çıxış edirlər.Bu zaman insanın potensial imkanlarını aşkara çıxaran səbəbləri, yüksək idman nəticələrinin əldə edilməsini, rekordların qazanılmasını, idman-əyləncə tədbirlərinin təşkilini təmin edən və yüksək nailiyyətlər qazanan həvəskar idman sferası seçilir. Bundan başqa, mənfəətin əldə edilməsinə yönəldilmiş, idman-əyləncə xidmətlərinin göstərilməsi zamanı yüksək informatik-əyləncə dəyərinə malik, kommersiya-idman fəaliyyətindən ibarət olan peşəkar idman seçilir.

İnsanların gündəlik həyatında peşəkar idmanm inkişafı və idman tamaşaları xidmətinin rolunun güclənməsi ilə, milli iqtisadiyyatın bir sahəsi olan bədən tərbiyəsi və idmanın formalaşması prosesi sürətlənir.

71. Turizmin sosial-iqtisadi mahiyyətini izah edin. (asan)

Turizm - fransız sözü olub, gəzinti, səfər mənasını verir. Bu, özündə ətraf mühiti, bu və ya digər regionların təbiətini, bu regionların xalqlarını, onların həyat tərzini, adət-ənənələrini, bəzi hallarda idman və biznes elementləri ilə uzlaşdırılan milli xüsusiyyətlərini öyrənmək məqsədli səyahəti əks etdirən fəal istirahət növlərindən biridir.

Öz təşkilinə görə turizm geniş fəaliyyət spektrinə malikdir. Onun fərqləndirici cəhətləri bunlardır:

* ərazi əlamətinə görə - ölkə daxilində və ayrıca götürülmüş ölkənin hüdudlarından xaricdə, yəni beynəlxalq turizm;

* davam etmə müddətinə görə - qısamüddətli (birgünlük gəzintilər, yürüşlər) və uzunmüddətli (yeddi gündən çox);

- turistlərin sayına görə - fərdi, qrup şəklində, ailəvi, təşkil ölunmuş və özfəaliyyət;
- təşkili xarakterinə görə - piyada və nəqliyyatın istifadəsi ilə;
- nəqliyyatın növünə görə - avtoturist, dəmir yolu sərnişini, aviaturist, gəmi turizmi;
- məqsədli təyinatına görə:

a) rekreasiya turizmi (istirahət və müalicə);
b) ekskursiya turizmi (mədəni və tarixi abidələrlə tanışlıq);
c) elmi turizm (simpoziumlarda, konfranslarda, seminarlarda və s. iştirak etmə);
d) etnik turizm (qohumlarla görüşmək üçün turizm);
e) işgüzar turizm (işgüzar görüşlərin keçirilməsi üçün vizitlər);
f) macəra turizmi (yürüş ekspedisiyaları, ov, balıq tutmaq və s.);
g) dini turizm (möminlərin ehtiram göstərdiyi yerə səyahəti);
h) əyləncə turizmi (bayram tədbirlərinin ziyarəti);
i) idman turizmi (idmanla məşğul olmaq üçün səyahət, azarkeşlərin səfərləri).

- yaşa görə - uşaq, gənc, orta yaşlı, ahıl yaşlı.

Bu və ya digər turizm növünün seçimi təbii şərait və turist regionunun xarakterindən asılıdır. Məsələn, alpinizmlə -hündür dağ massivlərinin, ovla isə - zəngin faunanın olduğu yerlərdə məşğul olmaq olar.

Planlı turizm səfəri əvvəlcədən hazırlanmış marşrut üzrə edilir. Bu zaman nəqliyyat, mehmanxana, qidalanma və s. xidmətlər əvvəlcədən sifariş olunur, turistlər tərəfindən tarixi abidələrin və görməli yerlərin ziyarəti əvvəlcədən planlaşdırılır.

Uzunmüddətli istirahət üçün sanatoriyalar, turist bazaları, pansionatlar, motellər, kempinqlər və s. hazırlanır. Qısamüddətli istirahət idarələrinə - gecə sanatoriyaları, profılaktoriyalar, bağ evləri, şəhər və şəhəryanı istirahət zonaları aiddir. Əksər hallarda, ayrı-ayrı regionlarda təbii-iqlim şəraitinin uyğun gəldiyi yerlərdə, özlərində müalicə və saglamlaşdırma idarələrinin fəaliyyətinin uzlaşmasını əks etdirən kurort-turist kompleksləri yaradılır.

72. Turizmin növlərini müxtəlif əlamətlərə görə qruplara ayırın. (asan)

Turizm - fransız sözü olub, gəzinti, səfər mənasını verir. Bu, özündə ətraf mühiti, bu və ya digər regionların təbiətini, bu regionların xalqlarını, onların həyat tərzini, adət-ənənələrini, bəzi hallarda idman və biznes elementləri ilə uzlaşdırılan milli xüsusiyyətlərini öyrənmək məqsədli səyahəti əks etdirən fəal istirahət növlərindən biridir.

Öz təşkilinə görə turizm geniş fəaliyyət spektrinə malikdir. Onun fərqləndirici cəhətləri bunlardır:

* ərazi əlamətinə görə - ölkə daxilində və ayrıca götürülmüş ölkənin hüdudlarından xaricdə, yəni beynəlxalq turizm;
* davam etmə müddətinə görə - qısamüddətli (birgünlük gəzintilər, yürüşlər) və uzunmüddətli (yeddi gündən çox);

- turistlərin sayına görə - fərdi, qrup şəklində, ailəvi, təşkil ölunmuş və özfəaliyyət;
- təşkili xarakterinə görə - piyada və nəqliyyatın istifadəsi ilə;
- nəqliyyatın növünə görə - avtoturist, dəmir yolu sərnişini, aviaturist, gəmi turizmi;
- məqsədli təyinatına görə:

a) rekreasiya turizmi (istirahət və müalicə);
b) ekskursiya turizmi (mədəni və tarixi abidələrlə tanışlıq);

c) elmi turizm (simpoziumlarda, konfranslarda, seminarlarda və s. iştirak etmə);

d) etnik turizm (qohumlarla görüşmək üçün turizm);

e) işgüzar turizm (işgüzar görüşlərin keçirilməsi üçün vizitlər);

f) macəra turizmi (yürüş ekspedisiyaları, ov, balıq tutmaq və s.);

g) dini turizm (möminlərin ehtiram göstərdiyi yerə səyahəti);

h) əyləncə turizmi (bayram tədbirlərinin ziyarəti);

i) idman turizmi (idmanla məşğul olmaq üçün səyahət, azarkeşlərin səfərləri).

- yaşa görə - uşaq, gənc, orta yaşlı, ahıl yaşlı.

Bu və ya digər turizm növünün seçimi təbii şərait və turist regionunun xarakterindən asılıdır. Məsələn, alpinizmlə -hündür dağ massivlərinin, ovla isə - zəngin faunanın olduğu yerlərdə məşğul olmaq olar.

73. Turoperatorları fəaliyyətinə görə qruplara bölün və misal göstərməklə izah edin. (orta)

Turizm müəssisələri öz fəaliyyət dairəsinə görə turoperator və turagentlərə bölünürlər.

Turoperator turizm bazarının aktiv subyektlərindəndir. O, kommersiya məqsədləri ilə turizm məhsulunun planlaşdırılması, işlənib hazırlanması, hərəkətə gətirilməsi və satışını həyata keçirir. Turoperatorun iş funksiyaları aşağıdakılardır: 1. Potensial müştərilərin turlara və turizm proqramlarına tələbatının öyrənilməsi; 2. Perspektiv xidmət proqramlarının hazırlanması və onların turistlərin tələbatına uyğunluğunu öyrənmək məqsədilə sınaqdan keçirilməsi;

3. Xidmət təminatçıları ilə müqavilələr əsasında əməkdaşlıq. Bunlara aşağıdakıları aid etmək olar:

• yerləşdirmə obyektləri ilə - turistlərin yerləşdirilməsi üçün;

• qidalanma byektləri ilə - turistlərin qida ilə təmin edilməsi üçün;

• nəqliyyat müəssisələri, ayrı nəqliyyat sahibləri ilə - turistlərə daşınma və digər nəqliyyat xidmətlərinin göstərilməsi məqsədilə;

• ekskursiya təşkilatlan, muzeylər, sərgi salonları, idman qurğuları və digər təşkilatlarla - turistlərə müvafiq xidmətlərin təqdim edilinəsi üçün;

• video, şou, teatr rəhbərləri ilə - turistlərin bu yerləri ziyarət etməsi üçün;

•milli parkların, qoruq, ovçuluq, balıqçılıq təsərrüfatların rəhbərliyi ilə - turistlərin istirahətinin təşkili və onlara uyğun xidmətlərin göstərilməsi üçün;

• yerli bələdiyyə və icra hakimiyyəti orqanları ilə - turizm məhsulunun təbliğatı üçün.

4.Turların qiymətlərinin bazar şəraitini nəzərə almaqla müəyyən edilməsi;

5. Turist marşrutu ilə səyahət edən turistlərin reklam məmulatları, xüsusi ləvazimat və inventarla təchiz edilməsi;

6. Turistlərlə birbaşa kontaktda olan, marşrutlarda iş görən kadrların hazırlanması, seçilməsi və təyin edilməsi; xidmət proqramlarını yerinə yetirən qid-bələdçilərin, animatorların, metodistlərin və digərlərinin işini əlaqələndirmək;

7.Turizm məhsulunun istehlakçılara çatdırılması üçün reklam-informasiya fəaliyyəti;

8. Məhsulun birbaşa və ya agentlər vasitəsilə satışını təşkil etmək;

9.Xidmətin keyfiyyətinə və məhsula uyğunluğuna nəzarət etmək;

10.Xidmət zamanı turistlərlə daimi operativ əlaqə yaratmaq, ortaya çıxan məsələləri həll etmək.

74. Turizmdə seqmentləşdirmənin əsas əlamətlərini praktiki cəhətdən əsaslandırın. (orta)

Səyahətlər bazarı bir çox hissədən - seqmentlərdən ibarətdir ki, bunların hər biri, eyni alıcılıq xarakteristikalarına malik olan istehlakçı qrupunu nəzərdə tutur. Bu səciyyəvi xüsusiyyətlərin siyahısı, "səyyahın profili" termini ilə işarə edilir. Turizm sənayesində strateji marketinq tətbiq olunarkən, bazarın seqmentlərinin müxtəlif xüsusiyyətlərinin öyrənilməsindən başlayırlar, daha sonra, müəyyən seqmentlər bir hədəf kimi seçilir və bazarın belə hədəf seqmentlərinə yiyələnmək üçün müvafıq strategiyalar hazırlanır.

Turizm biznesi ilə məşğul olanlar üçün müştərilərin vərdişləri və nəyə üstünlük verdikləri barədə informasiyanın olması vacibdir. Bu informasiyanın tərkibinə, üstünlük verilən nəqliyyat növləri, turların ödənilməsi qaydaları, istehlak edilən xidmətlərin səviyyəsi, turistin səyahət etməyi xoşladığı fəsil və s. barədə məlumatlar daxildir.

Səyahətçilər əksər hallarda, müstəqil və qrup tərkibində səyahət edənlərə bölünürlər. Kütləvi turizm yarandıqdan sonra, bu amil, müəyyən əhəmiyyət kəsb edir. Səyahətçilərin bu iki kateqoriyası arasında nisbətin dəyişməsi bütövlükdə biznesə təsir edə bilər. Misal üçün, tədqiqatlar göstərir ki, qrup tərkibində səyahət edənlər, diqqətəlayiq yerləri seyr etməyə, əyləncəyə və s., gündə, orta hesabla, daha çox vaxt sərf edirlər, nəinki, müstəqil səyahətçilər.

Bizneslə bağlı olmayan səbəblərdən səyahət edənlərin müxtəlif vərdişləri, üstün tutmaları var ki, bunlar da həm səyahət edənlərin, həm də turist biznesinin mənafeyi naminə, öyrənilməli və istifadə olunmalıdır. Məsələn, ABŞ-da turist bir-birindən fərqlənən səkkiz seqmentdən ibarətdir:

1. dostları yaxud qohumları ziyarət etmək;
2. istirahət məqsədi ilə çimərliyə, gölə, parka ketmək;
1. mənzərəli yaxud mədəni dəyərə malik yerlərə avtomobildə, avtobusda

yaxud qatarda səyahət;

2. bazarlıq yaxud əyləncə məqsədi ilə konsertə, muzeyə, ya da sadəcə gəzinti üçün şəhərə çıxmaq;

1. təbiətə qovuşmaq üçün səfər;
2. kurorta getmək;
3. kruizlər;
4. tematik parka, sərgiyə yaxud mühüm hadisənin, məsələn, Olimpiya oyunlarının tamaşasına səfər etmək.

Turizm bazarının seqmentləşdirilməsi potensial istehlakçıların tələbatının kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin təsnifatı üzrə aparılan işdir. Seqmentləşdirmənin əsas məqsədi – turizm məhsulunu ünvanlı etməkdir. Belə ki, bütün istehlakçıları eyni xidmət növü ilə razı salmaq olmaz.

Bununla da marketinqin əsas konsepsiyası – istehlakçıya üz döndərmək prinsipi həyata keçirilir.

Seqment – bazarın elə hissəsidir ki, orada alıcılar turizm məhsuluna oxşar tələblərlə iştirak edirlər. Bazarın bir çox hissəsinə alıcılar müəyyən səbəblərdən çıxa bilmirlər, bazarın bu hissəsi onları maraqlandırmır. Ona görə də, firmalar öz qüvvələrini və sərvətlərini o seqmentə yönəltməlidirlər ki, ondan maksimum xeyir götürə bilsinlər.

Seqmentləşmə üsulu seçildikdən sonra, firma seçilən seqmentlərin profilini düzəldir və onların hər birinin cazibədarlığını qiymətləndirir. Məqsədyönlü bazarın seçilməsi üçün neçə seqment götürülür və hansı yolla məqsədyönlü seqment seçilir və onun firma üçün xeyri nədədir? Bu suallara cavab tapmaq üçün aşağıdakıları nəzərə almaq lazımdır:

Firmanın resurs imkanları. Əgər resurs imkanları məhduddursa, onda uyğun marketinq strategiyasından istifadə etmək lazımdır;